www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 oktyabr 2016-cı il Cümə axşamı № 238 (6559) Qiyməti 60 qəpik

**Xəbər**

## Sevgilisini öldürüb qaçan kişi avtoqəzaya düşdü

yazısı səh.14-də

**Gündəm**

### Kredit borcları milli fəlakət səviyyəsində: nə edək?



**Ekspert:** "Çox güman ki, borcların bir hissəsini ya Mərkəzi Bank, ya da dövlət öz üzərinə götürməyə məcbur olacaq, başqa çıxış yolu yoxdur..."

yazısı səh.6-da

### Xarici investorların qarşısını kəsən "əjdaha" - inhisar, məmur biznesi...

yazısı səh.4-də

### Mərkəzi Bankın banklardan manat istəməsinin pərdəarxası...

yazısı səh.6-da

### Qan çanağına dönən Yaxın Şərq yenidən dizayn olunur

yazısı səh.9-da

### Cəsədi yandırıb külünü saxlamağa dinlər nə deyir...

yazısı səh.15-də

### Neftin qiymətlərindən asılılıq - çıxış yolu nədir...

yazısı səh.12-də

### Masallıda və Cəlilabadda evlər sel sularının altında qaldı

yazısı səh.14-də

### Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı yenilik

yazısı səh.12-də

### Türkiyə hüquq-mühafizə sistemini möhkəmlədir

yazısı səh.13-də

### Azərbaycanda ürək transplantasiyası mümkün olacaq

yazısı səh.2-də

### Həmsədrlər Qarabağdan "qar xəbəri" gətirdilər

yazısı səh.11-də

"Evimdəyəm" deyən sabiq nazir haqda şok xəbərlər

# ƏLİ ABBASOVUN SUÇU NƏ... - YENƏ DÖVLƏTƏ KƏLƏK GƏLİB...

Barəsində cinayət işi açılması barədə xəbəri təkzib edən sabiq nazir özünə niyə vəkil tutub?; vaxtilə iqtidarda ən fağır nazir kimi tanınsa da, Əli Abbasov vurduğu ziyanı ödəmək istəməyib, üstəlik, mülklərini gizli satışa çıxarıb




yazısı səh.5-də

## İşğalçının müharibədən sığortalanmaq planı fiaskoda - özü isə təlaşda...

Qarabağla bağlı mühüm gəlişmə: İrəvan yox, Bakı deyən oldu; Sərkisyanın təmas xəttində beynəlxalq monitorinq mexanizminin tətbiqi ilə bağlı istək-tələbi gündəmdən çıxdı

yazısı səh.8-də



*Aşıq Ədalət:*

### "İndikilər aşıq deyil, təlxəklik edirlər..."

yazısı səh.10-da



### Bakıda "Soso qalmaqalı"....

yazısı səh.13-də



*Qənirə Paşayeva:*

### "Mənim adım nakam bir sevginin şərəfinə qoyulub"

yazısı səh.7-də

27 oktyabr 2016

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016



# Zakir Həsənov Aİ nümayəndəsi ilə görüşdü

**Oktyabrın 26-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırkı vəziyyətə dair məsələlərin müzakirə edildiyi görüşdə general-polkovnik Z.Həsənov Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin 20 ildən artıqdır Ermənistanın işğalı altında olduğunu, bunun nəticəsində bir milyondan çox insanın doğma yurd-yuvasından didərgin düşdüyünü, qarşı tərəfin cəbhədə vəziyyəti gərginləşdirmək cəhdlərini bir daha qonaqların diqqətinə çatdırıb.

Nazir deyib ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxması ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul olunub. Lakin Ermənistan hakimiyyəti uzun illərdir beynəlxalq ictimaiyyətin haqlı tələbinə məhəl qoymur və mövcud status-kvonu saxlamaqda maraqlıdır.

H.Salber də öz növbəsində bildirib ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin tərəfdarıdır və bu istiqamətdə danışıqların davam etdirilməsi zəruridir.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.



# Bakıda dini mağazalarda reyd keçirildi

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi oktyabrın 26-da hüquq-mühafizə orqanları ilə birgə Yasamal rayonu ərazisində yerləşən dini təyinatlı ədəbiyyatın və əşyaların satışı ilə məşğul olan 6 mağazada daha bir reyd keçirib.**

Dövlət Komitəsinin mətbuat xidmətindən APA -ya verilən məlumata görə, monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsindən ibarət olub.

Baxış keçirilən mağazalardan 4-nün ixtisaslaşdırılmamış satışla məşğul olduğu aşkar olunub. Bundan başqa, 16 dini təyinatlı ədəbiyyatın müvafiq razılıq olmadan satıldığı müəyyən edilərək hüquq-mühafizə orqanları tərəfindən götürülüb.

Qeydə alınmış qanun pozuntuları hüquq-mühafizə orqanları tərəfindən müvafiq qaydada sənədləşdirilib və aşkar edilmiş qanun pozuntuları ilə bağlı müvafiq araşdırmalar davam etdirilir.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Hacı Qalib 28-ci dəfə Həcc ziyarətindən qayıtdı

## "Gözümüzün qarşısında Səudiyyə kralı və oğlu 6 nazirlə bir yerdə Kəbəni ziyarət etdi"



**Milli Məclisin sabiq deputatı Hacı Qalib Salahzadə ümrə (kiçik Həcc) ziyarətindən qayıdıb. Bu barədə o, "Yeni Müsavat"a açıqlamasında deyib. Hacı Qalibin sözlərinə görə, oktyabrın 17-də səfərə yollanıb və Məkkədəki müqəddəs ünvanları ziyarət edib: "Bir naxçıvanlı dostum var, Badamlı kəndindən. Onunla bir yerdə getdik və Allahın köməkliyi ilə ziyarət etdik".**

Q.Salahzadənin sözlərinə görə, ona göndərilən dəvətdə ümrə ziyarəti zamanı Kəbə evinə daxil ola biləcəyi bildirilibmiş. Elə bu səbəbdən də 28-ci dəfə Həcc ziyarətində iştirak etməməsindən təəssüflənməyib. Çünki budəfəki ümrə ziyarətində Kəbə evində üçüncü dəfə olmaq şansı qazanacaqmış: "Mən 2010 və 2015-ci illərdə Kəbə evinin içərisində olmuşam. Bu dəfə də mənə dəvət gəlmişdi. İldə bir dəfə dünyanın müxtəlif ölkələrindən dəvət olunmuş 250-300 nəfərin iştirakı ilə Kəbənin yuyulması mərasimi keçirilir. Kəbə evinin qapıları həmin gün açılır və müxtəlif ətirlərlə simvolik olaraq Kəbə evinin içərisinin yuyulması mərasimi həyata keçirilir. Amma kiçik həcc ziyarətinə getməzdən bir həftə əvvəl bütün ziyarətçilərə məlumat verildi ki, Kəbə evinin içərisinə girmək mümkün olmayacaq. Bizə dedilər nəzərdə tutulan həmin gün, həmin saatda Səudiyyə kralının özü ziyarətə gələcək. Amma buna baxmayaraq, mən ziyarəti təxirə salmadım". **Hacı Qalibin sözlərinə görə, budəfəki yuyulma mərasimi Kral Salman bin Əbdüləziz əs-Səudin rəhbərliyi ilə həyata keçirildiyi üçün digər dəvətlilər ora buraxılmayıb:** "Gözümüzün qarşısında Səudiyyə kralı və oğlu 6 nazirlə bir yerdə Kəbəni ziyarət etdi. Kral iki rükət namaz qıldı".

**Hacı Qalib dedi ki, Kəbə evinə daxil ola bilmədiyinə görə də təəssüflənmir:** "Sizə bir faktı deyim, Azərbaycan prezidenti İlham Əliyev müsəlman ölkələri prezidentləri içərisində yeganə dövlət başçısıdır ki, 3 dəfə Kəbə evinin içərisində olub. Bu, Allahın qismətidir. Kəbə evinin içərisində olmaq var-dövlətlə ölçülmür. Gərək Allah istəsin ki, sən ora daxil ola biləsən".

**Q.Salahzadə dedi ki, 90-cı ildən getdiyi Həcc ziyarətinə yalnız bu il gedə bilməməsini də Allahın qisməti sayır:** "Vaxt olub ki, mən deputat olanda bir günün içərisində Mədinəyə uçmuşam, Peyğəmbərimizi ziyarətdən sonra Məkkəni də ziyarət edib axşam da dostumun təyyarəsi ilə Bakıya qayıtmışam. Səhər isə Milli Məclisin iclasına qatılmışam. İndiyə qədər heç bir deputata bu qədər Həcc ziyarətində olmaq qismət olmayıb, bundan sonra da çətin ki, kiməsə qismət ola. Allahın qisməti başqa şeydir. Mənim şahidlərim var, kimsə düşünməsin ki, düz demirəm. Bu il də Həcc ziyarətimə ona görə getmədim ki, Kəbə evinin içərisinə girməyə dəvətnaməm var idi. İndiyədək 27 dəfə Həcdə olmuşam, amma kiçik həcdə nə qədər olduğum dəqiq yadımda deyil. Allah getmək istəyənlərə də nəsib eləsin!"

❑ **ELŞAD**



# Azərbaycanda ürək transplantasiyası mümkün olacaq

**Azərbaycanda ürək transplantasiyasının həyata keçirilməsi yaxın zamanda mümkün olacaq.**

APA-nın məlumatına görə, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib. O deyib ki, bu istiqamətdə işlər aparılır: "Azərbaycanda bu sahədə böyük işlər görülür. 15 il əvvəl Azərbaycanda insan orqan və toxumalarının transplantasiyası çox az şəkildə həyata keçirilirdi. Bu gün artıq ölkəmizdə qara ciyər, böyrək, müxtəlif insan toxumalarının, gözün müxtəlif hissələrinin transplantasiyası mümkündür".



# Rusiya və Azərbaycan gəncləri Bakıda dəyirmi masaya toplanır

**Musavat.com xəbər verir ki, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi nəzdindəki elmi-kulturoloji mərkəz və Dmitri Lixaçev adını Rusiya Mədəniyyət İrsi institutları oktyabr ayının 28-də dəyirmi masa arxasında görüş keçirəcəklər. Tədbirdə Rusiyanın müxtəlif şəhərlərindən gəlmiş ixtisaslaşdırılmış kadrlar iştirak edəcək. Mövzu "Azərbaycan və Rusiya gənclərinin mədəniyyət yönümü: Müasir durum və dövlətin mədəniyyət siyasəti" ətrafında olacaq.**

Görüş zamanı dəyirmi masa arxasına yığışmış iştirakçılar Rusiya və Azərbaycan gəncliyi qarşısında duran bir çox problemləri müzakirə edəcək, yaranmış bəzi böhran nöqtələrindən birgə çıxış yolları axtaracaqlar. "Müasir informasiya qarşıdurması, qloballaşmanın fəsadları" da dartışılacaq mövzular sırasındadır.

Görüş 28 oktyabr tarixində saat 11-00-da Koroğlu Rəhimov küçəsi, 822, 823 ünvanında keçiriləcək.

# Belində yırtıq əmələ gələn vicdan məhbusunun həyatı təhlükədə

## Əbdül Əbilov müalicə müəssisəsinə köçürülüb; Qiyas İbrahimova oxunan hökmdən apelyasiya şikayəti veriləcək; İlqar Məmmədov məhkəməsini gözləyir

**Oktyabrın 25-də Bakı Ağır Cinayətlər Məhkəməsində NİDA vətəndaş hərəkatının üzvü Qiyas İbrahimov 10 il müddətinə azadlıqdan məhrum edilib. Ənvər Seyidovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı gənc fəala 9 il cəza istəsə də, hakimin 10 il hökm oxuması sosial şəbəkələr və mətbuatda ciddi müzakirələrə səbəb olub.**

Q.İbrahimovun **vəkili Elçin Sadıqov** "Yeni Müsavat"a açıqlamasında hökmə öz kəskin etirazını bildirərək, qərardan apelyasiya şikayəti verəcəklərini bildirdi: "Prokurorun 9 il iş istəyib, hakimin 10 il cəza verməsi qanunla qadağan olunmur. Amma Cinayət Prosessual Məcəlləsinə görə, cinayət təqibini həyata keçirən, o cümlədən cəza təklifini vermək səlahiyyəti olan orqan prokurorluqdur. Məhkəmə yalnız öz funksiyasını yerinə yetirməlidir və əlavə ağırlaşdırıcı hallar tətbiq edə bilməz. Məhkəmə ittihamlara baxır, ittihamları da prokuror təqdim edir və bunu da müdafiə edir. Bundan kənara çıxmaq olmaz. Bu, ədalət mühakiməsinin prinsiplərinə ziddir. Narkotik ittihamına məruz qalanlar, hətta narkotikdən istifadə etdiklərinə etiraz edən şəxslər belə ilk məhkumluqlarında 10 il cəzaya məhkum edilmirlər. Bütün hallarda bu cəzanın tətbiq edilməsi Qiyasa qarşı qərəzin təzahüri idi. Hökmü alan kimi qərar qanunsuz olduğuna görə dərhal apelyasiya şikayəti verəcəyik".

Xatırladaq ki, bu ilin mayında həbs edilən Q. İbrahimov Cinayət Məcəlləsinin 234.4.1-ci (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 234.4.3-cü (külli miqdarda törədildikdə) maddələri ilə ittiham olunur.

**REAL hərəkatının sədri İlqar Məmmədovun üzümüzə gələn ayın 18-də Ali Məhkəmədə kasasiya şikayətinə baxılacaq. Bu barədə məlumat verən vicdan məhbusunun həyat yoldaşı Vəfa Məmmədova son durumla bağlı bunları dedi:** "İlqarla bazar günü telefonla danışdıq. Çox yaxşıdır, hər şey qaydasındadır. Hazırda heç bir narahatçılığımız yoxdur. Gələn həftə görüşə gedəcəyik. Noyabrın 18-də Ali Məhkəmədə keçiriləcək prosesini gözləyir".

**13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən NİDA-çı gənc Əbdül Əbilovun səhhətində ciddi problemlər yaranıb. Bu səbəbdən gənc fəal müalicə müəssisəsinə köçürülüb. Bu barədə qəzetimizə onun anası Nurcahan Əbilova məlumat verdi:** "Yarım ay olar oğlum müalicə müəssisəsindədir. İnşallah, oradan evə gələr. Nə vaxt müalicəsinin bitəcəyi ilə bağlı hələ ki heç nə demirlər. Əbdülün belində yırtıq əmələ gəlib. Ona görə müalicə müəssisəsinə köçürdülər. Problemi ən çox onunla bağlıdır. İndiyə qədər dəfələrlə cəhd etdik ki, müalicə müəssisəsinə köçürülsün. Amma alınmırdı. Şükürlər olsun ki, bu dəfə alındı. Müəssisəyə köçürüləndən tez-tez zəng edir. 3 gündən bir yemək aparırıq".

❑ **Cavanşir ABBASLI**

# Polkovnik İlqar Əliyevi "aradan götürmək" kimə lazım idi?

## Odioz general "mahmudovçu" polkovnikin öldürülməsinin detallarını vəkilinə ötürüb

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik İdarəsinin həbsdə olan rəisi Akif Çovdarov vəkili Kamandar Nəsibova sensasion sayıla biləcək məlumatlar verib. Sitat: "Akif Çovdarov rəisə (BİT rəisi nəzərdə tutulur - E.M.) dedi ki, İlqar Əliyevi döyüb, sonra asıb öldürmüsünüz, o biri təqsirləndirilən şəxs Orxan Osmanovu döyüb, yalandan ifadə almısınız. İlqarı necə döyüb öldürüb sonra asıblar, hamısı dəqiqdir. Akif də deyir ki, mən bunlara etiraz olaraq özümü aclıq edib öldürəcəyəm. Eldar Mahmudova qarşı İlqar Əliyevdən ifadə almaq istəyiblər. Orxan Osmanovdan isə Akif Çovdarova qarşı ifadə almaq istəyiblər".**


İlqar Əliyev


Akif Çovdarov

Yada salaq ki, E.Mahmudov "vurulandan" sonra "MTN işi" üzrə ilk həbs edilənlərdən biri də məhz İ.Əliyev olmuşdu. 2015-ci il oktyabrın 17-də həbs edilən İ.Əliyevin asılmış vəziyyətdə olan meyitini 2 ay sonra - dekabrın 20-də saxlanıldığı BİT-dəki kamerada aşkarlamışdılar...

BİT-dən İ.Əliyevin meyiti çıxan gündən onun öldürülə biləcəyi haqda ehtimallar vardı. İndi isə bu ehtimalları inandırıcı edən detallı açıqlama ortalıqdadır. Bunu söyləyən isə sıradan bir şəxs deyil. A.Çovdarov İ.Əliyevin öldürülüb sonra asıldığını dilə gətirirsə, dediklərinə inanmamaq üçün hər hansı bir ciddi əsas yoxdur.

A.Çovdarov İ.Əliyevin öldürülməsinin mümkün səbəbini də açıqlamaqdan çəkinmir. Deyir ki, İ.Əliyevdən Eldar Mahmudovun əleyhinə ifadə istəyiblər. Verməyib və onu döyüblər, adam ölüb. A.Çovdarov İ.Əliyevin asılmasını ölümünün ört-basdır edilməsi məqsədi daşıdığını da açıqlayır.

İ.Əliyev Baş Prokurorluğun araşdırdığı "MTN işi" üzrə əsas fiqurantlardan biri idi. Sabiq milli təhlükəsizlik naziri E.Mahmudovun yaxın çevrəsinə daxil olan bu şəxsin adı jurnalistlərə, sahibkarlara qarşı həyata keçirilən qanunsuzluqların əsas icraçısı kimi hallanırdı. Bu haqda mətbuatda kifayət qədər məlumat var. Onun qəfil ölümü çoxsaylı suallar yaratmışdı. MTN-çinin saxlanıldığı təcridxanada özünü asmasına Akif Çovdarovun açıqlamasına qədər də inananlar az idi.

İ.Əliyevin ailəsi də onun özünü öldürməsinə çox ciddi şübhələrinin olduğunu gizlətmirdi. "Yeni Müsavat"ın 8 yanvar 2016-cı il tarixli sayında dərc edilən "Ailəsi MTN polkovnikinin özünü öldürməsinə inanmır" http://musavat.com/news/olke/ailesi-mtn-polkovnikinin-ozunu-oldurmesine-inanmir_317110.html sərlövhəli yazıda bu haqda məlumat verilirdi.

**Sitat:** "İ.Əliyevin ailəsinə yaxın mənbə "Yeni Müsavat"a deyib ki, ailə üzvləri onun həyatla öz xoşu ilə vidalaşdığına inanmadıqlarını istintaqçılara da deyiblər. "İlqar Əliyev ölümündən az əvvəl həyat yoldaşı ilə telefonla danışıb, hər şeyin normal olduğunu deyib. Onun iki uşağı var, yoldaşından uşaqlarını soruşub. Deyib ki, hər şey yaxşı olacaq. Yeni özü də bilirdi ki, 10-12 il cəza verilə bilər. Həbsə düşməyindən narahat olub, bədbin, fikirləri qarışıq olub. Amma özünü asması heç ağla gələn məsələ deyil... Deyib ki, atası, qardaşı çox da qüssələnməsin. Bir işdir başına gəlib. Yeni İlqar Əliyev həbs olunmasından narazı olub. Amma onun özünü asması üçün əsasları olmayıb. Onun ölümündən sonra vəkili də ailəsinə deyib ki, İlqarın vəziyyəti pis olmayıb. Onunla məsləhətləşmələr aparıb, müdafiə taktikası qurub, vəsatətlər hazırlayıblar. Vəkili hər gün onunla görüşüb, nə edəcəklərini müzakirə ediblər. Adam özünü asacaqdısa, niyə müdafiə olunmağa hazırlaşıb?"

"Yeni Müsavat"ın əməkdaşı İlqar Əliyevin vəkili olmuş Rəşad Mehdizadə ilə əlaqə saxlayaraq A.Çovdarovun fikirlərinə münasibətini öyrənib. Vəkil deyib ki, İ.Əliyevdən Eldar Mahmudovun əleyhinə ifadə onun iştirakı ilə alınmayıb. R.Mirmehdizadə A.Çovdarovun fikirlərini şərh etməyib.

Mümkündür ki, İ.Əliyevi vəkilsiz çağırıb Eldar Mahmudovun əleyhinə ifadə istəyiblər. Ola bilər ki, o, belə bir ifadə verməkdən imtina edib və Akif Çovdarovun söylədiyi ssenari işə düşüb. İ.Əliyevin tələb edilməndən artıq danışması da onun həyatı üçün təhlükə yarada bilərdi. Bu xüsusda "Yeni Müsavat"ın 18 yanvar 2016-cı il tarixli sayında "MTN polkovnikinin müəmmalı ölümünün şok sirri- "Danışacam..." http://musavat.com/news/olke/mtn-polkovnikinin-muemmali-olumunun-shok-sirri-danishacam_319251.html sərlövhəli yazıda söhbət açılırdı.

**Həmin yazıdan sitat:** "Əldə etdiyimiz son bilgilər İlqar Əliyevin həbsindən sonra susmaq niyyətində olmadığını deməyə əsas verir. Belə ki, qaynağımız iddia edir ki, saxlanıldıqdan sonra barəsində ki həbslə əlaqəli təqdimata baxılarkən İlqar Əliyev konkret ünvanları silkələyəcək fikirlər səsləndirib. Tezliklə azad edilməyəcəyi təqdirdə bildiklərini geniş ictimaiyyətə çatdıracağı ilə bağlı mesajlar verib. Bir sözlə, kompromatları üzə çıxaracağının anonsunu verib. Səbayel Rayon Məhkəməsində barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilərkən bir qədər ümumi danışan İlqar Əliyev Bakı Apelyasiya Məhkəməsində fikirlərini konkretləşdirib, daha kəskin çıxış edib. Ona "bu gedişlə özünü yandıracaqsan", - deyilsə də, İlqar Əliyev susmayacağını dəfələrlə ifadə edib".

İ.Əliyevin bildikləri siyasi-kriminal janrda çoxsaylı kitabların ana xəttini təşkil edə bilərdi. Onun adı ictimai-siyasi olaylarda daim qırmızı xətlə keçib, ən qalmaqallı proseslərin yönləndiricisi kimi məhz MTN polkovnikinin silueti görünürdü. Belə bir şəxsin danışmasının hədəf götürdüyü şəxslər üçün elə də yaxşı nəticələr verməyəcəyini izah etməyə də ehtiyac yoxdur. Bəlkə elə İ.Əliyev E.Mahmudovun özünü hədəf götürüb?

O Eldar Mahmudovu ki, Azərbaycanın təhlükəsizliyinə cavabdeh bir qurumu özünün şəxsi maraqlarına tabe etdirə bilmişdi. Nazirlər, komitə sədrləri, bir çox hüquq-mühafizə orqanlarının yüksək çinli məmurlarını özünün istəyinə uyğun qərarlar verməyə qədər asılı duruma salmağı bacarmışdı. E.Mahmudovun həbsi həmin məmur tayfasının da ən azı karyeralarının sonunu gətirməsi demək olardı. Odur ki, vaxtilə Eldar Mahmudovdan asılı olanlar özlərini, kreslolarını qorumaq üçün İ.Əliyevin susdurulmasına ayaq verə bilərdilər.

Qeyd edək ki, İ.Əliyevin BİT-də ölümündəın sonra özünü asmasını şübhə altına alan çoxsaylı məlumatlar dolaşırdı. Belə ki, polkovnikin özünü asması üçün mələfəni haradan alması, özünü haradan və necə asması, BİT nəzarətçilərinin həmin vaxt harada olmaları, həmçinin kamera yoldaşının kimliyi və digər suallar cavabsız qalıb. Məsələn, İlqar Əliyevin meyiti BİT-dən çıxandan 2 gün sonra - 2015-ci il dekabrın 22-də orada saxlanılan digər məhbus Manaf Paşayevin də meyiti aşkar olunub. Rəsmi məlumatda onun da özünü asdığı bildirilib. M.Paşayevin İlqar Əliyevin kamera yoldaşı olduğu haqda məlumat vardı. Belə ehtimallar da irəli sürülür ki, M.Paşayev İ.Əliyevin ölümü haqda məlumatlara malik olub və bu üzdən o da eyni üsulla aradan götürülüb...

Üstəlik, İ.Əliyevin Sabunçu Rayon Prokurorluğundan Bakı Şəhər Prokurorluğuna, bir müddət sonra isə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə ötürülməsi də müəyyən nəticələr çıxarmağa imkan verir. Birincisi, İlqar Əliyevin ölüm işi prokurorluq orqanlarında dövr etdiyi bir vaxtda elə həmin təcridxanada eyni üsulla dünyasını dəyişmiş məhbus Manaf Paşayevin işi Sabunçu Rayon Prokurorluğunda qaldı. Nə baş verib? Eyni təcridxanada 2 gün fərqlə iki məhkum eyni səbəblə dünyasını dəyişib.

Bəs nə üçün 1 məhbusun ölüm işi bir istintaq qurumunda, o biri isə bir başqasında araşdırılıb?

Həm də hər iki iş üzrə nəticə bu gün də ortada deyil. İlqar Əliyevin ölüm işini daha dərindən araşdırmaq üçün alıb prokurorluğun əsas qurumuna ötürmüşdülərsə, nəticə niyə yoxdur?

❑ E.MƏMMƏDƏLİYEV

# Akif Çovdarovun "haqq-ədalət ricaları"na hüquq müdafiəçiləri reaksiya verdi


**Mirvari Qəhrəmanlı:** "Onun da hüququnun pozulmasının əleyhinəyəm"


**Səadət Bənəniyarlı:** "Çovdarovu müdafiə etmək niyyətində deyilik"

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov aclıq aksiyası keçirir. Vəkili Kamandar Nəsibov bildirib ki, buna səbəb A.Çovdarovun səhhətində yaranan problemlərin müalicəsinə yaradılan süni problemlərdir. A.Çovdarov aclıq aksiyasına başlaması ilə bağlı məktubunu vəkillərinə təqdim edib. O, məktubunda qeyd edib ki, Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən "müalicə" yolu ilə öldürüləcəyindən tam əmindir. Odur ki, bunlara etiraz olaraq, həyatının təhlükədə olduğunu düşünərək, aclıq aksiyasına başlayıb. "Aclığı 25 oktyabr, səhər saat 09:00-dan elan edirəm" - deyə məktubun sonunda qeyd edilir və həbsdəki generalın imzası ilə təsdiq olunur.**

Akif Çovdarovun ictimai reputasiyası birmənalı mənfi işarəlidir. Onun adı "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətl işində, "Azadlıq" qəzetinin müxbiri Aqil Xəlilin bıçaqlanmasında, ictimai fəallara, iş adamlarına, sıravi vətəndaşlara qarşı xüsusi amansızlığı ilə seçilən işlərdə qırmızı xətlə keçib.

A.Çovdarovun aclıq edib haqq-ədalət tələb etməsi cəmiyyətdə birmənalı qarşılanmır. Bununla belə, A.Çovdarov da qanunla qorunan hüquqlara malikdir. Hüquq müdafiəçiləri A.Çovdarovun pozulmuş hüquqlarının bərpası yönündə atdığı addımları dəstəkləyirlərmi? Onu müdafiə edərlərmi?

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** deyir ki, A.Çovdarovu ilkin olaraq ailə üzvləri, yaxınları, iş yoldaşları müdafiə etməlidir. İkinci mərhələdə isə onun hüquqlarını müdafiə komitəsi yaradıla bilər: "Gürcüstanda yerliləri onun müdafiəsinə qalxıb, sonra susdular. Onların da səsi kəsildi. Vəkilinin keçirdiyi mətbuat konfranslarında söylədikləri çox ciddi məsələlərdir. İlk növbədə Akif Çovdarovun aclıq aksiyasını dayandırmaq lazımdır. İnsanın canına qəsd etməsi yolverilməzdir. Bu, etirazın ən kəskin formasıdır. Uzunmüddətli aclıq etməsinin qarşısı ailə üzvləri tərəfindən alınmalıdır. Ona çağırış edib aclığı dayandırmasını deməlidirlər. Aclıq mesajdır. Mesajın ünvanlandığı qurumalrın rəhbərləri hərəkətə keçib araşdırma aparmalıdır və tələblərə diqqət etməlidirlər. Mən onun hüququnun pozulmasının əleyhinəyəm".

**M.Qəhrəmanlı A.Çovdarovun vaxtilə etdiklərinə görə cavab verəcəyini də bildirib:** "O özü də vaxtilə insanların hüquqlarını pozub. O da Allahın mühakiməsi qarşısında dayanacaq, cəzasını alacaq. Onu bu gün dustaq edən də, mühakimə edən də, cəzalandırılmasını istəyənlər də özünün həmkarları, dostları, yaxınlarıdır".

**M.Qəhrəmanlı deyir ki, əgər Akif Çovdarovun hüquqlarının müdafiə komitəsi yaradılsa, həmin komitəyə qoşulmayacaq:** "Komitənin toplantılarında iştirak edib sadəcə orada danışılanları dinləyə bilərəm. Hüquq müdafiəçisi heç bir ayrı-seçkiliyə yol verməməlidir".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı isə deyir ki, Akif Çovdarovu müdafiə etmələri üçün yaxınlarının müraciəti olmalıdır:** "Onun yaxınlarının, vəkillərinin müraciətlərinə hələ ki rast gəlməmişəm. Onun xəstə olması haqda məlumatlıyam, həbs edilməmişdən öncə sağlamlığında problemləri olub. Hazırda isə sağlıq durumu nə yerdədir, bu haqda tam olaraq məlumat yoxdur. Qəzetlərdəki məlumatları da izləməmişəm. Vəkili gəlsin, sənədləri bizə təqdim etsin, bilək ki, orada nə baş verir, hüquqları nə vaxt, niyə pozulub".

**S.Bənəniyarlı deyir ki, Akif Çovdarovu müdafiə etmək niyyətində deyillər:** "O, yüzlərlə insanın hüquqlarını pozub, haqqını tapdayıb, konkret cinayət əməllərinə görə tutulub. Akif Çovdarovu müdafiə etmək niyyətində deyilik. Bunu mətbuatdan illərlə oxumuşuq. Aqil Xəlil niyə bu gün Fransada yaşayır? Mətbuat, "Yeni Müsavat" zamanında aylarla bu haqda yazıb. Bu gün belə bir adamın hüquqlarının müdafiəsi üçün aclığa başlamasını da qəbul etmirəm. Sadəcə, hansısa instansiyada hansısa bir problemi varsa, bunu araşdıra bilərik".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

# Xorvatiya prezidenti Azərbaycandan nə apardı?

## Ekspert: “Azərbaycanla əməkdaşlıqda Xorvatiyanın geosiyasi marağı daha öndədir”

**Xorvatiya prezidenti Kolinda Qrabar-Kitaroviçin Azərbaycana rəsmi səfəri başa çatdı. Xanım prezident Bakıda yüksək səviyyədə qarşılanmağından və keçirdiyi görüşlərdən məmnunluq ifadə edib, siyasi əməkdaşlıqla bərabər, iqtisadi sahədə də iki ölkə arasında gələcək müqavilələrin bağlanması arzusunu dilə gətirib. ARDNŞ rezidenti Rövnəq Abdullayevlə görüşü zamanı isə Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri ilə bağlı təklifini səsləndirib.**



Bəs bu iki ölkə bir-biri ilə hansı müstəvidə əməkdaşlıq edə, dəstək verə bilər, Xorvatiya prezidenti Azərbaycandan nə apardı? **Politoloq Mübariz Əhmədoğlu** iki ölkə arasında bir çox istiqamətlərdə əlaqələrin ola biləcəyindən söz açdı: “Azərbaycanın Xorvatiya ilə siyasi münasibətləri çox üstün səviyyədədir. Xorvatiya prezidenti ilə razıyam ki, iqtisadi əlaqələrimiz hələ ki siyasi əlaqələr səviyyəsində deyil. İki ölkə arasındakı münasibətlər Azərbaycanın enerjisinin rolu olmadan qurulan əlaqələrdir. Yəni vaxtilə Xorvatiya və Azərbaycan arasında qaz, neft məsələsi elə də aktual deyildi. Düşünürəm ki, hələ uzun müddət də iki ölkə arasında enerji məsələsi aktual olmayacaq. Qeyri-neft sahələrində isə əlaqələr ciddi sürətdə inkişaf edəcək. Xorvatiya Azərbaycanı bizə lazım olan dövrdə müasir gəmilərlə təmin etdi. Məlumdur ki, Azərbaycanın Xəzərdəki ticarət donanması SSRİ dövründə ən üstün donanma olub. Hazırda da bizim ticarət donanmamız digər xəzəryani dövlətlərdən fərqlənir. Sovet dönəmində bir çox istiqamətlər üzrə tənəzzül etsək də, Xəzər vasitəsilə daşımalarda üstünlüyümüz dəyişmədi. Bu məsələdə qeyd etdiyimiz kimi, Xorvatiya ilə əlaqələrimizin rolu böyükdür. İndi də əczaçılıq, turizm sahəsi üzrə əməkdaşlıq çox aktualdır. Düşünürəm ki, bu məsələlər yaxın zamanlarda praktiki həllini tapacaq. Qazla bağlı danışılan fikirlər isə hesab edirəm ki, strateji müstəvidədir. Azərbaycanın balkanlarda iş qurmaq istədiyi ölkələr artıq bəllidir. Geosiyasi baxımdan Xorvatiya bizim üçün eyni zamanda ona görə cəlbedicidir ki, o, həm NATO-nun, həm də Avropa İttifaqının üzvüdür”.

**Ekspertə görə, Xorvatiya-Azərbaycan münasibətləri ilə bağlı çox həssas məsələ də var:** “Bizim Xorvatiya ilə isti münasibətlərimiz, Xorvatiyanın bəzi tarixi problemi qonşuları ilə aramızda gərginlik yaradır. Misal üçün, Slovakiyanı zə bu cür münasibəti, şübhəsiz ki, Xorvatiya ilə əlaqələrimizə görədir. Bu baxımdan, hesab edirəm ki, Xorvatiya ilə əlaqələrimizi zərrə qədər də azaltmadan, Slovakiya ilə münasibətlərimizdə müzakirələrə gedə bilərik”.

qeyd edə bilərik. Hansı ki, bu ölkə ilə Xorvatiyanın arasında kifayət qədər ciddi problemlər yaşanır. Azərbaycanla Xorvatiyanın münasibətləri kifayət qədər inkişaf etdiyi üçün Slovakiyada belə bir rəy yaranır ki, biz, guya xüsusi olaraq bu ölkəyə qayğı göstəririk. Ona görə də Slovakiya Azərbaycanın əleyhinə olan müəyyən addımlar atır. Misal üçün, Ermənistana təklif edirlər ki, İranla dəmir yolu çəkin, slovaklar bunu maliyyələşdirəcəklər. Bir milyarda qədər investisiya qoyacaqlarını deyirlər. Bundan əlavə, Azərbaycan BMT Təhlükəsizlik Şurasına yenidən üzv seçilən zaman Slovakiya axıra qədər bizə qarşı getdi. Onların bi-

M. Əhmədoğlu Xorvatiyanın Azərbaycandan nə istəməsi ilə bağlı aşağıdakıları bildirdi: “Xorvatiyanın Azərbaycandan istədiyi bir çox ciddi məsələlər var. Onlar hesab edirlər ki, inkişaf üçün qarşına böyük məqsədlər qoymalısan. Anlayırlar ki, Balkan ölkələri arasında indiki nüfuzlarından irəli gedə bilməyəcəklər. Tarixi yerləri bəllidir. Diqqət etdinizsə, xanım prezident Avrasiya materikində, təhlükəsizlik, sabitlik məsələsini gündəmə gətirdi. Azərbaycanla əməkdaşlıqda Xorvatiyanın geosiyasi marağı daha qabaqdadır. Təbii ki, istəyəcəklər iqtisadi baxımdan da əlaqələr olsun. Lakin əsas dostluq və geosiyasi əlaqədir. Azərbaycan hazırda dünyada baş verən maliyyə böhranından çox gözəl çıxış yolları tapa bildi. Ölkə başçısı sübut etdi ki, istənilən vəziyyətdə dövləti idarə edə bilir. Xorvatiya və digər ölkələr də bunu yaxşı dərk edirlər. Ona görə bu hal Xorvatiya üçün də cəlbedicidir. Onlar da çalışırlar ki, Azərbaycan kimi bir dövlətlə dost olsunlar. Bundan öncə də eyni qayda üzrə Venesueladan dostluq vədi aldıq. Azərbaycanla əlaqədə Xorvatiya üçün ilk öndə gələn dostluq, geosiyasi və nəhayət, iqtisadi maraqlardır”.

❑ Əli RAİS

# Xarici investorların qarşısını kəsən “əjdaha” - inhisar, məmur biznesi...

## Rəşad Həsənov: “Problemlərdən biri də odur ki, Azərbaycanda məhkəmə sistemi sahibkarın hüquqlarını qoruya biləcək səviyyədə deyil”

## “Hazırda fərqli model və ya mexanizmin düşünülməsinə ehtiyac var”

**Azərbaycan hökuməti ölkəyə valyuta axınını təmin etmək üçün xarici iş adamlarını ölkəmizə investisiya qoymağa dəvət edir. Prezident İlham Əliyev də çıxışlarında həm xaricdəki azərbaycanlı iş adamlarını, həm də xarici investorları ölkəmizə yatırım etməyə səsləyir. Son olaraq, Xorvatiya prezidentinin Azərbaycana rəsmi səfəri zamanı dövlət başçısı bu məsələyə toxunub və xorvat iş adamlarını Azərbaycana sərmayə yatırmağa çağırıb.**

Prezident Oktyabrın 25-də Bakıda keçirilən Azərbaycan-Xorvatiya biznes forumunda çıxışında Xorvatiya prezidentinin Azərbaycana səfərinin müsbət nəticələri olduğuna diqqət çəkib: “Müzakirələrdə iqtisadi əməkdaşlığa xüsusi diqqət yetirilib. Çox məmnunuq ki, bir qrup xorvat iş adamı Xorvatiya prezidentini müşayiət edir və bu gün bu biznes foruma qatılıb. Səfər çox uğurlu olub. Biz strateji tərəfdaşlığımızı bir daha vurğuladıq, əməkdaşlığımızın əsas istiqamətlərini müəyyən etdik. Biz dost, tərəfdaşıq. İş adamları bu gözəl imkanlardan istifadə edərək əlaqələri genişləndirməlidir. Çünki sərmayə qoyuluşu, birgə fəaliyyət böyük əhəmiyyət kəsb edir. Bizim keçmişdə də birgə layihələrimiz olub. Artıq vaxt gəlib ki, idxal-ixrac əməliyyatlarımızı genişləndirək”.

**Prezident İlham Əliyev onu da bildirib ki, oktyabrın 24-də müxtəlif formatlarda görüşlər keçirilib və burada da əsas məsələ qarşılıqlı iqtisadi əməkdaşlıq olub:** “Azərbaycanın iqlim şəraitindən istifadə və Xorvatiyadan müəyyən məhsulların idxal olunması təklifləri var. Əminəm ki, bu gün burada daha geniş müzakirələr aparılacaq. Burada qarşılıqlı faydalı əməkdaşlıqdan söhbət gedir. Biz Xorvatiyanın ixracından xəbərdarıq. Siz də bilirsiniz ki, Azərbaycan hansı məhsulları ixrac edir. Bu forumda bu istiqamətlərə diqqət yetirilməlidir”.

**Dövlət başçısı qeyd edib ki, ölkəmizdə yeni sənaye sahələrinin yaradılmasında maraqlıyıq:** “Burada əczaçılıqdan söhbət gedir. Xorvatiyanın bu sahədə böyük təcrübəsi var. Bu baxımdan, idxaldan asılı ölkəyik. Düşünürəm ki, dərman istehsalı sahəsində birgə müəssisələrin yaradılması bizim üçün faydalı olar. Çünki əhalimizin sayı artıq 10 milyon nəfərə çatır”.

**İqtisadçı ekspertlər hökumətin ölkəyə xarici investisiya cəlb etmək üçün atdığı addımları təqdir etsələr də, ölkədə investisiya mühitinin çatışmazlıqlarını da vurğulayıblar. Məhz bu amil xarici sərmayədarların ölkəyə yatırım etməsinə mane olur.**

**Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, çox acınacaqlı vəziyyətin müşahidə olunduğu sahələrdən biri də investisiya mühitidir:** “Demək olar ki, ötən dövr ərzində qeyri-neft sektoruna investisiya qoyuluşu məhdud olub, xüsusən də xarici investorların marağı az olub. Xarici investisiya adı ilə ölkəyə daxil olan vəsaitlərin də böyük bir hissəsi Azərbaycanın vəsaitləridir. O vəsaitlər ki, onlar sonradan hansısa offşor şirkətlər vasitəsilə xarici investisiya adı altında ölkəyə daxil ediliblər.


Rəşad Həsənov

Bu istiqamətdə görüləcək iş əslində ölkə reputasiyasının yenidən bərpa edilməsi məsələsidir. Çünki bu istiqamətdə ölkənin reputasiyası həqiqətən kifayət qədər aşağıdır. Bu zərurətdən ölkə başçısı bütün görüşlərində xarici investorları Azərbaycana gəlməyə dəvət edir və hətta dövlət zəmanəti ilə onları ölkəyə çağırır. Dövlət qurumları bu günə qədər qeyri-neft sektorunda ən müxtəlif formada sahibkarların, xarici investorların fəaliyyətinə müdaxilə ediblər. Neft sektoruna gücləri çatmır, çünki orada oyun qaydaları fərqlidir".

**Ekspert onu da vurğuladı ki, indiki dövrdə xarici investorların Azərbaycanla bağlı çox mənfi təcrübələri var:** “Ölkənin beynəlxalq hesabatlarda imici ilə bağlı çox ciddi problemlər var. Həmin problemlərdən biri də odur ki, Azərbaycanda məhkəmə sistemi sahibkarın hüquqlarını qoruya biləcək səviyyədə deyil. Hazırda fərqli model və ya mexanizmin düşünülməsinə ehtiyac var. Xarici investisiyanın ölkəyə gətirilməsi üçün azad məhkəmə və azad investisiya mühiti olmalıdır. Həmçinin korrupsiya ilə mübarizə aparılmalıdır. Azərbaycanın korrupsiya ilə apardığı mübarizənin nəticələri ölkənin beynəlxalq imicinin yüksəlməsinə təsir edə bilməyib”.

**Rəşad Həsənovun sözlərinə görə, bu sahədə ən böyük problemlərdən biri də biznesə məmur müdaxiləsi və məmur biznesidir:** “Ölkə iqtisadiyyatı kifayət qədər inhisarlaşıb. İstənilən biznesmen hansısa məmurun maraqlarına toxunduqda onun kimliyindən asılı olmayaraq, həmin investor ən qısa müddətdə ölkədən çıxarıla bilər və ən ədalətsiz şəkildə təzyiqlərə məruz qala bilər.

Xarici investorun ölkəyə gəlməsi hazırkı durumda qeyri-mümkün məsələ hesab olunur. Qeyd olunan istiqamətlərdə ciddi nailiyyət əldə olunmayana qədər bəhs etdiyimiz məsələlər bu səviyyədə qalacaq. Biz ilk növbədə öz vətəndaşımızı inandıra bilməliyik ki, Azərbaycana investisiya qoysun. Əgər bu gün öz biznesmenimiz Azərbaycana investisiya qoymaqdan çəkinirsə, biz hansı haqla bunu xarici investorlardan tələb edə bilərik. Əsas məsələ ölkənin reputasiyasını yüksəltmək və qeyd olunan problemləri həll etməkdir. Bu problemləri müvəqqəti həll edərək xarici investisiyanı cəlb etmək, sonradan vəziyyət düzələndə yenidən əks hücuma keçmək kimi hərəkətlər sektor iştirakçılarında birmənalı şəkildə inamsızlıq yaradır. Azərbaycanla bağlı da buna bənzər situasiya mövcuddur. Bu mənada hökumət aparılan islahatlarda səmimi olduğunu sübut edə bilməlidir. Əks halda, bu kimi cəhdlər ciddi nəticə verməyəcək".

❑ Nərgiz LİFTİYEVA

# “Evimdəyəm” deyən sabiq nazir haqda şok xəbərlər

**Ötən ilin noyabr ayının 13-də prezident İlham Əliyevin sərəncamı ilə işdən qovulan rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov barəsində cinayət işi açılıb. “Trend”in məlumatına görə, sabiq nazirlə bərabər nazirliklə əməkdaşlıq edən bir neçə şirkətin nümayəndələri barəsində ayrıca cinayət işi başlanıb. Ə.Abbasov və digərləri Cinayət Məcəlləsinin 179.3.1-ci (mənimsəmə və ya israf etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 29, 179.3.1-ci (mənimsəmə və ya israf etməyə cəhd, mütəşəkkil dəstə tərəfindən törətməyə cəhd), 29, 179.3.2-ci (mənimsəmə və ya israf etməyə cəhd, külli miqdarda törətməyə cəhd), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilirlər.**




## Əli Abbasovun suçu nə - yenə dövlətə kələk gəlib...

### Barəsində cinayət işi açılması barədə xəbəri təkzib edən sabiq nazir özünə niyə vəkil tutub?; vaxtilə iqtidarda ən fağır nazir kimi tanınsa da, Əli Abbasov vurduğu ziyanı ödəmək istəməyib, üstəlik, mülklərini gizli satışa çıxarıb

Milli Təhlükəsizlik Nazirliyində kök salmış cinayətkar dəstə ifşa olunduqdan dərhal sonra Rabitə və Yüksək Texnologiyalar Nazirliyində ən yaxın adamlarının həbsi 11 ildir nazir kürsüsündə oturan Ə.Abbasovun da sonunu gətirdi. Məlum oldu ki, nazirlikdə telefon danışıqlarının MTN tərəfindən qanunsuz dinləmələrinə xüsusi şərait yaradılıb, Eldar Mahmudovun yaxın adamları və qohumlarından ibarət “rabitəçi çetesi” külli miqdarda dövlət əmlakını mənimsəyib. MTN-dəki general mafiyasının fəaliyyəti üçün lazımi texniki dəstəyi göstərən rabitəçilər, üstəlik, hər ay Eldar Mahmudova 10 milyon manat “xərac” da ödəyiblər ki, bunu da dövlətdən oğurlayaraq, həyata keçiriblər.

Yoxlamaların ilk günlərində Ə.Abbasov israrla həm özünü, həm də yaxın adamlarını müdafiə edirdi. Nazirliyin aparat rəhbəri Vidadi Zeynalov başda olmaqla, Beynəlxalq Əlaqələr və Hesablaşmalar Mərkəzinin direktoru Cəlil Cəfərov, “Bakı Telefon Rabitəsi” İstehsalat Birliyinin baş direktoru Beytulla Hüseynov, “Aztelekom” MMC-nin baş direktoru Məmməd Məmmədov, “Azərpoçt” MMC-nin baş direktoru Qəmbər Bəybalayev, “Optik Rabitə, Tikinti və Quraşdırma” MMC-nin direktoru Namazalı Məmmədov, “Aztelekom” MMC-nin baş mühasibi Oktay Rüstəmov kimi yüksək vəzifəli şəxslər həbs olunduqdan sonra isə Ə.Abbasov susmağa üstünlük verdi. 2015-ci ilin noyabr ayının 13-də işdən çıxarıldıqdan sonrakı günlərdə isə o, bütün məsuliyyəti həbs edilənlərin üzərinə “yükləmələ” Şüvəlanda yerləşən bağ evinə qapandı. Xəbərlər vardı ki, hələ o zamandan sabiq nazir haqda “heç yerə getməmək” barədə qətimkan tədbiri seçilib, nazirlikdəki korrupsiya faktları və MTN-in həyata keçirdiyi gizli dinləmələrlə bağlı bir neçə dəfə istintaqda ifadə də verib.

10-dək ən yaxın kadrı korrupsiya ittihamı ilə həbsdə olan Ə.Abbasov tezliklə “müdafiə taktikasını” dəyişdi, hücuma keçdi. Bütün mənimsəmə sənədlərində imzası və ya razılığı olan Ə.Abbasov ən yaxın adamı olan V.Zeynalovun “onu satmasını” şantaj kimi qiymətləndirdi. Dövlət başçısı İlham Əliyev nazirlikdəki korrupsiya faktını “ vicdansızlıq və xəyanət” kimi qiymətləndirdikdən sonra YAP-ın Siyasi Şurasından səs-küysüz uzaqlaşdırılan Ə.Abbasovu Azərbaycan Dövlət İqtisad Universitetində rəhbəri olduğu kafedra müdirliyindən də çıxardılar.

Respublika Prokurorluğu 10 ay davam edən istintaqdan sonra “rabitə çetesi”nin işini yekunlaşdıraraq bu ayın əvvəlində məhkəməyə göndərib. Məhz bu ərəfədə Ə.Abbasov barəsində cinayət işinin açılması barədə yayılan xəbər dərhal elektron mediada günün manşetinə çevrilib.

Hakimiyyətə yaxın “Trend” agentliyinin məlumatından sonra isə Ə.Abbasov APA-ya qısa açıqlama verib. Sabiq nazir deyib ki, barəsində cinayət işi başlanmayıb, yayılan xəbərlər həqiqəti əks etdirmir və dezinformasiyadır. O, hazırda evində olduğunu da əlavə edib.

Ə.Abbasovun açıqlaması əslində daha çox cinayət işinin açılmasının deyil, həbs edilmədiyinin təkzibidir. Ə.Abbasovun həbs edildiyini heç kim iddia etməyib və o həqiqətən də evindədir. Üstəlik, onun xəstəliklə bağlı müraciətinə baxmayaraq, bir ilə yaxındır ki, ölkədən kənara buraxmırlar.

Daha maraqlı bir məqam Ə.Abbasovun özünə vəkil tutmasıdır. Cinayət işi barədə xəbəri ilk təkzib edən də onun vəkili Kamandar Nəsibov olub: **“Bu yalan və əsassız xəbərdir. Arxasında hansısa maraqlar dayanır. Əli Abbasov barəsində cinayət işi yoxdur”,** deyən, vəkil təəssüf ki, niyə sabiq nazirlə müqavilə bağladığını açıqlamayıb. Məntiqlə heç bir cinayətdə suçlanmayan, istintaqa çağırılmayan Ə.Abbasovun vəkilə ehtiyacı olmamalıdır.

“Yeni Müsavat”ın məlumatına görə, Ə.Abbasov işdən çıxarılandan bir müddət sonra vəkillərlə *(başqa vəkillər də var)* müqavilə bağlayıb. Onun əmlak işləri üzrə də vəkili olduğu iddia edilir.

Ə.Abbasovun vəkilinin “hansısa maraqlar” ifadəsi də diqqət çəkir. 11 aydır nəzarət altında saxlanılan Ə.Abbasov iqtidarda ən fağır nazir kimi tanınıb. Onun nazir olduğu dövrdə iqtidardan kimlərlə çəkişməsi barədə məlumat olmayıb. “Fağır nazir” “xəyanət və vicdansızlıq” ittihamı ilə kürsüsündən atılıb və yalnız bu əməllərinə görə hədəf ola bilər.

Məlumatlar var ki, işdən çıxarılandan sonra “özündən başqa hamını satan” sabiq nazir dövlətə vurduğu ziyanı ödəmək istəmədiyi üçün cəzalandırılır. Belə ki, həbsdə olanlar, xüsusilə “sağ əli” Vidadi Zeynalov mənimsənilən vəsaitin *(söhbət 100 milyonlardan gedir)* böyük hissəsinin sabiq nazirə çatdığını bildirib. Ə.Abbasova ölkədən çıxış qadağası qoyduqdan sonra ondan mənimsənilən pulları geri qaytarmaq tələb olunub. Ə.Abbasov əvvəl razılaşsa da, sonradan “mən müəllim adamam” deyib dövlətə vurduğu ziyanı ödəməkdən imtina edib. İddia olunur ki, Ə.Abbasov, üstəlik, Bakıdakı mülklərini də başqa adamların adı ilə satışa çıxarıb. Sabiq nazir əvvəl metronun “Gənclik” stansiyası yaxınlığındakı - “Zivella” mağazasının arxasındakı vaxtilə bir orta ranqlı iş adamından dəyərindən 10 dəfə az qiymətə aldığı 12 sot ərazini satıb. Həmin mülk Ə.Abbasovun Eldar adlı oğlunun adına olub. Dəyərindən az - 1,5 milyon manata satılan torpaq sahəsi Ə.Abbasovun yeganə mülkü deyil. Bundan başqa, o, Bilgəhdəki bağ evini, şəhərin mərkəzindəki bir neçə obyektini də satıb. Dövlətin milyonlarını talayaraq əldə etdiyi mülkləri satıb nağd pula çevirmək istəyi sabiq nazirin ziyanı ödəmək niyyəti kimi izah oluna bilər. Amma iddia olunur ki, sabiq nazirin alqı-satqını maksimim məxfi həyata keçirmək istəyi şübhələrə səbəb olub. Qaynağımız deyib ki, oğlunun adına olan torpaq sahəsini satarkən alıcıya rəsmi sənədləşməni sonraya saxlayıb, “centlmen razılaşma” təklif olunub. Alıcı isə buna razı olmayıb.

Xəbərlərə görə, Ə.Abbasov həbsdə olan aparat rəhbəri ilə yan-yana tikdirdiyi villanı satışa çıxara bilməyib, çünki mülkün üzərində həbs qərarı var.

Ə.Abbasovla bağlı xəbərlərə daha bir mühüm detalı əlavə edək. Srağagün rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev qurumda keçirilən kollegiya iclasında yenidən Ə.Abbasovun rəhbərlik etdiyi vaxtda baş verən korrupsiya faktlarından danışıb, nazirliyə milyonlarla zərər vurulduğunu xatırladıb. Kollegiya iclasının səhəri isə sabiq nazirə cinayət işi açılması xəbəri yayılıb.

Ə.Abbasov evindədir, amma onun rahat olduğuna və tezliklə həbs olunmayacağına heç bir zəmanət yoxdur. Hadisələrin gedişi belə düşünməyə əsas verir...

❑ **“YM”**

# Tiranın təhlükəli hərəkəti



**Samir SARI**

**Kostyum geyinib podiuma çıxsa, elə bilərsən, modeldir, “Oskar” almış Hollivud aktyorlarına, ən azı Kıvanc Tatlıtuğa oxşayır, amma futbolçudur - özü də hücumçu imiş.**

O gün meydançaya çıxmış azarkeşə hücum etməsə, heç hücumçuluğu da bilinməzdi. Gəldiyi gündən meydançada ora-bura qaçır, Allah qoymasa, driblinq edir, nə bilim, nə qayırır, amma bir tort yemişliyi yoxdur.

Söhbət rumıniyalı futbolçu Katalin Tiradan gedir. Bildiyiniz kimi, o gün “Qarabağ” - “Neftçi” matçında ağ-qaralar növbəti qolu yeyəndən sonra hiddətlənərək meydana atılan “Neftçi” azarkeşi gözlənilmədən Tiranın - özünü tiran sayan topqovanın hücumuna məruz qalıb.

Həmin hücum anını görüntüləyən videoya baxırsan, aydın olur ki, bizim azarkeş hansısa futbolçunun onu qəfildən vuracağını gözləmir və ilk zərbəni alandan sonra müdafiə pozasına keçir. Eyni zamanda bayaqdan bəri qaça-qaça azarkeşin üstünə cuman Katalin də müdafiə duruşu alır, amma araya girənləri görəndən sonra dübarə qızışır, təpik-zad atır.

Deyəsən, bu odlar yurdunun suyundandır, kim gəlirsə, bu tərəflərin yodsuz suyundan içir, çox keçmir, qudurur, canında təşəxxüs, təkəbbür hissləri yaradan hormonlar artır, kəllə-çarxa qalxır. Belə görünür ki, Katalin Tira da qara qəpiklik oyunçu olmaya-olmaya aldığı paracıqlara görə elə qudurub ki, özünü “Neftçi”nin qeyrət-namus mücəssəməsi sayır. Müqavilə imzalayanda adama deyiblər ki, bu gündən “Neftçi”nin şərəfini qoruyursan, o da səhv başa düşüb.

Budur, Tira şərəf qoruyacağı yerdə elə bir şərəfsizlik etdi ki, klubunun onsuz da nahamar yolunda köndələn uzadılmış tir oldu. İndi saytlar yazır ki, onu komandanın məşqlərindən kənarlaşdırıblar.

Amma bu azdır, 10 sutkalıq cəzaya layiq əməl törədən adama 10 il həbs cəzasının verildiyi ölkədə tamaşaçıların gözü qarşısında yerli azarkeşə qarşı o cür qanacaqsızlıq edən legioneri komandadan da, ölkədən də iti qovan kimi qovmalıdırlar.

Söz yox, həmin azarkeş meydana çıxmaqla düz eləməmişdi, cəzalanmalı idi. Amma bu o demək deyil ki, dünyanın hər tərəfində oyunlarda baş verən bu cür hadisələr zamanı hisslərini cilovlaya bilməyən azarkeş mütləq şapalaqlanmalıdır.

Düzdür, İspaniyada, İtaliyada meydana cuman azarkeşlərin şillə-təpiyə qonaq edilməsi halları da olur, amma bu, o halda olur ki, azarkeş hansısa futbolçunu vurub qaçmaq istəyir. Belə olanda peşəsi qaçmaqdan ibarət olan futbolçular aqressiv azarkeşə çatır, tutur, hakimlər və mühafizəçilər haraya yetənə qədər imkanları çatdıqca vururlar. İnsafən, futbolçuya və hakimə hücum etməyən fanata bir söz deyən olmur. Sadəcə, meydançanın içini qorumağa məsul olan polislər və mühafizəçilər həmin qeyri-aqressiv azarkeşi tutub ya danaboyun eləyib aparırlar, ya da otun üstündə sürüyürlər, amma vurmurlar. Vursalar, aləm qarışar, “bizimkiləri döyürlər” deyən azarkeş ordusu meydana tökülər və ortalıq qarışar.

Belə haqq-hesablar da çox olub. İnternetdə müvafiq görüntülər çoxdur. Məsələn, biri var, görünür ki, minlərlə azarkeş meydana çıxıb hakimi, futbolçuları, onları qorumaq istəyən polisləri meydançada hərim-hərim hərləyirlər, axırda qovub-qovub geyinib-soyunma otağına salırlar.

O gün Katalin Tiranın bəxti gətirib ki, o biri azarkeşlər qızışıb meydana çıxmayıblar. Elə bir şey olsaydı, beyni çönmüş azarkeşlər baxmayacaqdılar ki, bu əcnəbidir, bu özümüzünküdür, hamısını təpiyin altına salıb çığnayacaqdılar. Bizimkilər də özlərinə görə tiffozidirlər.

Ona görə də “Neftçi”nin rəhbərliyi təcili şəkildə gedib bazardan bir qara qoç almalı, klubun təlim-məşq bazasının başına hərləyib, aparıb ocaqlardan birində qurban kəsərək, yeddi klub arasında paylamalıdır.

Katalin Tira isə gəldiyi yerə göndərilməlidir. O cür başıxarab adamdan futbolçu olmaz. Ona qalsa, özümüzün dəliqanlı (eləcə də əliqanlı) futbolçularımız var, yeri gələndə bizi qeyri-idman hərəkətləri ilə sevindirirlər.

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

# Kredit borcları milli fəlakət səviyyəsində: nə edək?

## Ekspert: "Çox güman ki, borcların bir hissəsini ya Mərkəzi Bank, ya da dövlət öz üzərinə götürməyə məcbur olacaq, başqa çıxış yolu yoxdur..."

**Hazırda Azərbaycanda bank sisteminin və ümumilikdə milli iqtisadiyyatın ən böyük bəlalarından biri də problemli kreditlədir. Artıq belə kreditlərin həcmi 1,5 milyard manatı ötüb. Təəssüf ki, vaxt keçdikcə və manat dollar qarşısında zəiflədikcə, bu məbləğ də artır və geri dönüş imkanları daha da zəifləyir.**

Hökumət isə problemi vaxtında həll etmədiyindən, indi daha böyük problem qarşısındadır. Digər tərəfdən, bu problem bankların sıradan çıxmasına, külli miqdarda əmanətlərin banklarda batmasına səbəb olur ki, həmin vəsaitlər də Əmanətlərin Sığortalanması Fondunun simasında dövlətin cibindən çıxır.

Problemə fərdlər səviyyəsində yanaşsaq, problemli kreditlər iqtisadi məsələ olmaqdan çıxıb, cəmiyyətin həm siyasi, həm sosial, həm də mənəvi probleminə çevrilib. Birincisi, artan borclar əhalini hökumətdən narazı salan başlıca amildir. İkincisi, cəmiyyətdə bu səbəbdən yaranan gərginlik və aqressiya sonradan ailədaxili münaqişələrdən tutmuş, qətl, intihar hadisələrinə qədər gedib çıxır. Bir sözlə, kredit borcları artıq milli fəlakət statusuna qədər gəlib çıxıb.

**İqtisadçı ekspert Natiq Cəfərliyə görə, hökumət bu problemin həlli barədə devalvasiya qərarı verərkən düşünməli idi:** "Çünki bu, göz görə-görə gələn bir fəlakət idi. Biz dəfələrlə Mərkəzi Bankı da, hökuməti də bu haqda xəbərdar etmişdik. O zaman da kreditlərin əksəriyyəti valyuta kreditləri idi, banklar özlərini sığortalamaq üçün valyuta kreditləri verməkdə maraqlı idilər. Devalvasiyalardan sonra bu kreditlərin iki dəfədən çox bahalaşması əhalinin üzərinə böyük yük kimi düşdü. Bundan əlavə, iqtisadi aktivliyin azalması, ölkədə xarici ticarət dövriyyəsinin azalması, tikinti sektorunun çöküşü, insanların iş yerlərini itirməsi, qazanclarının azalması kreditlərin geri dönüşünü daha da çətinləşdirdi".

**Ekspertin sözlərinə görə, banklarda da vəziyyət həddindən artıq ağırdır və bunun başlıca səbəbi problemli kreditlərdir:** "Bəzi banklarda kreditlərin yarıdan çoxunun geri qaytarılmasında problemlər yaşanır. Müxtəlif mətbuat orqanlarında, hətta bəzi deputatların parlament çıxışlarında tez-tez ölkədə kreditlərin silinəcəyi haqda məlumatlar yer alır. Bu da bankların işini daha da çətinləşdirir. Vətəndaş düşünür ki, belə bir qərar veriləcəksə, kreditləri qaytarmaya bilər. Hətta kreditləri qaytarmaq imkanında olanlar belə gözləmə mövqeyinə keçiblər. Bu isə bankların vəziyyətini getdikcə daha da ağırlaşdıracaq. Banklar verdikləri kreditləri yığa bilmir, yeni kredit xətləri də aça bilmirlər. Çünki kreditlərin verilməsi şərtləri də xeyli dərəcədə çətinləşdirilib. Bunun yükü də vətəndaşın çiyninə düşüb. Nə banklar, nə hökumət, nə də Mərkəzi Bank tərəfindən ciddi bir addım atılmadığından, vətəndaşlar da bu yükü çəkə bilmir. Nə biznes qurumları, nə də fərdi sahibkarlar və fiziki şəxslər artıq kredit ala bilmirlər. Bu da həm sosial problemlərə, həm də vətəndaşın müəyyən hüquqlardan, məsələn, ölkəni tərk etmək hüququndan məhrum olması ilə nəticələnir".




**N.Cəfərli hesab edir ki, əgər vəziyyətlə bağlı hər hansı ciddi qərarlar verilməsə, problem qar uçqunu kim getdikcə artacaq və banklar da batacaq:** "Əgər əhali kreditləri qaytara bilmirsə, bankların bunu aktiv kimi özündə saxlamağa ehtiyac yoxdur. Çünki bu, geri dönüşü mümkün olmayan aktivlərdir. O da faktdır ki, Mərkəzi Bankın bununla bağlı hər hansı planı yoxdur. Çünki vəsait çatışmazlığı var. Kreditlərin silinməsi xəbəri qulağa xoş gəlsə də, əhali tərəfindən xoş qarşılansa da, bunun bir əsası yoxdur. Kreditlərin silinməsi üçün ya dövlət büdcəsindən və ya Neft Fondundan müəyyən vəsait ayrılmalıdır, ya da Mərkəzi Bankdan. Hazırda ölkənin maliyyə durumunu nəzərə alsaq, bu qurumların heç birində belə bir addımın atılması nəzərdə tutulmayıb".

**Ekspertə görə, dövlət qurumları problemi görməzdən gəldiyi üçün problem daha da dərinləşir:** "Halbuki problemli kreditlərin həlli ilə bağlı əvvəldən bir konsepsiya hazırlanmalı, bütün məsuliyyət 3 tərəfin arasında bölünməli, dövlət Mərkəzi Bankın iştirakı ilə məsuliyyəti banklar və vətəndaşlar arasında proporsional qaydada paylamalı idi. Bütün məsuliyyət vətəndaşın çiynində qalmamalı idi. Görünən odur ki, bu problem yaxın vaxtlarda da həllini tapmayacaq. Bu da problemli kreditlərin həcminin artmasından başqa heç nəyə xidmət etməyəcək. Nəticədə hökumət daha bahalı bir yükün altında qalacaq. Bir müddət sonra müəyyən addımların atılması qaçılmaz olacaq. Artıq problemin tam həlli üçün çox gecdir. Kreditlərin 1.05-lə qaytarılması təklif olunsa belə, bir çox vətəndaşların bu məzənnə ilə belə borcunu qaytarmağa imkanı yoxdur. Ona görə də artıq məzənnənin aşağı salınması ilə problemin həlli mümkün olmayacaq. Çox güman ki, borcların bir hissəsini ya Mərkəzi Bank, ya da dövlət öz üzərinə götürməyə məcbur olacaq, başqa çıxış yolu yoxdur. Ya ölkədə elə bir iqtisadi aktivlik olmalıdır ki, əhalinin gəlirləri külli miqdarda artsın. Çox təəssüf ki, yaxın gələcəkdə belə bir irəliləyiş gözlənilmir".

❑ **Nərgiz LİFTİYEVA**

# Mərkəzi Bankın banklardan manat istəməsinin pərdəarxası...

## Ekspertlər depozit hərraclarına marağın azlığının səbəblərini izah edirlər...

**Mərkəzi Bank son dövrlər dəfələrlə depozit hərracları keçirsə də, istədiyi məbləği yığa bilmir. Son olaraq vəsaitlərin cəlb edilməsi üzrə 50 milyon manat həcmində keçirilmiş növbəti depozit hərracında tələb 24 milyon manat təşkil edib. Hərracın nəticəsində bağlanılmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə illik 14,37 faiz olub. Ekspertlər depozit hərraclarında marağın azlığının səbəblərini açıqlayırlar. Bildirilir ki, əsas səbəb bankların inamının olmamasıdır.**

**Ekspert Elşad Məmmədov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, Mərkəzi Bank tərəfindən təşkil edilən depozit hərraclarında kifayət qədər vəsaitin toplanmamasının başlıca səbəblərindən biri ölkədə milli valyutanın məzənnəsinin dayanıqlı şəkildə yüksəlməsinə inamın xeyli dərəcədə azalmasıdır: "Belə ki, elə kommersiya banklarının depozit bazasının struktur təhlilindən də bunu rahatlıqla müşahidə etmək mümkündür. Artıq xeyli müddətdir ki, banklarda yerləşdirilən depozitlərin tam əksəriyyəti xarici valyutada ifadə olunur. Ümumiyyətlə, ölkədə devalvasiya prosesinin başlanmasından sonra bank xidmətləri istehlakçıları nisbətən orta və uzun müddətli perspektivdə əmanətlərini milli valyutada saxlamaqdan çəkinirlər. Bunun artıq trend halına çevrilməsinin daha bir göstəricisi SOCAR tərəfindən daxili bazarda istiqrazların xarici valyutada yerləşdirilməsi məlum olduqdan sonra ölkədə həmin istiqrazlara marağın Mərkəzi Bankın depozit hərraclarına olan maraqdan xeyli dərəcədə çox olmasıdır. Bundan başqa, son aylarda banklar tərəfindən milli valyutada yerləşdirilən depozitlərə görə ödənilən faizlərin ilin əvvəlinə və ilk devalvasiyaya qədərki dövrə nisbətən xeyli dərəcədə artırılması Mərkəzi Bankın depozit hərraclarına marağın xeyli dərəcədə azalmasına səbəb olub. Məlumdur ki, hazırda Əmanətlərin Sığortalanması Fondu tərəfindən sığortalanan əmanətlərin maksimal faiz göstəricisi artıq 15-ə çatıb. Belə olan halda, Mərkəzi Bankın daha aşağı faizlərlə təşkil edilən depozit hərraclarına marağın azalması məntiqlidir. Eyni zamanda ölkə iqtisadiyyatında həyata keçirilən sərt monetar siyasət nəticəsində pul kütləsinin həcmi kəskin şəkildə azaldılıb və buna görə də hərraclara cəlb edilməsi mümkün olan pul bazasının da azalması müşahidə olunur. Belə vəziyyətdə artıq mövcud olan manat resurslarının əksər hissəsinin depozitlərə deyil, bilavasitə istehlaka yönəldilməsi təbiidir".




**Ekspertin sözlərinə görə, iqtisadi bloka daxil olan qurumlar tərəfindən ölkədə sərt pul siyasətindən real sektorun inkişafına yönəlmiş siyasətə keçidlə bağlı tədbirlər qısa müddətdə işlənilib tətbiq olunmalıdır:** "Çünki yalnız monetar alətlərin tətbiqi ilə mövcud iqtisadi problemləri həllinə nail olmaq mümkün deyil. Bu baxımdan, uçot dərəcəsinin artırılması, depozit hərraclarının təşkili və digər bu növ addımlar orta və uzun müddətli perspektiv üçün məqsədəuyğun hesab oluna bilməz. Məlumdur ki, bu tədbirlərin başlıca məqsədi manat resurslarına tələbatın artırılması yolu ilə həmin resursların dollara çevrilməsinin qarşısının alınmasıdır. Lakin buna milli iqtisadiyyatda manat kütləsinin sıxılması vasitəsilə yox, ilk növbədə, maliyyə resurslarının təyinatı üzrə istifadə edilməsi mexanizmlərinin tətbiqi şərti ilə, real sektora yönəldilməsi yolu ilə nail olmaq məqsədəuyğundur".

Qeyd edək ki, bəzi ekspertlər Mərkəzi Bankın depozit hərraclarının bankların durumunda dəstək olduğunu bildirirlər. Ekspertlərin fikrincə, son aylarda banklar tərəfindən milli valyutada yerləşdirilən depozitlərə görə ödənilən faizlərin ilin əvvəlinə və ilk devalvasiyaya qədərki dövrə nisbətən xeyli dərəcədə artırılması da səbəblərdən biridir. Əksər ekspertlər isə qeyd edirlər ki, depozit hərracları bankların sərəncamında olan milli valyutanın yığılmasına görə keçirilir. Mərkəzi Bank qorxur ki, banklar milli valyutanı dollara çevirmək istəyər. Nəticədə manata təzyiq arta bilər, valyuta ehtiyatlarımız azalar. Mərkəzi Bank bu səbəbdən depozit hərracları keçirərək artıq pulları almaq istəyir. Banklar isə əllərində olan bütün pulları Mərkəzi Banka vermirlər, həm etibar etmirlər, həm də manatın növbəti ucuzlaşmasından narahatdırlar.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

# “Mənim adım nakam bir sevginin şərəfinə qoyulub”

## Qənirə Paşayeva: “Bir vaxtlar ismimi dəyişmək istədim, sonra qorxdum ki, bundan inciyər...”



**Təcrübəm mənə deyir - hər tarixi dövrün ömrü, nə az nə çox, bir köhnə dəyirmanın həyatı, cırıltısı qədərdi.**

***

Dediklərim, köhnə Bakı dəyirmanının taleyi ilə təsdiqlənir. Ötən əsrin əvvəlində tikilmiş həmin dəyirman Nikolay dövrünü də üyütdü, sonrakı sovet zamanını da. Axır, özünü də üyüdüb döndü, çevrildi dəbdəbəli “Landmark” biznes-mərkəzinə.

İndi də özünün bu qədim adətindən, şakərindən qalmır o - qədim qalın divarları arasında 4-cü Bakı Caz Festivalını üyüdür.

***

Vədələşdiyimiz kimi, millət vəkili Qənirə Paşayevə ilə bu mistik, şairanə ünvanda görüşdük. “Landmark”ın ağır şüşə qapılarını güclə aralayıb əvvəlcə Qənirə xanımı içəri ötürdüm, sonra yoldaşım İlhamiyyə Rzanı. Dəhlizdə elə iki addım irəli keçmişdik ki, gördük İsveç səfiri Tomas Danestad, ayaq götürüb sürətlə özü biz tərəfə yüyürür. Səfir alicənablığını nümayiş etdirməkdən elə biləsən xüsusi zövq alırdı - qadınlarımızın üst plaşlarını məhz özü təhvil alıb, sol qolu üstə atdı. Sakitliyə riayət edərək biz tərəfə əvvəl ingiliscə, sonra səlis rusca pıçıldadı:

- İcazə verin, 4-cü Bakı Caz Festivalı çərçivəsində keçirilən tədbirlərə dəvət edim sizləri. İsveç caz təranələrini - səfir biləyindəki bahalı saata baxdı - az sonra dinləyərik. Hələlik rəssam Kamal Əlinin rəsmlərini seyr edin "Landmark"ın bu dairəvi, möcüzəli “Ratunda” zalında.

Divar boyu yanbayan düzülmüş rəngarəng rəsmlərdə cazın tarixi təsvir edilmişdi - Ema Fiscerald bir tərəfdə caz oxuyurdu, Lui Amstronq bir başqa tərəfdə. Qorxurdum ətrafımızdakı gəl-getdə, sıxlıqda Qənirə xanımı gözlərimdən tam itirim. Əvvəlcə bu nigarançılıq hissini bir anlığa yaşadım elə bil. Amma caz ustası Əzizə Mustafazadənin portretini görüncə, inanın, xeyli sakitləşdim. Bildim ki, gözdən itirdiyim Qənirəni gec-tez məhz burda, bu tablonun önündə aşkarlayacam. Bir də gördüm, bəli, Qənirə ilə İlhamiyyə ordadırlar. Əzizənin şəkilinə baxıb öz aralarında nəsə müzakirə edirlər. Qənirəni, İlhamiyyəni, Əzizəni bax bu cür - bir yerdə, bir nöqtədə görüb uzaqdan müşahidə etmək, daha sizdən nə gizlin, çox maraqlı göründü mənə. Şəkildəki Əzizə, qara royal üzərində uzanıb uzun saçlarını ətrafına səpələmişdi. Gur vəhşi saçlar, royalın ağ dilləri, nəhayət, mənzərəni haşiyəyə almış qırmızı nar dənələri bir vahid kompozisiyada birləşib hamımızı heyran qoymuşdu.

Qısası, tablo önündə bir xeyli dayanıb eyni bədii zövqü, eyni mədəni maraqları, idealları bölüşdüyümüzə sevindik. Qənirənin daxili aləmi, zövqü ilə bizi birləşdirən ortaq xətti, şükür, artıq tapmışdım özüm üçün. Qalırdı indi ancaq bu incə xətləri, mövzuları bir süjet ətrafında birləşdirib son nəticəyə yetişmək.

***

“Landmark”ın “Ratunda” zalı dairəvidi, iti küncləri-falan yoxdu. Belə yerlərdə nəyisə gizlətmək, başqalarından gizlənmək qətiyyən və qətiyyən mümkün deyil. Belə ünvanlarda çox nadir imkan var hamını bircə poetik baxışın tərkibində görəsən.

Hissiyyatımız da çox keçmir bu qanunlara tabe olur. Qənirə xanım, sərgidəki şəkilləri diqqətlə izləyə-izləyə yenə də qayıdır əvvəlki yerə - qara royal üzərində öz dünyasını qurmuş, saçlarını səpələmiş Əzizənin portreti önünə. Şəkildən ilhamlanaraq öz məktəb xatirələrini bizlə bölüşür burda.

**“Orta məktəbdə “Ölülər”i səhnələşdirəndə xurafata yuvarlanmış qadın obrazını oynamaqdan imtina etdim. Dedim, mənə İsgəndər rolunu verin”**

- Tovuzun 1 saylı Düz Qırıxlı kənd məktəbində, yadımdadı, teatr tamaşaları qoyardıq səhnədə, şahmat yarışları keçirərdik, divar qəzeti buraxardıq. Mirzə Cəlilin “Ölülər” dramına növbə gəlib çatanda bərk sevindim. Amma səhnədə Kəblə Fatma kimilərini canlandırmaq mənlik deyildi. Dirəndim ki, bəs əsərdəki qadın rollarının ifası məni qəti qane etmir. Dedim, mənə kişi rolunu, Kefli İsgəndər rolunu verin, bədəbətdə Şeyx Nəsrullah rolunu verin. Səhnədə, yadda saxlayın, yaşmaqlanıb xurafata yuvarlanan deyiləm.

Qənirə xanımın səhnə mədəniyyətinə, natiqliyə yiyələnməsi, diqqət edin, məktəb günlərinin məhz bu ilginc, çılğın epizodundan başlayaraq indiyəcən davam edir. Təəccüblənməyin - bir var, pələng dərisi geymiş qəhrəman, bir də var Qənirə kimi, maarifçi İsgəndərin dərisinə bürünüb siyasətə, gündəmə atılan canlı azad qadın heykəli - yəni sözün əsl mənasında millət vəkili, jurnalist, maarifçi Qənirə Paşayevə. Vaxtilə yaşadığı komsomolçu həyatı da Qənirə Paşayevanın həyatında izsiz ötüşməyib. Məhsul, üzüm yığımında Qənirə şagirdlər sırasında həmişə birinci olub. Üzümçülük barədə mükəmməl biliklərə də məhz sovet dövründə yiyələnib o. Bilir, üzümə göy daşı nə vaxt vurmaq lazımdı, üzüm tarlalarına təyyarədən nə qədər, hansı ölçüdə dərman səpələmək tələb olunur. Sovet vaxtları qalsaydı, rəssamlar bu gözələ “tarla qızı, üzümçü qız” adını verib surətini yağlı boya ilə kətan üzərinə köçürərdilər bəlkə də.



**“Tovuzdakı evimizin qapısını gedib indi aç. Səni əvvəlcə Şəhriyarın divardakı şəkli salamlayacaq”**

Sonra bu bədii tablo, mütləq gedib düşəcəkdi rəssamların hansısa ümumittifaq sərgisinə. Orda özünə birincilik qazanacaqdı.

***

Ancaq Qənirə xanımın indiki zövqüncə deyil həmin bu sosrealistik rəsm nümunələri. Kamal Əli fırçasından süzülmüş Əzizə Mustafazadənin poetik portreti barəsində isə mən bunu deməzdim. Deyəsən, bu şəkildə Qənirə hardasa özünü də tapıb. Tək özünü deyil, Rəfiqəsi İlhamiyyə Razanı da, hiss edirəm, bu poetik tablonun tərkibində görür o.

Bu vaxt İsveç səfiri Tomas Danestad yenə gəlib qoşulur bizə. Əzizənin qara royal üzərindəki şəklinə heyranlığımıza biganə qala bilmir.

**Qənirə xanımın Qərb diplomatları ilə anında anlaşmağı, vallah, düz sözümdü, mənə çox maraqlı görünür.**

- İsveçdə təkcə elə qadın caməesi bərabərhüquqluluq, gender bərabərliyi tələb etmir özünə. İsveç kişiləri özü bunu istəyir. Özü!

**İsveç səfiri bərk karıxır bu vaxt. Deyilənləri, xəsiscəsinə etiraf etməkdən başqa çarəsi daha qalmır.**

- Həəəə....elədir...bizim kişilər...mənim həyat yoldaşım...

Həəəə... Bax budur adına “diplomatik həyat” deyilən sınaq meydançası. Gərək təkcə diplomat deyil, hərdən rəssam, hərdən bəstəkar, şair da olasan bu qəliz oyun meydançasında. Gərək mütləq gözəl olasan. Fotokameraları, diktofonları fəhmlə duyub hərəkətlərində, sözlərində ehtiyat nümayiş etdirəsən. Bax indi biz bunu yaşayırıq. Sözlərimiz, hərəkətlərimiz ehtiyatlı, əvvəlcədən düşünülmüş bir ssenari axarı ilə davam edir sanki.

***

Gecdi artıq. Caz dünyasından, Əzizənin portretindən həvəssiz ayrılıb Sumqayıt yoluyla Qənirə Paşayevanın Masazırdakı evinə doğru şütüyürük. Ev deyəndə ki, bu ünvan mənə daha çox hədiyyələr evini xatırlatdı. Həmin isti yuvanın divarlarını, taxçalarını vaxtilə Qənirə Paşayevaya verilmiş saysız hədiyyə nümunələri təşkil edir - bax bu sualtı qayıq maketini ona Rusiyanın Arxangelsk şəhərindəki diaspora fəallarımız bağışlayıb. Bu ipək xalça isə Şimali Azərbaycanın coğrafi xəritəsini özündə əks etdirir. Qənirə xanım bu xalçanı böyük məbləğdə pul verərək “Azərxalça” İstehsalat Birliyində toxutdurub. Elə bil özü də keçib xana arxasına. Xalçaya bir-iki ilmə özü də vurub.

- Hə, elədi. Azərbaycanlıyam daaaa... ilmə vurmağı, çay içməyi, dolma bükməyi, xəngəl asmağı, lazım gələndə başıma kələğayı atmağı, nəhayət, deputat olmağı, sizdən nə gizlin, sevirəm...

*- Nəyi bəs sevmirsən, Qənirə?*

Sualım, deyəsən, ev sahibəsinin lap ürəyincə olur.

- Vallah, düz sözümdü, əvvəllər öz adımı sevmirdim. Adımı kiçik əmim qoyub. Eşitdiyimə görə, onun vaxtilə eyniadlı nakam sevgilisi varmış... Bədii ədəbiyyatda bu adı tapammayıb, bərk əsəbiləşirdim. Adımı dəyişmək istədim hətta bir dəfə... Sonra qorxdum, əmimin hissiyyatına toxunum... Ancaq bir gün Qənirə adını rəhmətlik Firudun Ağayevin “Mən uşaq olmamışam” romanında aşkarlayıb, nəhayət, bir xeyli sakitləşdim.



**““Kalaşnikov” avtomatını sökmək işində mənə heç kim çata bilməzdi Tovuzda”**

Özü barədə mənə az məlumat ötürdüyünü hiss edən Qənirə xanım, bu vaxt səhvini düzəltmək, mənə əlavə məlumatlar ötürmək istəyir.

- Hərbi hazırlıq dərsində də çox fəal idim. “Kalaşnikov”u sökmək işində mənə heç kim çata bilməzdi Tovuzda.

*- Bildik, adını kiçik əmin qoyub sənə. Bəs böyük əmin - Qəzənfər müəllimi deyirəm, zəhməti azmı olub həyat yolunda?*

Çəp baxışlarımı Qənirədən gizləmirəm. Bilirəm ki, məhz bu sualla silahlanıb Qənirənin çox qapalı daxili aləminə daxil ola bilərəm mən.

Yanılmıram, deyəsən. Qənirə sualımdan əvvəlcə ehtiyatlanır elə bil. Durduğumuz nöqtədən bir-iki addım geriləyib süfrəyə yaxınlaşır. Heyva şirəsiylə dolu incə qədəhi əlində sıxaraq keçir çox incə mətləbələrə.

- Həəəə... əmimin öz əsərlərində cızdığı coğrafiyanı təqib edə-edə gəlib yetişdim Dəclə, Fərat sahillərinə. ANS-də çalışdığım zaman reportyorluğum köməyimə gəldi. Əminin yolunu, səyahət marşrutlarını təkrarladım orda. Köhnə dostlarımız Əbdüllətif Bəndəroğlu, Əta Tərzibaşı, Kuzəçi ailəsi ilə görüşdüm Dəclə, Fərat sahillərində.

*- Qısası, əminizin marşrutunu bir də yenidən kəşf etdiniz özünüz üçün. İndi bu ərazidə dava gedir, qan axır... Qaçqınlar məhz burdan qaçıb Avropadakı düşərgələri doldururlar.*

- Qəzənfər Paşayev, böyük əmim, yaxşı ki, o vaxtdan, 50-ci illərdən bizi bu coğrafi ərazi ilə tanış etdi. Ən azı məni tanış etdi. Mövzuya bələd olmağım ANS-də çalışarkən çox karıma gəldi. Sonra həmin mövzunu siyasi fəaliyyətimdə də təkrarladım. Suriyada Türkmən dağına qalxmağımı, Kərkükdə soydaşlarımızla görüşlərimi heç vaxt unudan deyiləm. Təbriz sevdamı da uşaqlıqdan yaşayıram. Tovuzdakı evimizin qapısını gedib indi aç. Səni əvvəlcə Şəhriyarın divardakı şəkli salamlayacaq, sonra evimizdəki doğmalarım. Bu hisslərimdə, inanın, çox səmimiyəm.

Qənirə xanımın iti, sərrast baxışları bu vaxt gedib sancılır qarşı divara. Təbrizin məşhur “Traxtur” futbol komandasına məxsus bayraq orda tək-tənha deyil. Tovuzun “Turan”, “Qarabağ-Azərbaycan” bayraqları əhatəsindədir. Qənirə şahmatdan sonra sən demə, futbola da azarkeşlik edirmiş, biz heç bilməmişik.

- Tovuzun “Turan”ı futbol sezonuna pis başlamayıb. Siyahıda ən yaxşı futbol komandalarımızla birgə birinci yerləri bölüşür... Məncə...

Qənirənin kiçik vətəninə - Tovuza olan məhəbbəti, böyük vətəninə - bütöv Azərbaycana olan sevgisiylə təxminən eynidir. Tərəziyə qoysan, biri aşağı enib, digəri yuxarı qalxan deyil. Evindəki hədiyyələr, əşyalar türk dünyasının geniş coğrafiyasını özündə tam əks etdirib öz tamaşaçılarını, o cümlədən məni xeyli sevindirir.

***

Düzü, istəmirəm aramızdakı söhbət, siyasi gündəmə köklənsin. Axır nöqtəsini siyasi mövzularda gedib tapsın. Bilə-bilə, ABŞ-dakı seçkilər, feminist Hillari Klinton barəsində sual vermirəm şahmat taxtası önündə əyləşib növbəti gedişini düşünən Qənirə Paşayevaya. Kamal Əlinin bayaq gördüyümüz şəkilləri arasında Klintonun şəkli-zad da yoxdur ki, bəhanə edib bu mövzuya qayıdım.

Amma...

Amma lap axırda deyirəm bəlkə şeytanın qıçını bir qırım? Solaxay bir sual verim Qənirəyə dünya feminist hərəkatı barəsində? Hillari Klintonla Donald Tramp arasındakı seçimdə Qənirə xanımın kimə üstünlük verdiyini özümçün bir aydınlaşdırım.

- Piyadaları qurban verməyi sevmirəm... Sən at gedişlərini sevirsən görürəm. Ehtiyatlı ol bu gedişlərində.

Şahmat taxtası üzərindən Qənirəyə bir də baxıb qarşımda çox peşəkar bir oyunçunu aşkarlayıram. Hiss edirəm ki, şahmat taxtası üzərində vəziyyətim o qədər də yaxşı deyil. Siyasi sualları bir kənara tolazlayıb, oyuna girişməyimin tam vaxtıdır.

Yoxsa bir-iki saniyədən sonra müqəddəratım, taleyim bax bu şahmat oyununda bir başqa cür həll olacaq.

***

**Xahiş edirəm, “azad qadın” deyərkən, təkcə elə "Nizami" metrosu tərəfdəki o məşhur heykəllə kifayətlənməyin.**

**Bu tərəfə də bir baxıb Qənirə Paşayevanı görün gözləriniz önündə.**

❑ **Həmid HERİSÇİ**



# Kimin Sosoya sözü var

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud üsyankar manıs və dostları

**Hərdən rusdilli azərbaycanlıların dərd-səri internetdə qabağımıza çıxır, fikirləşirik kaş bunlara olan bizə olaydı. Qəribə problemləri olur bu sektorun. Misal üçün, bir ara hansısa kafeyə pişiklə girməyin çətinliklərini müzakirə edirdilər. Yayda isə hansısa qaqulyanın içdiyi qazirovkadan fısıltı səsi az gəlmişdi, qırğın idi, suyu buraxan şirkəti istefa verməyə çağırırdılar.**

Əslində insaf naminə qeyd edək ki, azərbaycandilli azərbaycanlıların da *(belə idiot terminologiya yaratdıqları üçün hökumətə dərindən minnətdarıq)* mənəvi problemləri çox zaman "Filan manısın əri niyə biqeyrətdir", "Nazir oğlunun saxladığı general qızının baldızı Antalyada. Şok foto!" tipində olur. Ancaq hər halda, azərbaycandilli azərbaycanlılar rusdilli azərbaycanlılar qədər nirvanaya çatmırlar. Bunlar bəzən elə müzakirə açırlar, heç rusdilli ruslar da anlamaz. Çox kosmik millətdir, hörmətimi izhar edirəm.

Uzun sözün qısası, hazırda bu rusdilli yoldaşlar dərin bir həyəcan yaşayırlar. Soso Pavliaşvili adlı rusiyalı manıs varmış, bu manıs qabaqlar Dağlıq Qarabağda separatçı rejim üçün konsert veribmiş, bizim Xarici İşlər Nazirliyi isə Soso müəllimi buna görə qara siyahıya salıbmış - Azərbaycana girişi qadağan edilibmiş. İndi isə Soso müəllim rusiyalı dostu Emin Ağalarovun dəvəti ilə Bakıda konsertə hazırlaşır. Rusdilli azərbaycanlılar buna görə etiraz edirlər, deyirlər, düşmənə konsert vermiş adam Bakıya gəlməsin. Elmar Məmmədyarovun idarəsi isə Soso müəllimə qoyduğu qadağanı ləğv edib, hərçənd ortada heç bir üzrxahlıq yoxdur, hətta sərhədimizi bizdən icazəsiz pozub Qarabağa getdiyi üçün manıs nəinki üzr istəyib, əksinə, bunu tənqid edən rusdilli sektorumuzu götürüb ağzı üstdə yerə çırpıbdır. Sitat: "Əgər siz belə qəhrəmansınızsa, əmlakınızı satın, diversiya qrupları yaradın, savaşın, Qarabağı geri alın. Bəyəm mən buna mane oluram? Mənə nə dəxli? Gedin özünüz kişi kimi həll eləyin".

Bəh-bəh... Vallah, mən Soso müəllimə haqq qazandırmıram, heç bir mızıltısına da indiyəcən qulaq asmamışam, səsi necədir bilmirəm, ancaq kişinin oğlu yaman deyibdir. Necə deyərlər, yaxşı rəqqasa bazarda yumurtanın qiyməti mane ola bilməz, üstəlik, yumurta dövlət nəzarətində strateji məhsuldursa, heç mane olmağa cəhd etməsin. Soso Pavliaşvili Emin Ağalarovun qonağı olanacan düşmən idi, indi düşmən deyil. Vəssalam, şüttamam. Dövlətçiliyimizin sərhədlərini anlamayanlar çıxsın getsin Novqorodda yaşasın. Timsahlar uça bilmir, ancaq padşah deyirsə, uçur. Sadəcə, bir az alçaqdan uçurlar. Alçaq timsahlar... Görüm sizin dərinizdən Elmar müəllimə çamadan qayırsınlar. ATƏT-in tədbirinə gedəndə camaşırlarını yığmaq üçün.

Yeri gəlmişkən, hazırda azərbaycandilli sektoru da Kərkük türkmənlərinin taleyi güclü narahat edir. Ancaq burda başqa bir "Soso" ortaya çıxıb camaatın dərsini vermişdir. **Sitat:** "YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov bildirdi ki, ərazi bütövlüyü ilə bağlı yaşadığı problemləri həll edə bilməyən bir ölkənin bununla bağlı mövqe bildirməsi düzgün deyil: "Azərbaycanın özünün ərazilərı təcavüzə məruz qalıb, torpaqlarımız işğal altındadır. BMT-nin məlum 4 qətnaməsi indiyə qədər icra olunmayıb. Bir misal var, "özünə umac ova bilmir, özgəsinə əriştə kəsir". İndiki vəziyyətdə öz problemlərimizin həllinə nail ola bilməmişik. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan kimi dövlətin bu məsələ ilə bağlı hansısa addımı atması, açıqlama verməsi uyğun deyil. Sən öz problemini həll edə bilmisənmi, başqasına kömək edirsən?" *("Yeni Müsavat", 25 oktyabr, 2016).* Sitatın sonu.

Əla deyib, mən Bəxtiyar müəllimi alqışlayıram. Təmsil elədiyi sistemi, iqtidarı bundan yaxşı ifşa olarmı? Doğrudan da, bunlar Qarabağ səs-küyü üstündə hakimiyyətə gəliblər, ancaq 23 ildə ortada nəticə yoxdur - "umac ovulmayıb". Ancaq millətin qulağından elə qəşəng əriştə asırlar ki! O əriştədən türkmənlərə göndərmək olardı. Misal üçün, elə Bəxtiyar müəllimin yazılarını helikopterdən İŞİD-in ərazisinə səpsən əl-Bağdadi öz boğazını kəsərdi ki, bu nə işgəncədir, mən bunu təsəvvürə gətirməzdim.

Ümumən hava yaxşı xəngəl havasıdır. Emin Sosoya qonaqlıq verirsə, mən də Bəxtiyar müəllimə xəngəl ala bilərəm.

# Qarabağla bağlı mühüm gəlişmə: İrəvan yox, Bakı deyən oldu!




# İşğalçının müharibədən sığortalanmaq planı fiaskoda - özü isə təlaşda...

## Sərkisyanın təmas xəttində beynəlxalq monitorinq mexanizminin tətbiqi ilə bağlı istək-tələbi gündəmdən çıxdı; Ermənistanın ABŞ-dan aldığı kəşfiyyat-müşahidə sistemi isə işğal rejimini cəzasız şəkildə davam etdirməyə imkan verməyəcək, çünki...

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona budəfəki səfəri ilk baxışda əvvəlkilərdən fərqlənməsə də, hər halda, iki maraqlı detalla yadda qala bildi. Onlardan biri odur ki, Azərbaycan prezidenti İlham Əliyevin səfər öncəsi Rusiya KİV-lərə müsahibəsində Dağlıq Qarabağın mümkün statusu ilə bağlı irəli sürdüyü təklif vasitəçilərin də diqqətini çəkdi və mövzuya çevrilə bildi.**

Bu barədə amerikalı həmsədr Ceyms Uorlikin məhz İrəvanda danışması Azərbaycanın xeyrinə ikiqat təbliğati effekt yaratdı. Çünki Qarabağ məsələsində ənənəvi radikal erməni mövqeyi fonunda bir növ "qaynar başlara soyuq duş" effekti yaradaraq, eyforiyada olan erməniləri sanki ayıltdı, "göydən yerə endirdi". Artıq Bakının ən optimal həll yolu kimi "muxtar respublika" təklifinin erməni ictimai şüurunda özünə müəyyən yer aldığını söyləmək mümkündür.

Uorlikin bu xüsusda İrəvandakı açıqlaması həmin yeri yəqin ki, böyüdəcək. Söz düşmüşkən, erməni mediası və ekspert dairələrində Azərbaycan prezidentinin məlum təklifi, faktiki, münaqişə ilə bağlı ən optimal "Yol xəritəsi" irəli sürməsi hələ də narahatlıqla şərh edilməkdədir ki, bu da təbliğati effekt baxımından Bakının hədəfə vurduğuna dəlalət edir.

**Xatırladaq ki, Azərbaycan prezidentinin təklifi ilə bağlı erməni jurnalistin sualına cavabında Uorlik İrəvanda erməniləri məyus edəcək tərzdə belə deyib:** "Azərbaycan prezidenti İlham Əliyevin Rusiyanın "Vesti 24" telekanalına müsahibəsində Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsinin mümkünlüyü haqda dediklərini alqışlamaq lazımdır. Çünki bu, Dağlıq Qarabağın statusuna dair polemikaları başlatmış olur. İlham Əliyevin dedikləri son qərar deyil, ancaq status məsələsində açıq diskussiyaları başlatmaq baxımından mühümdür və ən azından bu səbəbdən alqışlanmalıdır".

Göründüyü kimi, amerikalı diplomat muxtar respublika ideyasını, Bakının təklifini vurmayıb, ardınca Dağlıq Qarabağda statusla bağlı referendum keçirilməsinin zəruriliyindən də danışmayıb. Erməni tərəf, onun toplumu, mediası və siyasi elitası isə amerikalı vasitəçinin dilindən məhz bunu eşitmək istərdi...

*****

Vasitəçilərin səfərində Azərbaycanın xeyrinə olan ikinci qiymətli detala gəlincə, bir az əvvələ - aprel döyüşlərinə qayıtmaq lazım gəlir. Bəllidir ki, həmin vaxt rüsvayçı şəkildə hərbi uğursuzluğa tuş gələn işğalçı Ermənistanda, faktiki, panika yaranmışdı. Moskvaya yalvarışlardan sonra atəşkəsə nail olan İrəvan ardınca danışıqlara qayıtmaq üçün bir neçə absurd şərt-tələb irəli sürdü. Onlardan biri təmas xəttində bu kimi insidentlərin, atəşkəsin pozulma hallarının araşdırılması, qarşısının alınması və günahkarın cəzalandırılması üçün güclü və effektli beynəlxalq monitorinq mexanizmini yaratmaqla bağlı idi.

Belə mexanizm əlbəttə ki, ən çox Qarabağ məsələsində kompromisə gəlmək istəməyən və işğal rejimini özünə sərfəli vaxtadək uzatmağa çalışan Ermənistana sərf idi. Çünki beledə Azərbaycanın təcavüzkara zor tətbiq edib öz ərazilərini azad eləmək imkanı sıfırın yanında olacaq, əl-qolu bağlanacaq, ən betəri, zorla dəyişdirilmiş sərhədlər, təmas xətti az qala qanuni status alacaq. Cəzasızlığına əmin olan düşmən isə kiçik kompromisi belə heç vaxt yaxına buraxmayacaq.

Həmin tələb 4 günlük aprel müharibəsindən sonra prezidentlərin Vyanada keçirilən görüşünə dair yekun bəyanatda əksini tapmışdı. Lakin yaxşı ki, elə onunla da unuduldu və ermənilərin status-kvoya hüquqi məna vermək arzusu gözündə qaldı. Ardınca reallaşan Sank-Peterburq görüşündən sonra isə prezident İlham Əliyev məsələyə nöqtə qoyaraq bəyan elədi ki, Qarabağ məsələsində real irəliləyiş olmayınca, ərazilər işğaldan azad olunmağa başlamayınca, Bakı bu mexanizmə razılıq verməyəcək. Ölkə başçısı o zaman onu da dedi ki, yalnız ATƏT-in şəxsi nümayəndəsi Anjey Kasprşikin ofisinin əməkdaşlarının sayı artırıla bilər ki, bu da tam fərqli bir şeydir.

*****

İki gün öncə eyni şeyi - yalnız ofis əməkdaşlarının sayı məsələsini dilə gətirməklə amerikalı həmsədr C.Uorlik İrəvanda ermənilər pərt edib. Yəni faktiki, məsələyə nöqtə qoyub, Serj Sərkisyanın aprel olaylarından sonra irəli sürdüyü tələbin fiasko olduğunu təsbit edib.

Kəsəsi, Bakı deyən olub. Bunu həmsədrlərin bölgəyə son səfəri ilə bağlı yaydıqları bəyanat da təsdiqləyir. Orada yeni monitorinq mexanizminin tətbiqi haqda heç nə deyilmir. Bu isə o deməkdir ki, Azərbaycanın beynəlxalq hüquqa əsaslanıb işğalçını istənilən vaxt cəzalandırmaq imkanını əlində saxlayır.

Düşməni ən çox təlaşlandıran da indi budur: sülhə gəlməsə, müharibədən - ədalətli cəzadan qaçmağın mümkünsüzlüyü! Düşmən ona görə həm də təlaş keçirir ki, müharibə ehtimalının qalması silahlanma yarışı, silahlanma yarışı isə öz növbəsində böyük xərclər, acından ölən Ermənistanın daha sürətli boşalması və orduya çağırışçı probleminin böyüməsi deməkdir.

Bu fakt həm də konfliktin həllində ABŞ və Rusiyanın maraqlarının nə dərəcədə toqquşduğunu göstərməklə yanaşı, işğalçı Ermənistanın sözünün və mövqeyinin kəsərsizliyini ortaya qoyur, münaqişənin həllində onun heç bir sanballı rola malik olmadığını bir daha təsdiqləyir.

Yeri gəlmişkən, bu yaxınlarda məlum oldu ki, ABŞ Rusiya və Azərbaycanın iradəsinə zidd olaraq İrəvana təmas xəttində qarşı tərəfin hərbi hərəkətlərinə müşahidəni gücləndirmək üçün gizli şəkildə C4İSR hərbi müşahidə-kəşfiyyat sistemi verib. Ancaq Amerikanın işğalçıya dəstək anlamı verən bu təxribatçı addımı da çətin ki, sonuncunu xilas eləsin. Niyə?

Ona görə ki, Azərbaycan və Rusiya belə monitorinqə razılıq və zəmanət verməyib. Başqa sözlə, ermənilərin aldığı yeni hərbi kəşfiyyat - müşahidə qurğusunun nə özü, nə də nəticələri legitim sayıla bilməz. Demək, düşmən özünü güvəndə hiss edə bilməz və hər an müharibənin başlana bilməsi xofu altında yaşamaqda davam edəcək.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

**"Ərəb baharı"ndan sonra Yaxın Şərq dünyanın ən qaynar nöqtəsinə və ya belə desək, böyük bir savaş meydanına çevrilib. 100 il əvvəl Osmanlı İmperiyasının dağılması ilə yeni dövlətlər və müstəmləkə torpaqları olaraq dizayn edilən Yaxın Şərqi indi başdan-başa terror və müharibələr bürüyüb.**




# Qan çanağına dönən Yaxın Şərq yenidən dizayn olunur

## Bayram Balçı: "Nəticədə isə hamımız peşman olacağıq"

## Arzu Nağıyev: "Bütün bunlar prioritet istiqamət kimi qarşımızda duran Dağlıq Qarabağ münaqişəsinin həllinə heç də müsbət təsir etməyəcək"

Liviya, Yəmən, İraq, Suriya, Fələstin, Əfqanıstan və digər ölkələrdə hazırda qanlı müharibələr gedir. Demək olar ki, dünyanın bütün böyük dövlətləri Yaxın Şərqdə hərbi qüvvələrlə təmsil olunurlar. ABŞ, Rusiya, Britaniya, Fransa və digər böyük hərbi güclər əsgərlərini Yaxın Şərqə göndərib. Faktiki olaraq, Liviya, Yəmən, İraq, Suriya kimi ölkələr parçalanmış vəziyyətdədir.

Amma gedişat problemin nəinki yaxın zamanda həll olunmayacağını, daha da dərinləşəcəyini göstərir. Hətta bir neçə il əvvəl Qərb mediası Yaxın Şərqdə ortaya çıxacaq yeni dövlətlərin xəritələrini yaymışdı. Bugünkü vəziyyətə baxdıqda demək olar ki, faktiki olaraq, bir sıra dövlətlər bölünüb. Liviyada şərq və qərb bölgələrində iki ayrı hakimiyyət mövcuddur. Yəməndə eyni vəziyyət var və savaş davam edir, ölkənin cənubunun ayrılması ehtimalı mövcuddur. İraq və Suriya isə gələcəyi hələ də qeyri-müəyyən olan ölkə olaraq qəbul edilir.

**Doğrudanmı, Yaxın Şərq yenidən dizayn olunur? Bölgədə yeni dövlətlər meydana çıxacaq? Mövzu ilə bağlı söhbət etdiyimiz Fransa Beynəlxalq Araşdırmalar Mərkəzi (CERI), Paris Siyasi Elmlər İnstitutunun eksperti Bayram Balçı deyir ki, Yaxın Şərqdə proseslərin gedişi onu göstərir, ancaq bu müəyyən qədər zaman alacaq. Ekspertə görə, proseslərin gedişi Türkiyənin izolə edilməsi istiqamətində gedir:** "Türkiyə bölgədə izolə ediləcək. Türkiyəyə qarşı haqsızlıq olacaq və bu da türk millətçiliyini daha da aqressivləşdirəcək. Nəticədə isə hamımız peşman olacağıq. Bizi qarşıda hələ çox acılar gözləyir, təəssüf ki. Ancaq sərhədlərin dəyişməsi müəyyən zaman alacaq, ən azı Bəşər Əsəd və Ərdoğan hakimiyyətdən getdikdən sonra".

**100 il əvvəl Yaxın Şərqi Avropa dövlətləri - Britaniya, Fransa, İtaliya kimi dövlətlər bölüşdürdülər. Bu gün kimlərdir meydanda olan güclər? Yaxın Şərqin gələcəyi necə olacaq? B.Balçı deyir ki, İŞİD-in meydanda olması son nəticədə Türkiyənin izolə edilməsinə gətirəcək:** "Bu isə Bəşər, İran və Rusiyanın xeyrinə olacaq. Bu ölkələr İŞİD faktorundan öz mənfəətləri üçün istifadə edəcəklər. İndiki mərhələdə bu, Qərbin də işinə yarayır. Yaxın gələcəkdə Qərb və İranın dostlaşması ehtimalı da var. Ya da ən azından düşmən olmayacaqlar. Ümumi baxdıqda İslam dünyasında bir böhran var. Bu böhran nəticəsində də majoritar olan sünni ölkələrə müsəlman dünyasının böhranı yüklənəcək. Beləliklə də Qərb və Rusiya gələcəkdə Türkiyə, Səudiyyə və Pakistan kimi ölkələri izolə edəcək".

**B.Balçı deyir ki, Yaxın Şərqdə sərhədlərin dəyişməsi indi olmasa da, 10 ildən sonra baş tuta bilər. Bu zaman Rusiya və İranda da daxili problemlər baş qaldıra, etnik qrupların etirazları başlaya bilər. Eyni zamanda ekspertə görə, yaxın dövrdə deyil, gələcəkdə İranın meydanın mərkəzinə gəlməsi bu ölkə üçün də yeni problemlərin yaranması deməkdir:** "İŞİD səbəbindən Qərb İranla nüvə məsələsində anlaşdı. İŞİD olmasaydı, Qərb İrana güzəştə getməzdi. İŞİD-in qorxusundan Qərb bütün ona yaxın olan ölkələrə dəstək verir. Çünki indi Qərbin siyasətinin mərkəzində İŞİD qorxusu dayanır. Hər şeyə İŞİD və cihadizm təhlükəsi kontekstindən baxırlar. Bu isə bölgədə siyasi balansa ciddi təsir edəcək yaxın illərdə".

**Politoloq Arzu Nağıyev deyir ki, Yaxın Şərqdə gedən proseslər Qərbin çox dəqiqliklə hazırladığı "Orta doğu" projesinin məntiqli davamıdır. Ekspertə görə, hazırda davam edən proseslər bölgənin yenidən dizayn olunması üçün zəmin hazırlayır:** "Burada əsas məsələ təbii sərvətlərin bölünməsi olsa da, həm də ərazinin bölünməsindən, regiona nəzarətdən, silah və insan alveri, daha doğrusu, ucuz fəhlə qüvvəsi əldə etməkdən gedir. Məlumdur ki, terror təşkilatları olan qruplaşmalar, istər İŞİD , "Cəbhət Ən-Nusra" və digərləri bir vasitədir. Onlar da öz üzərinə düşən vəzifələri yerinə yeritdikdən sonra sıradan çıxarılacaqlar".

**Ekspert deyir ki, hədəf olaraq ərəb dünyasının seçilməsinin səbəbi, necə deyərlər zəif bənd olması, məzhəb ayrılığı faktoru olub. Eyni zamanda A.Nağıyevə görə, Rusiyanın da bu oyunlara qatılmasının əsas məqsədi bu dövləti tam müflis etməkdir:** "Suriya, Bəşər Əsəd rejimi Rusiyaya çox elə də lazım deyil. Bu gün Rusiyaya özünün mövcudluğuna yönələn təhdidlərin qarşısının alınması lazımdır. Eyni zamanda Ukraynadan bir qədər çəkilirlər. Lakin Qərb buna da imkan vermir. Rusiyanı neftin qiymətini salmaqla, Makkeynin sözü ilə desək "benzinkolonka" ölkəsinə çevirməyə çalışırlar. Burada da ABŞ və Səudiyyə Ərəbistanı birgə fəaliyyət göstərirlər. İkinci məsələ Rusiyanı qaz bazarından çıxarmaq, onun əvəzinə Norveç, Əlcəzair, İraq, Mərakeş, Türkmənistan, eyni zamanda Azərbaycanı gətirməkdir".

**A.Nağıyev deyir ki, proseslər qarşıdakı illərdə daha da sürətlənəcək. Ekspertə görə, işin ən qorxulu tərəfi bütün bu proseslərin bizim sərhədlərdən çox da uzaq olmayan ərazilərdə getməsidir:** "Eyni zamanda ən yaxın müttəfiqlərimizdən olan Türkiyənin, əlaqələrimizin inkişafı dərinləşən İsrailin, yaxın qonşumuz İranın maraqları olan regionda baş verir. Bütün bunlar prioritet istiqamət kimi qarşımızda duran Dağlıq Qarabağ münaqişəsinin həllinə heç də müsbət təsir etməyəcək".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Türkiyədə 81 polis, 55 müəllim və tələbə tutulub

**İstanbulda "ByLock" kompüter proqramından istifadə edən 125 polisin tutulmasına qərar verilib. "Report" "Habertürk"ə istinadən xəbər verir ki, artıq hüquq-mühafizə orqanları həmin polislərin 81-ni saxlayıb. Məlumata görə, əməliyyat oktyabrın 26-da səhər saatlarında keçirilib.**

Türkiyənin NTV telekanalının xəbərinə görə, İzmirdə və ölkənin daha 11 əyalətində FETÖ-yə qarşı xüsusi əməliyyat keçirilib və xeyli sayda adam tutulub.

İzmirin 9 Eylül Universitetində keçirilən əməliyyat nəticəsində aralarında tələbə və professorlar olmaqla, 55 şübhəli saxlanılıb.

"ByLock" proqramından FETÖ-yə üzv olanlar istifadə edirmiş.

# Radikallıq İslamdanmı gəlir?..



**Hüseynbala SƏLİMOV**

## Xristianlıq da, İslam da humanizm və qardaşlıq dinləridir, günahkar biz insanlarıq

**Baxıb görürsən ki, vicdanlı adamlar həmişə olub. Özü də ki, bəlkə keçmişdə indilərdən qat-qat artıq olub. Qərəz, nə başınızı ağrıdım, bugünlərdə götürüb Volterin fəlsəfi əsərlərinə bir də baxdım. Mən, ümumiyyətlə, dini fanatizm və radikallıqla maraqlananları Volteri oxumağa çağırardım. Onu oxuyanda görürsən ki, indi az qala qəlibləşmiş bəzi təsəvvürlər özündə heç də həqiqəti ehtiva etmir...**

Volter xristianlıqdakı fanatizm və radikalizmdən çox yazır. Amma ki, türklər haqqında tamam başqa sözlər deyir. Məsələn, yazır ki, Türkiyə dünyada iki-üç dövlətdən biridir ki, burada adamdan hansı dinə qulluq elədiyini soruşmurlar...

Başqa yerdə isə bildirir ki, bu ölkədə heç vaxt dini zəmində qarşıdurmalar, vətəndaş müharibələri olmayıb. O, ən çox xristian dinini tənqid edir və diqqəti belə detala çəkir ki, bu dinin oturuşması, onun bu və ya digər ölkədə hansısa forma və ya məzmun alması üçün milyonlarla insan tələf edilib...

Düşünməyin ki, bunlar mənə ləzzət verir. Yox, mən bütün dinlərə sayğı ilə yanaşan adamam. Sadəcə, mənə həmişə elə gəlib ki, hazırda bu və ya digər dinin təmsilçilərindəki neqativ keyfiyyətlər dinlərdən daha çox o cəmiyyətlərin durumundakı problemlərə dəlalət edir, dinlərin yox, daha çox həmin cəmiyyətlərin problemləri kimi təzahür edir...

Ona görə də deyərdim ki, böyük təlatümlərdən sonra axır ki, xristianlar dinin cəmiyyətdə və dövlətdəki yerini, həqiqi dini tolerantlığın formulunu tapa biliblər. Müsəlman dünyasındasa bu proses hələ davam edir...

Fəqət, buradakı fanatizmdən danışanlar bir detala heç diqqət yetirmirlər ki, axı nə vaxt bu insanlara demokratik vərdişlər, demokratik təfəkkür aşılandı, nə vaxt onlara bütün mübahisələri məhkəmələrdə həll etmək mədəniyyəti təlqin edildi, nə vaxt onlara düzgün və demokratik seçkilər keçirməyə imkan verildi ki, indi də durub onlardakı neqativ keyfiyyətlərin dindən gəldiyini iddia edək?..

Təbii, mən dinlər üzrə mütəxəssis deyiləm, bir çox məsələləri ciddi şəkildə araşdırmamışam. Amma islamı tənqid edənlər bəzən bu dindəki cihad məsələsini bəhanə gətirirlər...

Halbuki əl-Qəzalinin yozumuna görə, islamda cihad insanın nəfsinə, özünün düşkün hislərinə qarşı cihaddır və heç bir halda zorakılığa çağırış kimi yozulmamalıdır. İslam həqiqətən də zorakı din olsaydı onun bətnində sufizm kimi fəlsəfi inci yaranardımı?..

Amma indi nə baş verir? Az qala o, zorakılığın və geriliyin sinoniminə çevrilib... Mən burada hələ başqa məsələləri demirəm. Məsələn, elə bu yaxınlarda E.Kanettinin əsərində xristianlıqdakı müqəddəs od mərasimi haqqında oxudum. İnanmıram islamın hansısa təriqətində bu cür gerilik olsun...

Bir daha deyirəm ki, bütün bunları bir dini təmizə çıxarmaq, digərinisə qaralamaq cəhdi kimi başa düşməyin. Əsla belə fikrimiz yoxdur və heç ola da bilməz. Sadəcə, bir daha deyirəm ki, cəmiyyətlərin problemlərini dinlərin problemi kimi qələmə verməyək...

Elə Volter də bu səpkidə yazır, diqqəti başqa dinləri yamanlamaq cəhdlərindən xristianların özlərindəki problemlərə yönəltməyə çalışır.

Türklərə gəldikdə isə, Azərbaycanın təcrübəsindən deyərdim ki, tolerantlıq bizim qanımızdadır. Bəlkə də böyük imperiyalar və dövlətlər idarə etdiklərindən, həmişə çoxlu sayda xalqlarla və dinlərlə təmasda olduqlarından və yaxud da hansısa başqa səbəblərdən türklərdə həmişə başqa dinlərə və xalqlara sayğı olub...

Təsəvvür edin, hələ Volter diqqəti xristian missionerlərinin fəaliyyətinə yönəldir və onları tənqid edirdi. Başlanğıcda bəlkə də elə bütün dinlərdə başqalarına da öz dinini məcburən qəbul etdirmək cəhdləri olub.

Amma Volter belə detala diqqət çəkir ki, sonrakı illərdə islamda bu proses dayandırılıb, işğal olunmuş digər xalqlardan yalnız hakimiyyətə itaət və bir də vergiləri vermək tələb olunub...

İndi nə baş verir? Volterdən 200 il sonra bütün tənqidlərin hədəfi islam olub. Etiraf edək ki, bu, tamamilə əsassız da deyil. Ona görə ki, İŞİD də, əl-Qaida da, eləcə də onlarla başqa radikal dini qruplar həqiqətən var...

Amma bu, dinin problemidir, yoxsa cəmiyyətlərin? Xristianlıq da, islam da humanizm və qardaşlıq dinləridir...

Sadəcə, günahkar biz insanlarıq. Ona görə ki, bəzən başqasını eşitmək və onu olduğu kimi, necə var, qəbul etmək istəmirik...

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

# "Məni zəhərləyib öldürmək istəyirdilər"

## Aşıq Ədalət: "İndikilər aşıq deyil. Çıxır, təlxəklik edir, hərəkətləri ilə Azərbaycanı, türk dünyasını, Dədə Qorqudu təhqir edirlər"

**Bugünlərdə ustad aşıq Ədalət Nəsibovun vəziyyətinin ağırlaşdığı, ayaqlarının tutulduğu, yeriyə bilmədiyi haqda məlumatlar yayıldı. Sənətkarın halını öyrənmək üçün evinə yollandıq və evinin yanındakı bazarda onunla qarşılaşdıq. Aşıq Ədalət gəlişimizlə ələqədar bazarlıq edirdi. Biz isə sənətkarı ayaq üstə görməyimizə çox sevindik.**



*Bazardan evə gedənəcən yolboyu böyükdən tutmuş, kiçiyə qədər hər kəs ustadla salamlaşır, hal-əhval soruşurdu. Beləcə, nəhayət ki, onun öz dili ilə desək, daxmasına - kiçik də olsa səliqəli olan, kənd evlərini xatırladan həyət evinə gəlib çıxdıq. Sonradan məlum oldu ki, sən demə, hazırda sazın atası sayılan aşıq Ədalət uzun illərdir bu evdə, qaranlıq daxmada kirayədə yaşayırmış...*

***- Sizi gümrah gördüyümə çox sevindim. Halbuki yazırdılar ki, yeriyə bilmirsiz...***

- Həyatdır da, yola verirəm 80 yaşımda... O şkafda gördüyünüz çamadanlarda haqqımda yazılan yazılardır. Nə qədər kitab oxuyuram. Özü də aşıqlığa aid deyil, dünya ədəbiyyatından, filosof şeirləri oxuyuram.

***- Daha çox hansı müəllifləri xoşlayırsız?***

- Hamısını. Kimi xoşlamıram ki. Rəsul Rzanımı, Səməd Vurğunumu, Bəxtiyar Vahabzadənimi... Mən kitab sevənəm. Gördüyünüz şkaf kitabla doludur.

***- Səməd Vurğundan söz düşmüşkən, görkəmcə sizin ona bənzərliyiniz çoxdur.***

- Mən Səməd Vurğunla qohum təhərəm. Həm İsmayıl Şıxlıya, həm də Səməd Vurğuna oxşayıram *(Öz şəklini Vurğunun şəkli ilə müqayisə edir)*. Bax, saçlarımız da çox oxşayır (Şkafdan bir qəlyan çıxarır). Bu, Səməd Vurğunun qəlyanıdır, öz əli ilə mənə verib... Bir gün "Pobeda" maşını ilə gəlmişdi. Dədəmə deyirdi ki, "a kişi, bu uşağı mənə ver". Dədəm də ayaqqabı tikən idi, müharibədən yenicə qayıtmışdı, bir qolu işləmirdi. Dədəm dedi ki, "bu, gözümün ilk ovudur, onu heç kimə verə bilmərəm". Onda Səməd əmi də bilmirəm 30 ya 40 min pul idi, çıxardıb dədəmə verdi. Dedi ki, "bu uşağı böyüt, saxla". Mənə "beçə" deyərdi. 60-70 il bundan əvvəlki söhbətdir, onda 6-7 yaşım var idi.

***- Son vaxtlar bəzi gənc şairlər Səməd Vurğunu və şeirlərini tənqid atəşinə tutdular.***

- Eşitmişəm, bəzi nadanlar da dedi bunu. Səməd əmi deyirdi ki, "Vətən! Çoxmu sevir məni o vətən? Mənə həcv yazır hər yoldan ötən... Çox da tərifləmə mənə vətəni, Bu qılınc olmasa yeyərlər məni!" Səməd Vurğun kimi dahi adamı pisləyərlər?!

*Söhbət əsnasında otağa nəzər salırıq, köhnə əşyalar, kitablar və 4 saz...*

***- Bu sazların hamısı sizindir?***

- Bəli. Hələ bir-ikisi rayondadır.

***- Bəs sizə ən əzizi olan hansıdır?***

- Burda budur *(kiçik, qaraya bənzər sazı göstərir)*. Ən birinci sazım rayonda nəvəmdədir. Həmin sazın təxminən 70 yaşı var. Nə sənət yiyəsi olursansa ol, həmin sənətdə gərək birinci olasan. İndikilər aşıq deyil. Çıxırlar... təlxəklik axı nəyə lazımdır. Hərəkətləri ilə Azərbaycanı, bütün türk dünyasını, Dədə Qorqudu təhqir edirlər. Elə saz çalmaq olar?! Sazı ayaqlarının arasına alırlar, əllərində oynadırlar. Sən ifanı göstər görək, kimsən. Belə olmaz, hər şeyin qanunu-qaydası var. Aşıq çayxanada 3 manata saz çalmaz. Məni burdan "at minnətinə" evdən eşiyə çıxardırlar. Mən çox pis dolanmışam, bir tikə çörəyə möhtac qalmışam vaxtilə. Anam payıma düşən çörəyi saxlayırdı, elə olurdu ki, qoynuna qoyurdu, yadından çıxırdı. Bəzən sual verirlər ki, "Keçmişə dönmək istərdinizmi?" Deyirəm ki, mən niyə o günlərə dönmək istəyim, ayağımda ayaqqabım yox, şalvarım 10 yerdən cırıq, qarnım çörək tapmırdı. Getsin o vaxtlar, gəlməsin. (kövrəlir).



*"Ustad aşıq" deyə müraciət edirəm, acığı tutur:*

- O vaxt efirə çıxanda senzuradan keçirdik. Sovet hökuməti deyirdi ki, yaz bura görüm nə oxuyacaqsan. Gedirdik, yazımızı çap maşınından çıxartdırıb göstərirdik, deyirdilər ki, hə, bunu oxumaq olar. İndi arvad demir, kişi demir, ağız-burunlarını əyib oxuyurlar. Nədir bu?! Mən aşıq deyiləm, aşıq deyiləndə acığım tutur... O vaxt olub aşiqlər, aşiqin min adı olub.

*Ustad sənətkar bu məqamda jurnalistlərdən gileylənməyə, məlum "efir qalmaqalı"ndan danışmağa başlayır:*

- Jurnalistlər gəlir, yazıb, gedirlər. Bəzən elə yazırlar ki, heç xəbərim olmur ondan. Bəzən dostlarım da zəng edir, diktofonu açıq qoyub səsimi yazırlar. Diktofonu açanda mənə deyirsin ki, açmışam. Bəzən nəsə deyirəm, sonra oluram sözümün nökəri. O gün birinə deyirəm ki, ayaqlarım tutulub, gəzə bilmirəm. Götürüb yazırlar ki, Aşıq Ədalətin ayaqları tutulub. Jurnalistlər 50 kitabımı aparıb, qaytarmayıblar.

Mənim çənəm coşanda özümü saxlaya bilmirəm. Düz deyirəm, sonra ziyanını çəkirəm. Mənim başıma nə oyun gətirdilər televizorda! Nəyə lazımdır belə şeylər? Sənətkarları yığıblar bir yerə, mən də sazdan, sözdən danışıram, bir də görürəm ki, lüt qızı oynadırlar sazın qabağında. Mən də sənətkar adamam, əsəbiləşdim. Bəs demirlər burda sənətkarlar, şəxsiyyətli insanlar var?! Biri mənim səsimə səs vermədi ki, sənətkar düz deyir. Hələ 50-ci ildə mən mükafat almışam. Stalini canlı görmüşəm. Mən ağsaqqal adamam, nəyə görəsə məni biabır etmək olmaz (əsəbiləşir).

**"17 ildir ki, evim yoxdur, Bakıda kirayədə yaşayıram, ayda 400 manat kirayə haqqı verirəm"**

*Söhbətin ahəngini dəyişməyə çalışırıq:*

***- Bir qədər "Yeddi oğul istərəm" filmindəki "Yanıq Kərəmi" ifanızdan danışaq.***

- Mən çox filmlərdə ifa etmişəm. Amma həmin film şah əsəridir.

***- Neçə ildir ki, Bakıdasız?***

- 17 ildir. 17 ildir ki, mənim evim yoxdur, kirayədə yaşayıram. Ayda 400 manat kirayə haqqı verirəm. Mən gedib kiminsə qapısını döyən, minnət-xahiş edən deyiləm.

***- Bəs övladlarınız dolanışığınıza köməklik edirmi?***

- Xeyr. Deyirlər ki, "dədə, sən bizi nə əziyyətlə böyütmüsən, boya-başa çatdırmısan, indi biz sənə köməklik edək", razı olmuram.

***- Bəziləri elə bilir ki, siz Xalq artisti adını çoxdan almısız.***

- Mən Əməkdar incəsənət xadimiyəm. Bu ad Xalq artisti adından daha yüksək, böyükdür. O vaxtı bu adı Bəxtiyar Vahabzadə mənə vermişdi. Dedi ki, sənə İncəsənət xadimi adı layiqdir. Azərbaycanda 30-40 nəfər ancaq incəsənət xadimidir, qalanı hamısı Xalq artistidir.

***- Amma Xalq artistlərinə ev verilir.***

- *(Barmaqlarını bir-birinə sürtür)* Onların pulu var da yəqin ki.

***- Bəs Aşıqlar Birliyi sizə nəsə qayğı göstərmir?***

- Əvvəllər qurumun rəhbəri Zəlimxan Yaqub idi. Onunla yaxın dost idim. Sonra aramızı vurdular.

*Elə bu məqamda bankdan sənətkara zəng olunur. Məlum olur ki, ustad aşığın banka kredit borcu var və vaxtında ödəmək üçün ona xəbərdarlıq edirlər: "Hə, niyə bilmirəm ki, neçə ildir ki, o borcu verirəm. Ötən dəfə 3 manat əskik idi, az qala məni Bakıdan qovalayasız. Heç nə demirəm, camaatı tovlamayın, camaat yazıqdır". Telefon danışığı bitir, söhbətimizə davam edirik:*

- Hamı kimi mən də kredit götürüb maşın almışam. İki manat gec verən kimi cərimə yazdılar, gündə 15 dəfə zəng edirlər... Aşıqlar Birliyinin hazırda rəhbəri Məhərrəm Qasımlıdır. Özü də ora layiqdir və mənim təşəbbüsümlə ora qəbul olunub. Bu qurumun axı əlindən nə gəlir, yalnız xarakteristika yazır. Biz xalqla dolanırıq. Mənə 3-4 dəfə deputatlıq təklif edildi. Dedim ki, məndən deputat olmaz. Sazım mənə, mən də sazıma yaraşıram, el də məni dolandırır, ayda 1500 manat təqaüdümü alıram, bəs edir.

***- Toylara gedirsizmi?***

- Xeyr. Toylarda mənim xətrimə dəyirlər. 10 dəqiqə mənə vaxt verirlər. Mən elə 10 dəqiqəyə ancaq sazı düzəldirəm. Deyirlər ki, get çal, 5-10 manat pul qazan. Deyirəm ki, a kişi, mən 10 dəqiqəyə aşıqlığı göstərə bilmərəm. O gün bu sualı Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Fikrət Babayev də verdi. Mənə deyir ki, "sən hələ ev almamısan?" Deyirəm ki, "bəyəm ikinci evi alıram?" Sonra soruşdu ki, "toylara gedirsən?" Dedim, səni nə maraqlandırır. Mən nazirin qəbuluna girə bilmədim.

***- Bir az öncə dediniz ki, sazınızı nəvənizə vermisiniz. Maraqlıdır, axı aşıqlar öz sazına qarşı qısqanc olur, onu heç kimə vermirlər.***

- Nəvəm də gözəl ifa edir. Özü də mən öyrətməmişəm ha, öz-özünə öyrənib. Demişdim ki, məni sazımla dəfn edərsiz. Həmin vaxt dindarlar məni tənqid etdilər. Dedilər ki, "insan bu dünyaya lüt gəlib, lüt də getməlidir". Cavab verdim ki, "saz mənimdir, onu da özümlə aparıram". Axırda bir sazım var, üzünü sökdürüb, qopartdım. Onun üzünü özümlə aparacam, kim nə biləcək ki, sinəmdə sazın üzü var. Mən 5 yaşımdan saz çalıram. Dünyanı mənə bağışlayalar, mən sazımı verməərəm.

***- Bəzən sual verirlər ki, niyə dastanlarımızda yalnız Güney Azərbaycan bölgələrinin adları çəkilir?***

- Niyə ki? Bir çox dastanlarda Gəncənin adı çəkilir. Gəncə qüdrətli yerdir. Bəziləri deyir ki, Qarabağ qayıdanda qurban kəsəcəm. Mən də qoca sənətkaram, əlimdə bir şey yoxdur. Yalnız bir şey edə bilərəm, Gəncənin bu başından əlimdə saz piyada çala-çala Qazağa gedəcəm. Gəncə Cavad xan diyarıdır. Qollarını açır deyir ki, gəlin.



*Yerindən qalxıb şkafa yaxınlaşır. Ordan içində gül olan ağzı bağlı butulka çıxardır. Sən demə, gül adı dillərdə gəzən, məşhur Xarıbülbül çiçəyi imiş. Həyatımda ilk dəfə idi ki, canlı Xarıbülbül görürdüm, bizim nəsil bu gülün adını ancaq eşidə bilib. Sənətkar maraqdan donub qaldığımı görüb asta avazla oxuyur:*

- "Vətən bağı al əlvandır, Yox üstündə Xarıbülbül..." Diqqətlə bax, sanki gülün üstünə sarı bülbül qonub.

***- Şüşənin içindəki maye nədir ki, onu belə canlı, təzə saxlaya bilib?***

- Bilmirəm, məlumatım yoxdur. Hazırda yeganə canlı Xarıbülbül tək məndədir. 45 ildir onu mənə bağışlayıblar, mən də qoruyub saxlamışam. Eh, siz cavanlar belə şeyləri bilməzsiz...

*Müsahibə boyu sənətkar həm özünə aid, həm də görkəmli şairlərimizdən xeyli şeirlər oxudu. Maraqlıdır ki, onun bu yaşda belə gözəl avazı olmasına baxmayaraq, nədənsə oxumaqdan çox, instrumental ifaçılığa üstünlük verir.*

***- Çox gözəl səsiniz var, amma ifanızda nəsə oxumağa üstünlük vermirsiniz.***

- Mən bir insana söz vermişəm ki, daha oxumayacam. Yəqin ki, oxumağım ona xoş gəlmədi, ya nəsə.

***- Nə vaxt olub bu?***

- 18-20 il bundan əvvəl (Nəyisə xatırlamağa çalışır). Deyəsən, Sultanxanıma söz vermişdim ki, oxumayacam, o mənim əmim qızıdır. Amma hansısa dost məclisində xahiş edəndə oxuyuram. Uşaq vaxtı oxumağıma görə məni zəhərləmişdilər.

***- Neçə yaşınız var idi?***

- 12. Məni öldürmək istəyirdilər. Onda qatar, avtobus harday-dı. Bir maşına minib məni aparmışdılar Gəncəyə. Analizə baxanda dedilər ki, bizlik deyil. Apardılar məni Bakıya, həkim Topçubaşovun yanına. O vaxt atamda pul nə gəzirdi, pinəçi adam idi. Amma o vaxtlar bir kişi sözünə iş görürdülər. İbrahim Topçubaşov dedi ki, nə yaxşı ki, bu ölməyib, salamat qalıb. Mənə danışmağı qadağan etmişdilər. Beləliklə, məni xilas etdilər.

***- Bəyəndiyiniz aşıq varmı?***

- İndi sən deyən nə aşıq var, nə də ona qiymət verən. Amma bir aşıq xanım var, həm gözəldir, həm də gözəl oxuyur.

*Ustad sənətkara yalnız qızı və nəvəsinin qulluq etməsi diqqətimdən yayınmır.*

***- Həyat yoldaşınız yanınızda deyil?***

- Yox... Mənim pələng kimi balalarım var, hamısı da özümə oxşayır. "Üzü qara olsun bivəfa yarın. Bilmədi qədrini şah sənətkarın". Həyatdır da. İndi fikirləşirəm ki, mən onunla uzun illər necə yaşamışam. Çəkilirdim evin birinə, çalırdım. Deyirdi ki, "bəsdir də, başımız getdi, qoy bir az yataq". Sazı evin başına qoyurdum, aparıb küncə qoyurdu. Deyirdim "bunu ora qoymaq olmaz, mən evə qazancı onunla gətirmişəm". Axırda dedim ki, qurtardı. 25 ildir ki, boşanmışam... Tale əvvəldən düz yazmayıb heç nəyi.

***- Bəs ikinci dəfə ailə həyatı qurmadız?***

- Yox, istəmirəm daha.

**❑ Xalidə GƏRAY**

**"Mənə 3-4 dəfə deputatlıq təklif edildi, dedim ki, məndən deputat olmaz"**

**"Çənəm coşanda özümü saxlaya bilmirəm"**

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə saysız-hesabsız səfərlərindən daha biri başa çatdı. Bakı və İrəvandan sonra diplomatlar Qarabağ separatçıları ilə görüşmək üçün Xankəndinə gediblər.**





# Həmsədrlər Qarabağdan "qar xəbəri" gətirdilər

## ATƏT missiyası səfərin yekununa növbətçi bəyanatı ilə nöqtə qoydu: "İlk fürsətdə prezidentlərin görüşünün təşkil edilməsinin mümkünlüyünü müzakirə etmək üçün nazirlərin görüşü planlaşdırılır" Rəsmi Bakı: "ATƏT-in Minsk Qrupunun həmsədrləri də artıq çoxdan vaxtı yetişmiş ünvanlı bəyanatlarla çıxış etməli və Ermənistan qarşısında konkret tələblər qoymalıdırlar"

Əslində tərəflər arasında bərabərlik işarəsi qoymaqla ciddi ədalətsizliyə yol verən həmsədrlərin işğal altındakı əraziyə Bakıdan deyil, İrəvandan gəlmələri də normal qəbul oluna bilməz. Düzdür, Qarabağ ermənilərini dinləmək lazımdır, ancaq bu görüş o halda ola bilər ki, masada konkret təkliflər olsun və ona separatçıların münasibətini öyrənmək zərurəti yaransın. Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistana Dağlıq Qarabağdan Vardenis-Ağdərə yolu vasitəsilə dönüblər. Maraqlısı odur ki, bu barədə də jurnalistlərə amerikalı həmsədr Ceyms Uorlik məlumat verib. "Dağlıq Qarabağdan Ermənistana, şimal yolu (Vardenis-Ağdərə) ilə qayıtmaq imkanımız oldu. Böyük sevinc hissi ilə xəbər verirəm ki, orada artıq qar yağır" deyə, həmsədr "qar sevinci"ni də bölüşüb. Necə deyərlər, biz deyirik bunlar bizim dərdimizə dərman gətirəcək, bunlar gedib qar xəbəri gətirirlər. Əgər belə olmasaydı, həmsədrlər Azərbaycanın Qarabağ ermənilərinə muxtar respublika statusu vəd edən Bakının konstruktiv mövqeyinin qarşılığında özünü küçə tərbiyəsiz uşağı kimi aparıb "Qarabağı vermərik" deyən Ermənistan rəhbərliyinə təpinər, işğala son verilməsini tələb edərdi. Düzdür, amerikalı həmsədr Bakıda olarkən qeyri-müəyyən formada "Azərbaycan torpaqları azad olunmalıdır" dedi. Ancaq torpaqları işğalda saxlayan qüvvənin adını belə çəkməyə lüzum görmədi və Ermənistandakı bəyanatları da olduqca ürkək idi.

**Sitat:** "Aprel hadisələrindən sonra təmas xəttində vəziyyət nisbətən sakitdir. Bu bizim apardığımız danışıqlar üçün çox vacib təməl təşkil edir. Ümid edirik ki, atəşkəsə hörmət davam etdiriləcək. Bu, Azərbaycan və Ermənistan prezidentləri arasında danışıqların nəticəsidir. Əminəm ki, Anjey Kaspşikin missiyasının genişlənməsi doğru istiqamətdə vacib addım olacaq". Bəli, Uorlikin mövqeyi bundan ibarətdir. Aprel döyüşlərindən sonra status-kvonun aradan qaldırılması zərurətinin vurğulanmasına baxmayaraq, həmsədrlər yenə də "köhnə bayatılar"dan bəhs edirlər, üstəlik, "nə sülh, nə müharibə" vəziyyətinin həmişəyaşar olmasından ötrü Kasprşikin missiyasını genişləndirməyə çalışırlar. İrəvan "bir qarış da olsun torpaq" verməyəcəyini deyirsə, bundan sonra hansı danışıqlara ümid etmək olar?

Diqqətçəkən bir məsələ də var: Minsk Qrupu həmsədrlərindən həmişə ən çox amerikalı vasitəçi Uorlik danışır proses barədə, açıqlamalar, bəyanatlar verir. Lakin digər diplomatlar, xüsusən də rusiyalı həmsədr müəmmalı şəkildə susur. Düzdür, bir neçə gün əvvəl o, Azərbaycan mediasına müsahibə vermişdi. Ancaq son zamanlar bir qayda olaraq o və fransız həmkarı danışıqların yekunlarında Uorliki dinləməyə üstünlük verir.

***

**Minsk Qrupunun həmsədrləri regiona səfərlərinin yekunları ilə bağlı bəyanat yayıb. Bəyanatda həmsədrlər atəşkəs barədə razılığa əməl edilməsinin cari danışıqlar üçün lazımi əsas verdiyini, Vyana və Sankt-Peterburqda keçirilən görüşlərdə qəbul edilən qərarların tam həyata keçirilməsinin əhəmiyyətini qeyd edib. Bildirilib ki, görüşlər zamanı tərəflər yerlərdə vəziyyətin nisbətən sakit olduğunu təsdiq edib. Həmsədrlərin bəyanatında, Azərbaycan və Ermənistan prezidentləri ilə görüş zamanı dövlət başçılarının da ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisinin səlahiyyətlərinin genişləndirilməsini təsdiq etdikləri və bu məsələ ilə bağlı detalların hələ müzakirə olunduğu bildirilib.**

"Həmsədrlər dekabrda Hamburqda keçiriləcək Xarici İşlər Nazirləri Şurası iclası çərçivəsində ilk fürsətdə prezidentlərin görüşünün təşkil edilməsinin mümkünlüyünü müzakirə etmək məqsədilə nazirlərlə görüşməyi planlaşdırır. Yüksək səviyyədə belə dialoq nizamlanma prosesində irəliləyişə nail olmaq üçün zəruridir" deyə, bəyanatda vurğulanıb.

Regiona səfər çərçivəsində vasitəçilər Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) nümayəndələri ilə görüşüb. Görüş zamanı komitənin münaqişənin gedişində itkin düşmüş şəxslər haqqında məlumat mübadiləsi üzrə işi müzakirə edilib.

Aprel döyüşlərindən sonrakı aylarda danışıqlarla məsələnin həllinə ümidlər yaransa da, bu gün yenə də müharibə ritorikası önə çıxıb. Məlumatlara görə, Ermənistanda seçkidən sonra daxili siyasi vəziyyətin gərginləşməsi gələn ilin aprel ayında Dağlıq Qarabağdakı vəziyyətə də təsir göstərə bilər. Modern.az Ermənistan mediasına istinadən xəbər verir ki, bunu "Modus Vivendi" analitik mərkəzinin rəhbəri, ekspert Ara Papyan bəyan edib. Onun fikrincə, payızda və qışda Qarabağ münaqişəsi ilə bağlı genişmiqyaslı hərbi əməliyyatlar proqnozlaşdırılmır. "Aprel ayında Ermənistanda seçkilər nəzərdə tutulub. Böyük ehtimalla ədalətli olmayacaq və təlatümlərə gətirib çıxaracaq. Seçkisonrası ölkədə daxili siyasi vəziyyətin gərginləşməsi Qarabağ münaqişəsi zonasında da gərginləşməyə gətirib çıxara bilər" deyə, Papyan vurğulayıb. Onun sözlərinə görə, bu hakimiyyətə ədalətli seçki keçirilməsinə çağırışdır: "Bununla ölkənin maraqlarının şəxsi partiya maraqlarından üstün olduğunu göstərə bilərlər".

**Ancaq əksər ekspertlər bu mövqedədir ki, apreldəki döyüşləri ermənilərin yadına salmaq üçün daha bir sarsıdıcı zərbəyə ehtiyac var.**

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, prezident İlham Əliyevin son müsahibəsində muxtariyyət məsələsinin qaldırılması ermənilərə bir mesajdır:** "Yəni biz öz şərtlərimizdən birini dedik və cavab gözləyirik. Eyni zamanda ermənilərə çatdırdıq ki, münaqişənin həlli onların təklif etdiyi paket şəklində deyil, ancaq mərhələləi şəkildə həyata keçirilə bilər. Bundan sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri öz dövlətlərinə məruzələr edəcək və düşünürəm ki, Azərbaycan və Ermənistanın xarici işlər nazirləri görüşəcəklər. Bu görüşün yekunundan asılı olaraq dövlət başçılarının görüşü mümkündür".

**Niyə ancaq Uorlik danışır, digər iki diplomat susur?**

**Bu barədə danışan A.Nağıyev amerikalı həmsədrin aktiv fəaliyyətini səbəbsiz saymadığını vurğuladı:** "Uorlik əsasən Azərbaycanda və Ermənistanda danışır. Popov isə separatçılarla görüşlərdə bəyanatlar verir. Fransalı həmsədr Pierre Andrieu də susmağa üstünlük verir. Düşünürəm ki, onlar arasında belə bir formal bölgü aparılsa da, bu, heç də simvolik xarakter daşımır. Yəni, Ermənistana qarşı Uorlik daha müstəqildir, çünki hər iki dövlətlə əlaqələr stabil vəziyyətdədir. Rusiya və Fransa isə ermənilərlə daha loyal münasibət saxlayır və bir sıra məsələlərdə həmfikir və tərəfdaşdırlar. Rusiya separatçılarla danışıqlarda daha aktivdir. Çünki SSRİ-nin sələfi kimi münaqişənin yaranma tarixini və hətta yaradılmasını daha yaxşı bilirlər. Həm də separatçıların liderləri Rusiya ilə daha geniş əlaqəyə malikdirlər".

**Azərbaycanın digər siyasi şərhçiləri də həmsədrlərin budəfəki səfərindən faydalı nəsə gözləmir. "ATƏT-in Minsk Qrupu həmsədlərinin əsas məqsədi müxtəlif ölkələrdə Azərbaycan və Ermənistan prezidentlərinin və ya XİN rəhbərlərinin görüşlərini təşkil etməkdir. Əgər həmsədrlər görüşün təşkil edilməsi ilə işin bitdiyini hesab edirlərsə, səhv edirlər. Çünki məsələ bununla həll edilmir". Bu fikri politoloq Fikrət Sadıqov "azadinform" saytına açıqlamasında deyib.**

**O qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqların əbədi şəkil alması heç bir nəticəyə aparıb çıxarmayacaq. Politoloqun fikrincə, əgər həmsədrlər həqiqətən nəticəyə gəlmək istəyirlərsə, Qarabağ probleminin uzun müddət davam etməsinin, Azərbaycanın rayonlarının işğal atında qalmasının region üçün təhlükəli olduğunu başa düşürlərsə, şablon ifadələrdən imtina etməlidirlər:** "Onlar daim deyirlər ki, hər şey dövlət başçılarından asılıdır. Bu, şablon, həqiqətə uyğun olmayan ifadədir".

**F.Sadıqov əlavə edib ki, təkliflər vasitəçilər tərəfindən irəli sürülməlidir:** "Onlar gözəl başa düşür ki, BMT TŞ-nin qətnamələri indiyə qədər yerinə yetirilməyib. Bütün dövlətlər ərazi bütövlüyümüzü dəstəkləyir. Həmsədrlər əlindən gələni etməlidir ki, ərazilər şərtsiz, maneəsiz boşaldılsın".

**Politoloq sonda qeyd edib ki, bəzən biz ikili yanaşmalarla üzləşirik:** "Ermənistanla Azərbaycanı bir tərəziyə qoyurlar. Hesab edirəm ki, yeni təkliflər və Ermənistana təzyiqlər olmasa, məsələ həmin səviyyədə qalacaq".

"ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfərləri nəticəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlar prosesində hər hansı irəliləyiş əldə edildiyini düşünmürəm". Bunu isə deputat Rasim Musabəyov deyib.

Rəsmi Bakı isə hələlik danışıqlara olan ümidlərini kəsməyib.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında həmsədrlərin səfərinin yekunlarını şərh edərkən bunları söylədi:** "Azərbaycanın dövlət başçısı "Sputnik" agentliyinə müsahibəsində qəti, prinsipial və konstruktiv şəkildə münaqişənin həlli ilə əlaqədar Azərbaycanın mövqeyini bir daha səsləndirdi. Onu da xatırlatmaq istərdim ki, prezidentlərin Sankt-Peterburq görüşündən sonra Azərbaycan substantiv əsasda danışıqların aparılmasına hazırlığını ifadə etmişdi. Bu danışıqlar elə ATƏT-in həmsədr ölkələrinin başçıları səviyyəsində qəbuledilməz və qeyri-davamlı hesab olunan status-kvonun dəyişdirilməsini nəzərdə tutur. Status-kvonun dəyişdirilməsi dedikdə isə bu, ilk növbədə işğal faktının aradan qaldırılması və Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan ordusunun çıxarılmasıdır".

**Diplomat dedi ki, münaqişənin həlli prosesi ilə əlaqədar yol xəritəsi və Azərbaycanın konstruktiv mövqeyi hər kəsə bəllidir:** "ATƏT-in Minsk Qrupunun həmsədrinə də regiona son səfərləri əsnasında bu mövqe bir daha izah olundu. Amma danışıqlara mane olan tərəf varsa, bu da Ermənistandır. Gördüyümüz kimi, ölkə daxilində tragikomik səhnələr, cəbhədə vəziyyətin gərginləşdirilməsi və işğal olunmuş ərazilərdə atəş hazırlığı və digər məşq, hərbi hazırlığın keçirilməsi ilə Ermənistanın prosesi əngəlləməyə yönəlik siyasət yürütdüyü açıq şəkildə aydındır. Belə olan şəraitdə ATƏT-in Minsk Qrupunun həmsədrləri də artıq çoxdan vaxtı yetişmiş ünvanlı bəyanatlarla çıxış etməli və Ermənistan qarşısında konkret tələblər qoymalıdırlar. Bu, mövqelər barədə ümumi müzakirələr aparmaq üçün həyata keçirilmiş növbəti səfərlərdən biri idi".

**Danışıqların dayandırılması və həmsədrlərin fəaliyyətindən imtina barədə təkliflərə gəldikdə, H.Hacıyev bildirdi ki, Azərbaycan keçirilən görüşləri və aparılan danışıqları dəstəkləyir:** "Amma bunlar imitasiya və protokol xarakteri daşımamalı, substantiv xarakterli olaraq münaqişənin tezliklə həllinə xidmət etməlidir. Hazırda münaqişənin danışıqlar yolu ilə həlli üçün imkanlar tükənməyib. Bu imkanlar düzgün istifadə olunaraq münaqişənin tezliklə həll olunması, regionda davamlı sülhün və sabitliyin bərqərar olunması təmin edilməlidir".

"Türkiyə Azərbaycanın əsas probleminə - Dağlıq Qarabağ münaqişəsinə laqeyd qala bilməz". Bu fikirlər isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana məxsusdur. Dövlət başçısı qeyd edib ki, Azərbaycan xalqı əziyyət çəkirsə, Türkiyə buna laqeyd qala bilməz. Azərbaycan prezidentinin köməkçisi Əli Həsənovun qardaş ölkəyə rəsmi səfərində Qarabağ məsləhətləşmələrinin də aparıldığı barədə məlumatlar var. Güman olunur ki, Bakı və Ankara həmsədrlərin prosesi uzatmağa yönəlik fəaliyyətini birgə müzakirə edir və addımlarını uzlaşdırmağı vacib sayır. Bu mənada cənab Ərdoğanın bəyanatı Türkiyənin Qarabağ tənzimlənməsində həmsədr olmasına hər cür əngəl yaradan qüvvələrə mesaj da sayıla bilər...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016



# Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı yenilik

## Qeydiyyat üçün tələb olunan müddətlər də qısaldılaraq 10 iş gününə endirilib

**Əmlak Məsələləri Dövlət Komitəsinin rəsmi saytında vətəndaşlar üçün daşınmaz əmlakın qeydiyyatı ilə bağlı yenilik edilib. Komitədən "Trend"ə verilən məlumata görə, vətəndaşlar onlara məxsus daşınmaz əmlaka dair çıxarış almaq üçün tələb olunan sənədlərin siyahısı ilə indi daha rahat və çevik şəkildə tanış ola biləcəklər. Əmlak Məsələləri Dövlət Komitəsinin rəsmi internet səhifəsində bu siyahını əks etdirən "Vətəndaşların nəzərinə!" adlı ayrıca keçid (link) yaradılıb.**

Burada mənzil fondunun özəlləşdirilməsi, fərdi yaşayış evlərinin ilkin qeydiyyatı, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi üçün tələb olunan sənədlərin siyahısı əksini tapıb. Həyətyanı torpaq sahəsi və bağ evi olan vətəndaşlar da bu əmlakların ilkin qeydiyyatı üçün zəruri sənədlərin siyahısını bu linkdə görə bilərlər.

Fərdi və kooperativ bağ sahələri *(boş torpaq sahələri)* üzərində hüquqların ilkin qeydiyyatı üçün tələb olunan sənədlərin siyahısı da bu linkdə yer alıb. Kollektiv bağçılıq-yoldaşlıq təsərrüfatının istifadəsindəki bağ sahələrinin ilkin qeydiyyatı bağlı sənədlərlə də burada tanış olmaq mümkündür. Bu siyahı isə yalnız 2001-ci il 1 yanvar tarixinədək ayrılmış torpaq sahələrinin qanuni istifadəçilərinə şamil edilir.

Bundan əlavə, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti yaranan tarixdən əvvəl yaranmış mülkiyyət hüquqlarının qeydiyyatı ilə bağlı sənədlərin siyahısı da linkdə əksini tapıb. Bu mülkiyyət hüquqlarına xidmət fəaliyyətə başlayana qədər müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeydiyyata alınmış hüquqlar və bu barədə verilmiş sənədlər aiddir.

Qeyd edək ki, bu yeniliyin məqsədi hüquqi tələbləri daha rahat və çevik şəkildə əhaliyə çatdırmaq və maarifləndirmək, eləcə də qeydiyyat prosesində vətəndaşın işini maksimum rahatlaşdırmaqdır. Vətəndaş qeydiyyat prosesinə başlamazdan öncə, sadəcə, bu linkə daxil olaraq zəruri sənədlər siyahısı ilə tanış olur. Artıq bundan ötrü ərazi qeydiyyat idarəsinə getməsinə və ya zəng vurmasına ehtiyac qalmır. Daha sonra isə vətəndaş daşınmaz əmlak barədə istədiyi hüquqi əməliyyatları həyata keçirməyə başlayır. Son nəticədə bu yenilik daşınmaz əmlakın qeydiyyatında vətəndaş məmnunluğunun artırılmasına və məmur-vətəndaş ünsiyyətinin azaldılmasına xidmət edir.

Belə tədbirlər qeydiyyat xidmətlərində keyfiyyət və səmərəliliyin artmasına, daha çox insanın hüquq sahibi, mülkiyyətçi olmasına yol açır. Xatırladaq ki, son illərdə imzalanmış fərman və sərəncamlar sayəsində qeydiyyat üçün əsas olan ilkin sənədlərin siyahısı əhəmiyyətli dərəcədə genişlənib. Qeydiyyat üçün tələb olunan müddətlər də qısaldılıb və 10 iş gününə endirilib.

Elektron və onlayn xidmətlərin tətbiqindən sonra isə daşınmaz əmlakın qeydiyyatı prosesi kifayət qədər sadələşib. Elektron müstəviyə keçid vətəndaşın qeydiyyat üçün uzun vaxt itkisinə məruz qalmasını, ərazi idarələrinə getməsini aradan qaldırıb və vətəndaş-məmur ünsiyyətini minimuma endirib.

# Neftin qiymətlərindən asılılıq - çıxış yolu nədir...

## Ekspertlər durumu və proqnozları bölüşürlər; "Ən azı on ildə Azərbaycanın neftdən asılılığı ciddi şəkildə qalacaq"...

**Neft və onun qiyməti ilə bağlı müxtəlif gözləntilər olsa da, bunların əksəriyyəti real görünmür. Həmçinin ölkədə qeyri-neft sektorunun inkişafı yönündə addımlar atılması da yetərincə deyil. Ekspertlər mövcud durumu dəyərləndirərək, hökumətin etməli olduğu addımlara diqqət çəkirlər.**

**Prezident İlham Əliyev Bakıda keçirilən Azərbaycan-Xorvatiya biznes forumunda çıxışında bildirib ki, neft qiymətinin kəskin azalması Azərbaycanın gəlirlərini azaldıb. Dövlət başçısı bildirib ki, Azərbaycanın builki dövlət büdcəsində neftin qiyməti 25 dollar təsbit olunub:** "Bu gün neftin qiyməti artıq 2 dəfə bahadır. Düşünürəm ki, biz bu vəziyyətdən minimal zərərlə çıxacağıq. Azərbaycan iqtisadiyyatı şaxələndirmə siyasəti həyata keçirir. Uzun illərdir ki, bunu həyata keçiririk. Bunun sayəsində neft Azərbaycanın ümumdaxili məhsulunun 33 faizini təşkil edir. Biz ümumdaxili məhsulumuzu şaxələndirməyə nail olmuşuq və neftin qiymətlərindən asılılığımızı azaltmışıq. Bu gün ixracımızın şaxələndirilməsi ilə məşğuluq. İstərdik ki, Avropa bazarlarına rəqabət qabiliyyətli qeyri-neft məhsulları ilə daxil olaq".

**Prezidentin sözlərinə görə, Azərbaycanda çox münbit sərmayə atmosferi var:** "Azərbaycan postsovet məkanında adambaşına düşən ümumdaxili məhsulun həcminə görə birinci yerdədir. Bu günə qədər Azərbaycana 200 milyard dollar yatırılıb, bunun yarısı xarici sərmayə olub. Bu gün Avropada və dünyanın digər bölgələrində böhrana baxmayaraq, biz hələ də neft-qaz və digər sahələrə sərmayə cəlb etmək iqtidarındayıq. Biz işsizliyin səviyyəsini kəskin şəkildə azalda bilmişik, bu gün işsizliyin səviyyəsi 5 faizdir. Regional infrastruktur proqramları həyata keçirilir. Bunun sayəsində yoxsulluq da 5 faizə endirilib. Biz böyük həcmdə valyuta və qızıl ehtiyatları toplamağa nail olmuşuq. Bunun sayəsində neft qiymətləri kəskin düşəndə böyük manevr imkanları əldə etmişik".

**Ekspert Natiq Cəfərli musavat.com-a açıqlamasında bildirib ki, Azərbaycanın neftdən asılılığının azaldılması çətin məsələdir:** "İqtisadi sistemə baxdıqda və büdcə parametrlərinə, xarici ticarət balansına baxdıqda, gedən prosesləri gördükdə, təəssüf ki, ən azı yaxın on ildə Azərbaycanın neftdən asılılığının ciddi şəkildə qalacağını görmək mümkündür. Çünki nefti əvəz edə biləcək və neft qədər ölkəyə valyuta gətirə biləcək hər hansı sahənin yaxın illərdə inkişaf etdirilməsi, o sahə üzrə ciddi nailiyyətlərin əldə olunması mümkün görünmür. İqtisadi problemlərdən başqa, idarəetmədə də ciddi problemlər var. Məhz bu idarəetmədə olan problemlər hər hansı bir sahənin ciddi şəkildə inkişaf etməsinin qarşısını alır. Hökumətin yanaşması da burada öz rolunu oynayır. Hələ də hökumət və dövlət hər şeyin öz nəzarəti altında və birbaşa dövlətin iştirakı ilə inkişaf etdirilməsini düşünür. İstər kənd təsərrüfatı olsun, istər turizm olsun, hansıların ki, Azərbaycanda ciddi potensialı var, həmin sahələrdə dominant rolu dövlət oynamağa çalışır. Dövlət öz əlində cəmləməyə çalışır. Bu yol isə effektiv yol deyil. Dünyanın keçdiyi yol sübut edir ki, hər hansı bir nailiyyətləri əldə etməkdən ötrü dövlətin və hökumətin iqtisadi sferada bu qədər hegemon rol oynaması ciddi maneçilikdən və problemlərdən başqa bir işə yaramır. Sözümün canı odur ki, neftdən asılılığın azaldılması yolunun biri də iqtisadiyyatın dövlətdən asılılığının azaldılmasıdır. Təəssüf ki, Azərbaycanda bu, baş vermir. İqtisadiyyat, hökumətdən, dövlətdən, büdcədən nə qədər çox asılıdırsa, neftdən asılılığımız da bir o qədər davam edəcək".



**Ekspert Vüqar Bayramov isə qeyd edib ki, neftin dünya bazar qiymətinin necə dəyişəcəyi qlobal gündəmi zəbt etməkdədir:** "Qlobal tələb-təkliflə bağlı statistika tarazlıqdan xəbər versə də, bazarda dayanıqlılığın formalaşdığından danışmaq hələlik tezdir. Neftə olan gündəlik tələb bu ilin üçüncü rübündə 96,99 milyon barelə çatıb. Bu rəqəm ikinci rübdə 95,62, birinci rübdə isə 95,36 milyon barel olub. Göründüyü kimi, neftə olan qlobal tələb artmaqdadır. Beynəlxalq Enerji Akademiyası dördüncü rüb üçün 97.03 milyon barel gündəlik tələb proqnozlaşdırır. Bu, son illərin ən yüksək tələb proqnozudur. Dünya bazarında neft təklifi isə azalmaqdadır. Belə ki, 2015-ci ilin sonuncu rübündə bazara gündəlik 97.37 milyon barel neft çıxaran enerji ölkələri ixracı bu ilin birinci rübündə 96.61, ikinci rübdə isə 95.93 milyon barelədək azalıblar. Əgər 2016-cı ilin birinci yarım ilinin nəticələrini müqayisə etsək, o zaman tələb və təklif təxminən bərabərləşib. Əslində neftin dünya bazar qiymətindəki mövsümi stabillik də məhz bazardakı mövcud tarazlıqla bağlıdır".

**Onun sözlərinə görə, OPEC-in gələn ayın sonuna nəzərdə tutulan toplantısının qiymətlərə təsiri olacaq:** "Əvvəlla, qiymətin yaxın zamanlarda kəskin artacağına inanmaq və ya proqnozlaşdırmaq sadəlövhlük olardı. Hələlik dünya bazarında neftin qiymətini kəskin artıra biləcək iqtisadi faktorlar yoxdur. İkincisi, nə OPEC daxilində, nə də bu qurumdan kənarda neftin hasilatının azaldılması ilə bağlı konsensus yoxdur. Qlobal istehsalın təxminən 40 faizini təmin edən OPEC ən yaxşı halda hasilatı gündəlik 33 milyon barel səviyyəsində dondura bilər ki, bu da hasilatın azaldılması deyil, məhdudlaşdırılmasıdır. Deməli, ən yaxşı halda gündəlik hasilatda 500 min- 1 milyon barel azalma demək olacaq. Üçüncüsü, OPEC-də ikinci ən böyük istehsala malik ola İraq da daxil olmaqla, bazarda bir sıra digər oyunçular hasilatı azaltmaqla neft gəlirlərini minimumlaşdırmaq niyyətində deyillər. Gündəlik 4.8 milyon barel hasilata malik olan İraq istehsalı azaltmayacağını rəsmi bəyan edib. Bu arada, neftin qiymətindəki son azalmaların əsas səbəbi də bu bəyanatdır. İraq əsas dövlət gəlirini azaldacaq addımlar atmaqda maraqlı deyil. Əksinə, İraqda İŞİD-ə qarşı mübarizə güclənərsə, rəsmi Bağdad dünya bazarına daha çox neft göndərə biləcək. İran sanksiyalardan əvvəlki gündəlik 4 milyon barel hasilat səviyyəsinə qayıtmaqda israrlıdır. Bu isə cənub qonşumuzun gündəlik hasilatı daha 500 min barel artıracağı anlamına gəlir. Deməli, yüksək qiymətlərə ümid etməyən bir sıra OPEC ölkələri hasilatı azaltmaqla mövcud gəlirlik səviyyələrini aşağı salmaqda maraqlı deyillər. Nəhayət, OPEC-in ən çox ehtiyatlandığı şist neft faktoru gündəmdədir. Neftin barelinin 60 dollara çatması şist neft hasilatını daha da rentabelli edə bilər ki, bu halda ABŞ və Kanada yenidən bazara daha çox "qara qızıl" göndərəcəklər. Bu isə qiymətlərin daha kəskin azalmasına səbəb ola bilər".

**V.Bayramov deyib ki, əslində bir barel nefti 5 dollara hasil edib 50 dollara satan OPEC ölkələri mövcud qiymətdən razı olmalıdırlar:** "Çünki dünya bazarında xərcindən 10 dəfə baha qiymətə satılan əmtəələrin sayı heç də çox deyil. Bütövlükdə, orta hesabla xərci 20 dollara olan və bundan 2,5 dəfə baha qiymətə nefti satan digər enerji dövlətlərini də mövcud qiymət praktik olaraq razı salmalıdır. Sadəcə, əksər neft ölkələrinin iqtisadiyyatları yüksək neft qiymətlərinə, yumşaq desək, öyrəşdikləri üçün mövcud qiymətlər onlar üçün cəlbedici və sərfəli görsənmir. Gələn ay OPEC-in hansı qərar qəbul etməsindən asılı olmayaraq, enerji ölkələrinin neft gəlirlərinə baxış strategiyasının dəyişdirilməsi vacibdir. Artıq sözün real mənasında postneft dövrü başlayır. Postneft isə neftdən sonrakı dövr deməkdir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

# Bakıda “Soso qalmaqalı”....

## Vətənpərvərlər etiraz edir, XİN icazə verir, Emin Ağalarov isə hamını səbrli olmağa çağırır

**Gürcü müğənni Soso Pavliaşvilinin Azərbaycana gözlənilən səfəri və bununla bağlı yaranan qalmaqal ciddi müzakirə mövzusudur. Hər şey gürcü müğənninin Bakıya gəliş xəbərinin yayılmasından sonra Azərbaycanın xalq artisti Ramiz Fətəliyevin məktubu ilə başladı. R.Fətəliyev S.Pavliaşvilidən Bakıda planlaşdırılmış konsertdən imtina etməsi ilə bağlı xahiş məktubu dərc etdi.**

Azərbaycan kino xadimi həmin məktubda bildirib ki, Soso Qarabağda münaqişələr zamanı Ermənistana səfər edən ilk müğənnilərdəndir, bu səbəbdən də Bakıda çıxış etməyə haqqı yoxdur.

**Amma bu müraciətə S.Pavliaşvili tərəfindən verilən cavab öz hədsizliyi və kino xadimini aşağılayan tonları ilə yadda qalıb. Müğənni deyib ki, onun konsertləri siyasi xarakter daşımır. Ardınca isə aşağıdakı kimi həddini aşan ifadələrdən istifadə edib:** “Siz mənim üçün narahat olmayın. Ağzına gələni danışmaq bekar adamların işidir. Onlara gəmirmək üçün sümük lazımdır. 80-ci illərin sonunda bəzi bədheybətlər əllərinə bıçaq alaraq uşaq və qadınları doğramağa başlayıblar. Bakıya gəlib-gəlməyəcəyimi dramaturqdan soruşmayacağam, onun kim olduğunu bilmirəm. İndi populyar oldu, bu səbəbdən onu təbrik edirəm. Buna görə mənə bir şüşə konyak hədiyyə etsin. Mənim konsertimə dəvət edirəm, gəlsin. Mən sülhsevər insanam. İnsanlarla milliyyəti və ya etiqadına görə yox, hərəkətlərinə görə dostluq edirəm. Allah mənə istedad verib, bunlar üçün oxu, o birilər üçün isə oxuma deməyib. Bu qışqırıq salanlar isə Qarabağı qaytarmaq istəyirlərsə, hücum qrupu yaradıb, gedib qaytarsınlar. Özləri üçün divanda uzanıb, Sosonun gəlib-gəlməyəcəyini düşünürlər. Qarabağın qaytarılması bundan asılı deyil, şükür Allaha. Mən Qarabağı heç kimin əlindən almamışam. Mən harada gözləyirlərsə, ora da gedirəm və oxuyuram! Bakıdan mənə zəng edirlər və deyirlər ki, ”Soso, biz sənin mahnılarını oxuyuruq, sağ ol ki, varsan. Bakı səni sevir!" Hər bir insan öz fikrini deməkdə azaddır. Demək istəyirsə, qoy desin. Mən heç zaman münaqişəni qızışdırmamışam. Yanan odu hər zaman söndürməyə çalışmışam. Ermənilərlə dostluq etmişəm, edirəm, edəcəyəm də, heç kimdən soruşmayacağam. Mən heç valideynlərimdən çoxdandır ki, kiminlə dostluq edəcəyimə dair məsləhət almıram. Bakıda tezliklə xeyriyyə konsertimiz olacaq. Mən hamını böyük məmnuniyyətlə həmin konsertə dəvət edirəm. Gəlmək istəmirlər, ömürləri uzun olsun, 100 il yaşasınlar, onlara əmin-amanlıq arzu edirəm!", - deyə Soso Pavliaşvili bildirib.

**R.Fətəliyev isə “ermənilərin dostu”na aşağıdakı kimi cavab verib və onun səviyyəsinə enməyib:** “İndicə bu şəxsin cavabını oxudum. Hələlik onu deyə bilərəm ki, onunla bir məsələdə razıyam - bir butulka konyak məndən! Ona görə ki, mənim iddiam məhz onun hərəkətlərinədir, onun millətinə və ya hansısa digər bir istəyinə görə deyil. Məhz onun bizə qarşı etdiyi hərəkətə görə də mən istəməzdim ki, o, Bakıya gəlib, burada konsert versin. Amma hardasa görüşsək, məni ”məşhurlaşdırdığına" görə ona konyak bağışlayacam - bu problem deyil, bu, sadəcə, onun kino aləmindən xəbərsiz olduğunu göstərir. Biz cənab Pavliaşvilinin yaddaşının zəif olduğuna öyrəncəliyik".



**Soso Pavliaşvilidən zəhər kimi sözlər:** “Qarabağı qaytarmaq istəyirlərsə, hücum qrupu yaradıb, gedib qaytarsınlar”

Bu arada Soso Pavliaşvili, eləcə də Bakıya gələcək digər musiqiçi Timur Temirov Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, Azərbaycan ərazisinə giriş qadağasının ləğv olunmasını xahiş ediblər. Azərbaycan Xarici İşlər Nazirliyindən yayılan xəbərdə isə bildirilir ki, bir müddət bundan əvvəl KİV-də Soso Pavliaşvilinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qeyri-qanuni səfəri və Timur Temirovun isə işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma rejimin təşviqi ilə məşğul olması barədə məlumatlar verilmişdi.

Məktubda onlar həmçinin Azərbaycan xalqına, onun mədəniyyəti və musiqisinə böyük hörmət və ehtiram bəslədiklərini və ölkəmizin qonaqpərvərlik ənənələrini yüksək qiymətləndirdiklərini vurğulayaraq, Azərbaycana səfər etmək və tezliklə Bakıda konsert proqramları ilə çıxış etmək arzusunda olduqlarını bildiriblər.

Timur Temirov və Soso Pavliaşvilinin müraciətləri müvafiq qaydada nəzərdən keçirilib və Azərbaycan ərazisinə daxil olmaq üçün icazə verilib.

**S.Pavliaşvili isə bildirib ki, adının Azərbaycanın “qara siyahı”sından çıxarılmasına sevinib:** “Mən buna çox sevinirəm, çünki yaradıcı insanlar siyasi məsələlərlə, qadağalarla, ideologiyalarla məhdudlaşdırılmamalıdırlar”. **O, adının “qara siyahı”ya necə düşdüyünü, onun Azərbaycanın gözündə reabilitasiyaya necə nail ola bildiyini danışıb.** “Bu, dostum Emin Ağalarovun məni keçən il ”Jara" festivalına dəvət etdikdən sonra baş verib. Mən ona Azərbaycana buraxılmamaq səbəbini başa saldım. Emin adamlarla danışdı və hamı başa düşdü ki, bu cəfəngiyyatdır" deyə, müğənni qeyd edib.

O bildirib ki, bu ilin dekabrında Bakıda konsert proqramı planlaşdırır. Tədbirdən yığılan vəsait isə xeyriyyəçiliyə yönələcək.

**Müğənni-bəstəkar Emin Ağalarov, yəni konsertin təşkilatçısı isə “1news.az”a açıqlamasında bu məsələyə aydınlıq gətirib:** “”Bu insanların Azərbaycana gəlməsinə icazə verilən rəsmi kağızlar var. Bu məsələyə münasibətim belədir - hər iki sənətçi Azərbaycanla bağlı fikirlərini bölüşüb. Əgər onlar Bakıya gəlməyə hazırlaşırlarsa, deməli, səhvlərini başa düşüb, tutduqları mövqeyə görə, tam cavabdehlik daşıdıqlarını bilirlər.

Həmvətənlərimi qonaqpərvər və tolerant olmağa səsləyirəm. Səbirli olub, onların Azərbaycana gəlişini və hiss etdiklərini Bakıda özlərinin demələrini gözləsinlər. Payızın sonu, qışın ilk aylarında mən və komandam tərəfindən Bakıda Soso Pavliaşvilinin konserti təşkil ediləcək. Ümid edirəm ki, özüm də bu xeyriyyə tədbirində iştirak edə biləcəyəm. Bu təklif Sosonun özündən gəlib. Konsertdə satılacaq biletlərin pulu xəstə uşaqların müalicəsinə sərf olunacaq. Onun gəlişini istəməyən və KİV vasitəsilə hər kəsi konsertə getməməyə səsləyən, damarında azərbaycanlı qanı axan hər kəsə müraciət etmək istəyirəm. Mənim damarlarımdan müsəlman, Azərbaycan qanı axır və mən bu konsertin təşkilatçısıyam. Hər kəsi bu istedadlı insanın konsertinə gəlib, zövq almağa çağırıram. Hətta deyim ki, Soso 2017-ci ildə baş tutacaq “Jara” festivalının qonağı olacaq. Soso Azərbaycanı çox sevir, hər zaman hər yerdə ölkəmiz haqda müsbət fikirlər deyir. Əminəm ki, onun Bakı səfəri zamanı həmvətənlərim bunun şahidi olacaqlar. Hər kəsi sakit olmağa səsləyirəm, musiqi və dostluq bizi xoşbəxt edəcək".

**E.Ağalarov eyni zamanda bildirib ki, boykota səsləyənlərin arasında onunla iyirmi ilə yaxındır dostluq edən şəxslər var:** “Onlar bilirlər ki, Soso mənim qonağımdır və buna baxmayaraq, belə çağırışlar edirlər. Bu, onların vicdanına qalıb. Virtual aləmdə vətənpərvər olmaq asandır. Sözdə hamı vətənpərvərdir. Bəs əslində onlar nə edirlər?”

**Hələlik böyük qalmaqal bu mərhələdədir. S.Pavliaşvilinin konsertinə isə iki ay var. O vaxta qədər gürcü müğənninin onun gəlişinə etiraz edənləri necə və hansı sözlərlə təhqir edəcəyi isə sual işarəsi yaradır.**

❑ **Sevinc TELMANQIZI**



# Türkiyə hüquq-mühafizə sistemini möhkəmlədir

## Hökumət etibarlı kadrları mərkəzi aparata toplayır, daha böyük miqyaslı həbslər gözlənilir, Ankara PKK və FETÖ-yə qarşı əməliyyatları aktivləşdirib

**Türkiyədə 15 iyul qiyamından sonra dövlət orqanlarında başlayan islahatlar davam edir. Ötən gün yerli media hökumətin 61 vilayətin polis idarəsi rəisini yerdəyişmə etdiyini yazıb. Rəsmi qərara əsasən 34 vilayətin polis rəisi mərkəzi idarələrə gətirilib, 24 vilayət polisi rəisinin isə yerləri dəyişdirilib. 37 rəis ilk dəfə olaraq rəis vəzifəsinə təyin olunub.**

Rəisləri dəyişdirilən vilayətlər arasında İzmir, Diyarbəkr, Adana, Antalya kimi böyük vilayətlər də var. Əsas maraq doğuran isə DİN Polis Baş İdarəsində çalışan aralarında kəşfiyyat, qaçaqmalçılıq və banditizmlə mübarizə, terrorla mübarizə, xüsusi təyinatlı, kibercinayətkarlıqla mübarizə idarələrinin rəislərinin də olduğu 27 idarə rəhbərinin dəyişdirilməsi olub. Yerləri dəyişdirilənlər arasında polis kəşfiyyatının rəisi, adı Hrant Dink istintaqında keçən Engin Dinç olub. Dinç Eskişehir Polis İdarəsinin başına gətirilib.

Qeyd edək ki, Türkiyədə 15 iyul çevriliş cəhdi hadisələrindən sonra bir çox dövlət və ictimai qurumlarda təmizləmələr başlayıb. Xüsusən təhlükəsizlik və hüquq-mühafizə orqanları içərisində də ciddi təmizləmələr aparılıb. Eyni zamanda məhz bu “təmizləmələri” aparan qurum kimi DİN strukturları hökumətin əlində olan əsas güc orqanı olub. Polis orqanları içərisində FETÖ üzvlərinin çoxluğu və eyni zamanda qiyam zamanı polisin hökumətə sadiqliyi faktı bu təşkilat daxilində ciddi “təmizləmə”lərin xəbərçisi idi. Bu günə qədər DİN-in müxtəlif orqanlarından 8 min nəfərdən çox məmur işdən azad edilib və ya həbs olunub. Görünür ki, hökumət bu strukturu tamamilə yeniləmək və etibarlı kadrları mərkəzə, eləcə də əsas şəhərlərə gətirməyə çalışır. Bununla da həm də yaxın zamanlarda daha böyük “təmizlənmə”lərin olmasının işarəsi verilir. Artıq 100 gündür davam edən prosesin qarşıdakı mərhələdə daha ciddi siyasi postlarda olan nüfuzlu şəxslərə də gəlib çatması gözlənilir.

Yeri gəlmişkən, oktyabrın 26-da Türkiyə polisi İstanbul da daxil olmaqla, 12 vilayətdə həbslər həyata keçirib. Əməliyyat nəticəsində 81 polis əməkdaşı, o cümlədən İzmir Universitetində 55 müəllim və tələbə həbs olunub. Ümumilikdə isə 125 polis barəsində həbs qərarı çıxarılıb. Saxlanılanlar FETÖ üzvlərinin istifadə etdiyi mobil telefonlar üçün olan “ByLock” proqramından istifadə edirmiş. Terror təşkilatı istintaqı zamanı FETÖ üzvlərinin xüsusi proqramlar vasitəsilə bir-birilər ilə əlaqə saxladığı üzə çıxıb. Hazırda bu proqramın istifadəçiləri şübhə altına alınıb və istintaq onların bağlılığını araşdırır.

Türkiyə hüquq-mühafizə orqanları Diyarbəkr şəhər bələdiyyəsinin həmsədrləri HDP üzvü Giltan Kışanak (keçmiş deputat) və Fırat Anlını həbs ediblər. Saxlanılan şəxslər PKK-ya dəstək vermək, bələdiyyə və dövlət əmlakının terror təşkilatı tərəfdarlarının xeyrinə istifadə etmək, o cümlədən ölkənin bölünməsinə çağırışlar, bölücü fəaliyyətləri dəstəkləməkdə ittiham olunur. G.Kışanak Ankarada parlament komissiyasına hərbi qiyamla bağlı ifadə verib geri qayıdarkən hava limanında həbs olunub.

Ancaq bu həbslər bölgədə ciddi gərginliyə səbəb olub. Kışanak PKK dəstəkçisi və HDP-nin əsas fiqurlarından biri hesab olunur. Onun həbsi HDP tərəfindən sərt şəkildə tənqid olunub, eyni zamanda aksiya çağırışları edilib. Etirazlar səbəbilə hökumət orqanları təhlükəsizlik tədbirlərini gücləndirib, bələdiyyə binası qarşısına polis qüvvələri yeridilib. Toqquşmaların baş verməsi gözlənilir. Diyarbəkr valiliyi isə bəyan edib ki, fövqəladə vəziyyət rejimi ilə əlaqədar olaraq şəhərdə aksiya keçirmək, şüar səsləndirmək qadağandır.

Ankarada isə parlament hərbi çevrilişi araşdıran deputat komissiyasının istintaqında gərginlik yaranıb. HDP-dən deputat Mithat Sancar Diyarbəkr bələdiyyə sədrlərinin həbsi ilə bağlı çıxış etmək istəsə də, AKP-dən olan komissiya sədri buna icazə verməyib. Nəticədə komissiyanın iclasında gərginlik yaranıb. HDP-li deputatlar hakimiyyət deputatlarını Kışanakın həbsinə göstəriş verməkdə ittiham ediblər. Daha sonra söz ala bilməyən HDP deputatları zalı tərk ediblər.

Avropa Birliyi xarici siyasət komissarı Federika Moqerini yaydığı yazılı açıqlamada PKK-çı bələdiyyə sədrlərinin həbsini “narahatlıq verici” hadisə adlandırıblar. Eyni zamanda AB ali komissarı Ankaranı kürd separatçıları ilə dialoqu yenidən başlatmağa çağırıb.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

# Bakıda kişi sevgilisini öldürüb qaçarkən avtoqəzaya düşdü



**Binə qəsəbəsinin "Donuzçuluq" sovxozunun sakini, 45 yaşlı İlhamə Eynulla qızı Talıbovanın bədənində ekspertlər 13 bıçaq yarası müəyyən ediblər. Bu barədə "Sputnik Azərbaycan"a Suraxanı Rayon Polis İdarəsindən bildiriblər.**

Talıbovanın cəsədi oktyabrın 25-də ona məxsus evdə aşkar edilib.

Gecə cinayət-axtarış əməliyyatçıları qətli törətməkdə şübhəli bilinən şəxsin izinə düşərək saxlayıblar. Bu, Xəzər rayonunda qeydiyyatda olan Nardaran sakini, 1965-ci il təvəllüdlü Azər Şəmsəddin oğlu Ağayevdir.

Azər Ağayev İlhamə Talıbova ilə bərabər yaşayırdı. Kişini ağır vəziyyətdə şəhər xəstəxanalarının birində tapıblar. O, ağır yol qəzası nəticəsində aldığı xəsarətlərə görə xəstəxanaya yerləşdirilib.

A.Ağayev törətdiyi əməli etiraf edib və bildirib ki, qətldən sonra avtomobilə oturaraq oradan uzaqlaşmaq istəyib, yolda qəzaya düşüb. Qətlə gəldikdə isə o, İ.Talıbovanı qısqanclıq zəminində öldürdüyünü bildirib.

Qeyd edək ki, İlhamə Talıbova bir uşaq tərbiyə edirdi. Fakt üzrə istintaqı rayon prokurorluğu aparır.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

DİQQƏT DİQQƏT

**Müəllimlərin nəzərinə!**

"EDUCENTER" kurslarında imtahanlar başlandı!

Özünüzə və savadınıza güvənirsinizsə,

Sizi gözləyirik!

Əlaqə nömrələri: (+994 55) 729 96 86

(+994 50) 703 96 86

Ünvan: Adil Babayev 89-93 (Ərəblinka qəs.)

**Elan**

**Azərbaycan İqtisad Universiteti tərəfindən Maliyyə və Mühasibatlıq fakültəsinin 1-ci kurs tələbəsi Məmmədov Elvin Asif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

**Əziz oxucular, xaricdə və Azərbaycanda nəşr olunan qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün zəng etməyiniz və ya email (kioskum.az@gmail.com ailto:kioskum.az@gmail.com) yazmağınız kifayətdir.**

**Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!**

**Telefon: (012) 434-93-01**

DİQQƏT! 2011-ci ildən bütün Beynəlxalq Bal Sərgilərinin qalibi "Darı Tyan Şana" (Qırğızıstan) şirkətinin bal və müalicəvi bal məhsulları Bakıda!

***Atbaşı balı (Ağ bal)***
***Esparset balı (monoflor)***
***İssık kul balı***
***Karkıra balı***
***Uzqen balı***
***Mumiya***
***Oqnyovka pçelinaya***
***Propolis məcunu və s.***

Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır.
Məhsulları bu ünvandan ala bilərsiniz:
Neftçi Qurban küçəsi-119. (Bayıl Doğum evinin yanı)
**Əlaqə telefonu: (012) 49123-82; (051) 922-15-71**

## Masallıda və Cəlilabadda evlər sel sularının altında qaldı



**İntensiv yağıntılar səbəbindən Masallının ayrı-ayrı yaşayış məntəqələrində subasmalar qeydə alınıb. APA-nın cənub bürosunun məlumatına görə, ən acınacaqlı vəziyyət rayonun Böyük Təklə kəndindədir.**

Bu kənddə 50-yə yaxın fərdi ev sel sularının altında qalıb. Sel suları evlərin zirzəmilərinə dolub, əkin sahələrinə ciddi ziyan vurub. Bundan əlavə, xeyli sayda ev quşu tələf olub.

Yerli sakinlərin sözlərinə görə, onlar artıq ikinci ildir analoji problemlə qarşılaşırlar.

Bölgədə qeyri-sabit hava şəraiti davam edir.

Yağan intensiv yağışlar Cəlilabadda da bir sıra fəsadlar törədib.

APA-nın cənub bürosunun məlumatına görə, rayon mərkəzindən keçən Mişarçay çayı üzərindəki sututarda suyun səviyyəsi maksimum həddə çatıb.

Ərazidəki bəndin dağılma təhlükəsi yarandığı üçün qabaqlayıcı tədbirlər görülür.

Su axınını təmin edən alternativ kanal körpünün qarşısında qazıldığı üçün Petrovka adlanan yaşayış məntəqəsinin rayon mərkəzi ilə əlaqəsi tamam kəsilib.

Mişarçay çayının məcrasından çıxması səbəbindən bir sıra iaşə obyekti su altında qalıb. Hazırda rayonun müvafiq qurumları selin qarşısını almaq üçün ağır texnikanın köməyi ilə qabaqlayıcı tədbirlər görür.

## Maşın 60 yaşlı piyadanı vurdu - vəziyyəti ağırdır

**Suraxanı rayonunda yol-nəqliyyat hadisəsi baş verib. ARB TV xəbər verir ki, Cəlal Qurbanov küçəsində 60 yaşlı İsbat Məmmədov idarə etdiyi "VAZ 2102" markalı avtomobillə yolu keçmək istəyən piyadanı vurub.**

Yaralını sürücü İsbat Məmmədov özü xəstəxanaya gətirib.

Ona dərhal tibbi yardım göstərilib və əməliyyat edilib. Həkimlər vəziyyətinin ağır olduğunu bildiriblər. Polis əməkdaşları qəza baş verən əraziyə baxış keçiriblər. Sürücünün ifadəsi alınıb. Məlum olub ki, hadisə piyada keçidi olmayan yerdə baş verib.

## Baş kardioloq: "Televiziya proqramlarında iştirak edən həkimlərə nəzarət olunmalıdır"

**"Azərbaycanın müxtəlif televiziya kanallarındakı proqramlarda iştirak edən həkimlərə nəzarət olunmalıdır".**

Respublikanın baş kardioloqu Faiq Quliyev APA-ya açıqlamasında deyib ki, müxtəlif növ xəstəliklərlə bağlı əhali düzgün məlumatlandırılmalıdır.

"Amma bu gün müxtəlif televiziya proqramlarında həkimlər, hansısa mərkəzlər özünü reklam edir. Bu düzgün deyil. O reklama, proqramlara cəlb olunan həkimlərə görə kimsə məsuliyyət daşımalıdır. Onların doğrudan da sahəsi üzrə mütəxəssis olub-olmadığı müəyyənləşdirilməlidir. Bəzən proqramlarda kardioloqlar çıxış edir, amma bu sahənin mütəxəssisi kimi mən onları tanımıram", - deyə o vurğulayıb.

F. Quliyev qeyd edib ki, televiziya reklamlarına nəzarət edilməlidir: "Əgər bu nəzarət olmasa, sabah zəhər də reklam edərlər. Bu gün həkim işləmək istəyənlər müəyyən sertifikasiyadan keçir, sonradan 5 il ərzində fəaliyyət göstərmək üçün razılıq alır. Reklam olunan həkimin fəaliyyəti, işləmək icazəsinin olub-olmaması yoxlanılmalıdır".

## Rusiyada Azərbaycan vətəndaşı 83 yaşlı qadını öldürüb

**Rusiyanın Lipetsk vilayətinin Aleksandrovka kəndində 1988-ci il təvəllüdlü Azərbaycan vətəndaşı 83 yaşlı qadını qətlə yetirib.**

APA-nın "Komsomolskaya Pravda"ya istinadən verdiyi məlumata görə, üzərində zorakılıq əlamətləri olan qadının meyiti ötən gün səhər qonşular tərəfindən aşkar edilib.

Faktla bağlı cinayət işi açılıb, qadını qətlə yetirən Azərbaycan vətəndaşı saxlanılıb. O, ilk dindirilmə zamanı cinayət törətdiyini etiraf edib. İstintaqın məlumatına əsasən, qonşu kənddə yaşayan azərbaycanlı gənc qəssab bıçağını götürərək velosipedlə təqaüdçü qadının evinə gedib. Qapını qırıb və qadını oyadaraq ona hücum edib. Münaqişə nəticəsində o, 17 dəfə qadına bıçaq zərbəsi endirib. Qadın küçəyə qaçıb, qətli törədən şəxs isə hadisə yerindən uzaqlaşıb. Sorğu zamanı o, hadisədən əvvəl qadın tərəfindən təhqir edildiyini bildirib və onun evinə intiqam məqsədi ilə getdiyini deyib.

## Metroya bomba qoyacağını deyən şəxsə 5 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində terrorçuluq barədə yalan məlumat verməkdə ittiham olunan Fəqani Hüseynovun məhkəməsi başa çatıb. APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə F. Hüseynov 5 il müddətə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, bu ilin fevral ayında naməlum şəxs DİN-ə zəng edərək metroya bomba qoyacağını deyib. "102" xidmətinə daxil olan zəngdən sonra araşdırmalara başlanılıb. Dövlət Təhlükəsizliyi Xidmətinin Abşeron Rayon Şöbəsi, DİN-in Abşeron Rayon Polis İdarəsi və Metropolitendə Polis Şöbəsinin birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində zəng edən şəxsin Abşeron rayonunun Saray qəsəbəsində yaşayan İmişli rayon sakini, 1977-ci il təvəllüdlü F. İsmayılov olduğu müəyyən edilib. Daha sonra həmin şəxs saxlanılıb. O, Cinayət Məcəlləsinin 216-cı (terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə) maddəsi ilə ittiham olunur.

YENİ MÜSAVAT
N 238 (6559) 27 oktyabr 2016

**Dünyadakı mövcud dinlərin əksəriyyətində vəfat edən insanın dəfn qaydası oxşardır: meyit torpaqda qazılan qəbirlərdə basdırılır. Ancaq bir sıra xristian ölkələrində meyit basdırılmır, yandırılır və külü yaxınları, doğmaları tərəfindən saxlanılır. İnsanların meyitlərinin yandırılması prosesi kremasiya adlanır.**

# Cəsədi yandırıb külünü saxlamaq... dinlər nə deyir...

## Kənan Rövşənoğlu: "Şəriətin dünyadan köçən insan barəsində 4 əsas əmrindən biri mərhumu torpağa basdırmaqdır"

Kremasiyanın tarixi çox qədimdir. Hələ ibtidai insanlar mərhumun meyitini oda atmaqla onu allahların himayəsinə göndərdiklərini düşünürdülər. Bu, Homerin "İliada" əsərində də əksini tapıb. Misir və qədim Yunanıstanda kremasiyadan daha geniş istifadə olunub. Yunanlar hesab edirlərmiş ki, yandırılma üsulu mərhuma axirət dünyasında yardımçı olur. Sonradan bu ənənə Qədim Pimə ötürülür və burada yandırılmış meyitin külü xüsusi qablarda saxlanılır. Həmin dövrlərdə xristian aləmində kremasiya bütpərəstlik əlaməti hesab olunduğu üçün Avropada kremasiyadan imtina olunaraq, mərhumun torpağa tapşırılmasına üstünlük verilir. Böyük Karlın hakimiyyəti dövründə isə kremasiya qətiyyətlə yasaq olunur və bu ənənə min illərlə unudulur.

Ancaq ölünün yandırılma üsulu 18 ildən sonra yenidən gündəmə gəlir. Kremasiya müasir dövr üçün də aktualdır. Hətta hazırda Yaponiyada bir firma ölən insanın külündən yaxınları üçün almaz üzük və ya boyunbağı düzəldir. Driesassur adlanan bu firma əvvəl ölülərin küllərini xüsusi bir sobada qrafit daşına çevirib daha sonra almaz halına gətirir. Bir adamın ölüsünün almaza çevrilməsi üçün 226 qram kül lazım olur. Belə bir bjuteriya isə 2700 və 20 min dollar arasında başa gəlir.

Hazırda Rusiyanın 17 şəhərində 20 krematoriya var. Burada insanlar yaxınlarının meyidlərinin külünü bir qaba yığıb saxlayır. Ancaq bu günlərdə Vatikan katoliklərə yaxınlarının külünü saxlamağı qadağan edib. Vatikanın qərarına görə, ölənlərin qalıqlarının bundan sonra yalnız kilsə tərəfindən müəyyən edilən yerlərdə saxlamaq mümkün olacaq. Sənədə əsasən, külü evdə saxlamaq ona görə qadağan edilir ki, bu panteizm, naturalizm və ya nihilizmin təzahürüdür.

XX əsrin ortalarına qədər katolik kilsəsi dəfnin yeganə mümkün variantı kimi onların torpaqda dəfn edilməsini məsləhət görürdü. Kremasiyanı 1963-cü ildə mümkün hesab edriblər. Vatikanın qətnaməsində isə deyilir ki, inama zidd olduğu üçün katoliklər kremasiyadan imtina etməlidirlər.

Qeyd edək ki, bu, Rusiyanın çox az şəhərlərində tətbiq edilsə də, elə ölkələr var ki, hazırda orada yalnız kremasiya praktikasından istifadə edirlər. Məsələn, əhalisinin



hinduizmə sitayiş etdiyi ölkələrdə mərhumun tonqalda qalanması (kremasiya) praktikası mövcuddur. Onlar inanırlar ki, tonqalda yanan cəsədin ruhu təmizlənir. Mərhum adətən yüksək ərazilərdə yandırılmalıdır. Bunun üçün odun parçalarından piramida formasında təpə düzəldilir və cəsəd bu piramidanın başında yandırırlar. Adətən belə mərasimlər üçün məkan olaraq çay sahilləri seçilir. Xüsusən hindlilərin müqəddəs hesab etdikləri Qanq çayı sahilində belə mərasimləri icra etməsi prestijli sayılır. Cəsədə od vurmaq missiyasını adətən mərhumun böyük oğlu yerinə yetirir. Əgər ailədə oğul övladı yoxdursa, bu missiyanı nəslin kişi qohumlarından biri icra etməlidir. Övlad atasını dəfn edirsə, tonqal mərhumun baş hissəsindən, anasını dəfn edirsə, ayaq nahiyəsindən qalanmalıdır. Mərhumun dul qadını və qızları prosesdə iştirak etmirlər. Onlar yalnız dəfn yerində quraşdırılan oturacaqlardan mərasimi izləməklə kifayətlənirlər. Kremasiya mərasimi bitdikdən sonra mərhumun qohumları öz evlərinə qayıdırlar. 3 gündən sonra isə kremasiya yerinə qayıdaraq mərhumdan geri qalan külünü qablara yığaraq çaya və digər su hövzələrinə atırlar.

**İslam ölkələrində isə bu cür ənənə yoxdur və dinimizə zidd hesab edilir. Dini ekspert Kənan Rövşənoğlu İslam dinini yalnızca meyitin dəfn edilməsi qaydasının olduğunu dedi:** "Şəriətin dünyadan köçmüş insan barəsindəki 4 əsas əmrindən biri də mərhumu torpağa basdırmaqdır. Ancaq bu, ümumi əmrdir. Bəzi bölgələrdə insanlar cəsədləri sərdabə kimi tikililərdə, qapalı yerlərdə qoyurlar. Ancaq ümumi göstəriş dəfndir. Müsəlmanın cəsədinə ehtiram İslam dinində buyurulub və ölmüş insan ehtiramla yuyulub qüsüllənir, kəfənə bükülür, meyit namazı qılındıqdan sonra dəfn olunur. Bu dini göstərişdir. Yəni cəsədin yandırılması və ya məcusilərdə olduğu kimi, yüksək bir yerə qoyulub cəsədin quşlar tərəfindən yeyilməsi kimi adətlər yoxdur. Yalnız istisna hallarda dənizdə, sahildən uzaq məsafə olarsa və cəsədi saxlamaq xəstəliyə gətirə bildiyi üçün bu zaman digər qaydalara əməl etdikdən sonra cəsədi dənizə atmaq olar. Ancaq yandırma və ya külünü saxlama kimi adət yoxdur".

❑ **Günel MANAFLI**

# Azərbaycanda unudulan çörək növləri...

## Elə çörək növü var ki, ovulmur və 10-15 gün kif atmır



**Azərbaycanda min illər tarixi olduğu hesab edilən çörək əsrlərdən bəri bolluq və bərəkət rəmzi sayılır. Azərbaycanda çörək hər şeydən üstün tutulur, müqəddəs hesab edilir. Hətta biz yerə bir tikə çörəyin düşdüyünü görsək, dərhal onu götürüb öpüb gözlərimizin üstünə qoyuruq. Azərbaycanlılar həmişə dar məqamlarda "çörək haqqı" deyə bu müqəddəs nemətə and içir, Tanrıdan çörəklə imtahana çəkilməməyini diləyir, ən hörmətli qonağını duz-çörəklə qarşılayır. Hətta çörəklə bağlı bir çox adət-ənənələr də mövcuddur.**



Azərbaycanın bir sıra kəndlərində toylarda qız evi və oğlan evi tərəfindən bir çörək ortadan bölünür. Hansı tərəfə çörək çox düşərsə, o evdə ruzi-bərəkətin çox olacağı inamı var. Bundan başqa, gəlin ata evindən çıxarkən onun başının üzərində çörəyin kəsilməsi də bərəkət hesab edilir. Azərbaycan folklorunda çörəklə bağlı müxtəlif atalar sözləri, aforizmlər, bayatılar, qarğışların olması da təsadüfi deyil. Məsələn, "Çörəyi tapdalamazlar"; "Bir tikə çörək dağ aşırar"; "Torpağa düşməsin havayı bir dən, çörək bol olarsa basılmaz Vətən", "Çörəyi dizinin üstündədir", "Duz çörək-düz çörək"...

Azərbaycanda çörəyin müxtəlif növləri bişirilir: yuxa, yayma, fətir, lavaş, səngək, xamralı, qalın, nazik, fəsəli, kətə, təndir çörəyi, xörəkli çörəyi, bəyim çörəyi, qoz çörəyi, badam çörəyi və sairə. Azərbaycanın hər bölgəsinin özünəməxsus çörək növü və bişirilmə üsulu mövcuddur. Bu çörəklərin dadları da bir-birindən fərqlənir. Məsələn, Naxçıvan, Qubadlı və Zəngilan regionlarında daha çox lavaş çörəyindən istifadə edilir. Hətta bu regionlarda lavaş ehtiyat üçün 2-3 aylıq bişirilir, sonra qurudularaq dəsmala bükülür və uzun müddət saxlanılır. Yeməkdən əvvəl qurudulmuş lavaşın üzünə azca su çilənir və dəsmala bükülərək bir müddət yumşalmağa qoyulur. Bakı, Gəncə, Naxçıvan, Şamaxı və digər yerlərdə vaxtilə geniş yayılan çörək növlərindən biri də səngək çörəyidir. Bu çörək növü xırda-xırda daşların üzərində, qırmızı kərpicdən hazırlanan kürələrdə bişirilir və əsasən bozbaş, piti kimi duru, yağlı yeməklər üçün nəzərdə tutulur. Onun əsas üstünlüyü 3-4 gün ərzində təzə qalması və rahat həzm olunmasıdır. Bu səbəbdən də mədə-bağırsaq xəstəliklərindən əziyyət çəkənlərə səngək çörəyindən istifadə etmək məsləhət görülür. Digər çörək növü isə Kəpək çörəyidir. Kəpək çörəyi öd kisəsində daş meydana gəlməsi ehtimalını azaldır, qəbizliyin qarşısını alır, iştahanı kəsərək kilo verməyə kömək edir. Bununla yanaşı, bağırsaqların nizamlı işini təmin edən kəpək çörəyi bağırsaq xərçənginin meydana gəlməsinə də mane olur. Kəpəkli çörək artıq çəki problemi və ya şəkər xəstəliyi kimi narahatlıqları olanlar üçün deyil, hər kəs üçün faydalıdır.

Azərbaycanda daha bir çörək növü isə Ləzgi çörəyidir. Ləzgi çörəyi görünüşünə görə günəşi xatırladır. Bu isə ləzgi xalqının mifologiyası ilə bağlıdır. Ləzgi çörəyinin özünün də müxtəlif növləri var. Bu növlərdən biri də Xərək çörəyidir. Bu çörək növü mayalı və mayasız xəmirdən qalın lavaş yayılıb üstü ləkələnməklə hazırlanır. Onu xərəyə qoymazdan əvvəl üzünün yaxşı qızarması üçün üzərinə yumurtalı su və yaxud ayran çəkilir. Xərək çörəyinin çoxlu üstünlükləri də var. Bu çörək ovulmur və 10-15 gün kif atmır. Buğda çörəyi də ən sağlıqlı çörək növü sayılır. Mütəxəssislərə görə, əlavə qatqısı olmayan buğda unundan hazırlanmış tam buğda çörəyi ən sağlıqlı çörəkdir və digər çörəklərdən fərqli olaraq vitaminlə zəngindir. Tərkibinə görə mədədə toxluq hissini tez yaradır və ağ çörəkdən daha az kalori-yə sahibdir. Eyni zamanda da tərkibindəki glisemik indekslə qan şəkərini balanslaşdıran xüsusiyyətə malikdir. Ancaq təəssüf ki, hazırda buğda çörəyi adı altında satılan çörəklər tam buğda çörəyi deyil. Onlara rəng vurulduğu da iddia edilir. Tam çovdar çörəyi isə tam buğda unu ilə çovdar ununun və ya dənələrinin qarışdırılaraq hazırlandığı çörək növüdür. Çəki idarəsində, qan şəkərinin tənzimlənməsində, ürək sağlamlığının qorunması, qəbizliyin qarşısının alınması və bağırsaq sağlamlığının qorunmasında tam buğda çörəyi ilə oxşar təsir göstərir. Yulaf çörəyi tam buğda unu ilə yulaf kəpəyinin qarışdırılması ilə hazırlanan yulaf çörəyinin özünəxas ləzzəti kimi sağlamlığa faydaları da vardır. Yulafda, digər taxıl məhsullarına nəzərən daha yüksək səviyyədə həllolan lif var. Tərkibindəki beta-glukan adlı həllolan lifin ürək sağlamlığı üzərində müsbət təsirləri olduğu elmi araşdırmalarda da sübut edilmişdir. Qan xolesterolunun tənzimlənməsində müsbət təsirlərə malikdir. Bir çox elmi işlərdə, yulaf əzməsi, unu və ya kəpəyinin pis xolesterol olan və ürək sağlamlığını təhdid edən LDL xolesterolunu azaltdığı göstərilmişdir. Bundan başqa, 2-ci tip diabet (şəkər) xəstələrində də yemək sonrası qan şəkərinin sürətlə yüksəlməsinə mane olur.

Hazırda çörəkbişirmə sahəsində müxtəlif texnologiyalardan istifadə olunsa da əcdadlarımızdan qalan təndirə çörək yapmaq ənənəsi hələ də qalır. Əsrlər keçməsinə baxmayaraq təndirin özü dəyişməyib, ta qədimlərdə olduğu kimi qalıb. İndi nəinki kəndlərdə, paytaxtda belə təndirlər mövcuddur. Hətta elə insanlar var ki, bu təndirləri öz həyətlərində quraşdırır və təzə isti-isti təndir çörəyi yeyir.

Hazırda paytaxtda regionlarda bişirilən çörək növlərinin heç də hamısı satılmır. Bu cür çörəklərə yalnız hansısa regionu əhatə edən restoranda rast gələ bilərsiniz. Məsələn, Şəki çörəyi xarici görünüşünə görə fərqlənir. Bu çörəyə Şəki yeməkləri verilən bəzi restoranlarda rast gəlmək mümkündür. Hazırda paytaxtda satılan çörək növləri, təndir, zavod çörəyi, kəpəkli çörək, buğda çörəyi, südlü çörək, yulav çörəyi, İvanovka çörəyi satılır. Bu çörəklərin qiyməti də 30 qəpik 2 manat arasında dəyişir. Bundan başqa, Azərbaycanda alman çörəyi də satılır...

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

Yeni MÜSAVAT

Son səhifə

N 238 (6559) 27 oktyabr 2016



## Televizora ən çox baxanlar bolqarlardır

İngiltərənin "Daily Mail" internet portalının məlumatına əsasən, Bolqarıstan əhalisinin 43 faizi hər gün televizor qabağında orta hesabla üç saat vaxt keçirir. Bu rəqəm Avropada televizordan asılı adamların ən çox məhz Bolqarıstanda olduğunun sübut edir.

Lenta.ru saytının xəbərinə görə, araşdırma "European Social Survey" təşkilatı tərəfindən Avropanın 30 ölkəsində aparılıb. Bolqarıstandan sonra ikinci yerdə Böyük Britaniya, üçüncü yerdə isə İrlandiyadır. Avropada televizordan asılı olan adamların orta sayı 21 faizə bərabərdir.

Alimlərin son araşdırmasına görə, hər gün televizora altı saat baxan adamların ömrü 5 il azalır.



## 350 milyon insan depressiyadadır

Planetimizin 350 milyondan çox sakini depressiyadan əziyyət çəkir. İnsanı normal yaşayıb-işləmək imkanından məhrum edən bu psixi pozğunluq onu intihara sürükləyir. Bu barədə məlumatı Dünya Səhiyyə Təşkilatı yayıb. Məlumatda bildirilir ki, depressiya adi əhval dəyişmələrindən fərqlənir. O, iki həftə və ya daha çox sürən kədər hissi doğurur və işdə, təhsil müəssisəsində və ya evdə normal fəaliyyətə təsir edir. DST-nin Psixi sağlamlıq və toksikomaniya departamentinin direktoru Şekhar Saksen deyib ki, dünyada depressiyanın müalicəsinin bəzi çox effektiv vasitələri var: "Təəssüf ki, depressiyadan əziyyət çəkən şəxslərin yarısından azı, bir çox ölkələrdə isə on faizdən azı tibbi yardım alır".

# Tutuquşu ər xəyanətini ifşa etdi

Küveytdə bir qadın ərinin ona evdəki qulluqçu ilə xəyanət etdiyini tutuquşunun köməyi ilə öyrənib. Lenta.ru saytının xəbərinə görə, adı açıqlanmayan qadın tutuquşundan intim münasibət zamanı deyilən ifadələri eşidib. Əri ona heç vaxt belə sözlər deməmədiyi üçün o da bu məsələdə xəyanət izi olduğundan şübhələnib. Evinə qulluqçudan başqa qadın girmədiyi üçün də şübhəsinin hədəfi həmin qadın olub. Küveytdə ər-arvad xəyanəti cinayət sayılır. Odur ki, tutuquşunun sözləri hüquq-mühafizə orqanları üçün ip ucu olub. Amma ondan cinayət işində və məhkəmədə şahid kimi istifadə edə bilməyiblər. Son nəticədə kişi həbs cəzasından qurtulub.



## Məktəb rəhbərliyindən qəribə tələb - dərsə hər gün konserv bankası gətirin

Amerikanın Alabama ştatındakı Valley şəhərindəki məktəbin rəhbərliyi uşaqlardan konserv bankası gətirməyi xahiş edib. Onun bildirdiyinə görə, bu, hücumçulardan qorunmaq üçün lazımdır. Konserv qutusunun çəkisi təxminən 200 qram olmalıdır. Təxmin edilir ki, bu qutular sinif otağında saxlanılacaq və məktəbə hücum olarsa, bundan silah kimi istifadə ediləcək. Məktəbin direktoru Priscilla Holli hesab edir ki, bu cür silah məktəblilərə özünümüdafiə hissi aşılayacaq. Bundan başqa, mümkün olan hücuma qarşı müəllimlər şagirdlərə barrikada qurmağı da öyrədəcək. Bu zaman onlar sinfə cinayətkar daxil olarsa, özlərini qoruya biləcəklər. Yox, əgər cinayətkar bütün hallarda məktəbə daxil olubsa və rəhbərlik məktəbliləri evakuasiya etməyi çatdırmayıbsa, bu halda onlar hücumçulara dərsliklər vasitəsilə hücum edə bilərlər. Holli bildirib ki, konserv qutuları lazım gəlməsə, ilin sonunda onları məktəbin yeməkxanasına təhvil verəcəklər. Məlumatda qeyd edilir ki, valideynlərin böyük qismi məktəb rəhbərliyinin bu addımını dəstəkləyir.






## Küsənlərin əvəzinə üzr istəmə servisi

Türkiyənin Əskişəhər şəhərində aralarında həkim, mühəndis və məmurların da yer aldığı bir könüllü qrupun sosial media vasitəsilə qurduğu "Üzr istəmə servisi"nə 4 ayda 10 min nəfər müraciət edərək, dəstək istəyib. Xidmət tamamən pulsuzdur. Burada məqsəd arasında küskünlük olan insanları barışdırmaqdan ibarətdir. Sistemin necə işlədiyinə gəlincə, ttp://www.hurriyet.com.tr/index/facebook-okacebook, Instagram ttp://www.hurriyet.com.tr/index/instagram və ttp://www.hurriyet.com.tr/index/twittervitter kimi sosial şəbəkələrdə "Eskişehir Özür Dileme Servisi" başlığı ilə axtarış apararaq servisə müraciət etmək mümkündür. Burada yer alan telefon nömrələrinə zəng edənlər isə operatora üzr istəmək istədikləri hadisəni danışır və bunun üsullarını öyrənirlər. Bu servisə müraciət edən insanların əvəzinə servisin könüllüləri həmin şəxslərə zəng edib, üzr istəyirlər.




**QOÇ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə özünüzü çox da üzməyəsiniz. Əks təqdirdə, səhhətinizlə bağlı xoşagəlməzliklər mümkündür. İstənilən mübahisədən uzaq olun. Əsasən istirahət edin.

**BUĞA** - Çox maraqlı bir gün yaşayacaqsınız. Bir tərəfdən hadisələrin zövqünüzlə uyğunlaşması, digər tərəfdənsə maraqlı insanlarla rastlaşmağınız ovqatınızı yüksəldəcək.

**ƏKİZLƏR** - Yeni görüşlər üçün səmərəli vaxtdır. Yaxşı olar ki, əvvəlcədən təyin edilmiş işgüzar sövdələşmələri təxirə salmayasınız. Məhəbbətdə səmimi olun və kənar təsirlərə baş qoşmayın.

**XƏRÇƏNG** - Bir qədər təzadlı məqamlar yaşayacağınız gözlənilir. Buna baxmayaraq, yeni işgüzar əlaqələrə başlamağınız daxili nikbinliyinizi artıracaq. Təcrübəli adamlardan yararlanın.

**ŞİR** - Dualarınızın sayını artırın, ziyarətgahlara gedin. Çalışın ki, Tanrıya zidd olan hərəkətlərə yol verməyəsiniz. Belə etsəniz, ağrı-acılarınız da sovuşub gedəcək. Uzaq yola çıxmayın.

**QIZ** - Astroloji göstəricilər gün ərzində səhhətinizlə bağlı problemlərin artacağını bildirir. Yaxşı olar ki, fiziki işləri təxirə salıb istirahətə üstünlük verəsiniz. Ac qalmayın.

**TƏRƏZİ** - Ola bilsin ki, çoxdan görmədiyiniz xeyirxah adamlarla rastlaşasınız. Belə olarsa, öz problemləriniz haqqında onlara danışmaq olar. Bu gün savab işlərinizin sayını artırın.

**ƏQRƏB** - Deyirlər insanın hər şeydən əli üzüləndə məhəbbət budağından yapışır. Ulduzlar da bu təqvim üçün sizə məhz həmin tövsiyələri təlqin edir. Qəlbinizi sevgisiz qoymayın, mərhəmət göstərin.

**OXATAN** - Bir qayda olaraq bu ərəfə şəxsi işlərinizdə əsaslı dönüş yaradır. Lakin bu, saat 14-dən sonra mümkün ola bilər. O vaxta qədərsə istənilən mübahisədən yayınmalı, ölçülü-biçili danışmalısınız.

**OĞLAQ** - Təxminən saat 15-ə qədər özünüzü təmkinli apara bilsəniz, gözlənilən tələtümlərdən qurtulacaqsınız. Sonrakı ərəfədə isə iki sürprizlə qarşılaşacaqsınız. Onların biri pulla bağlıdır.

**SUTÖKƏN** - Qeyri-adi heç nə gözlənilməsə də, gününüzü maraqlı etmək üçün canfəşanlığınızı artırmalısınız. Darıxdığınız adamların əhatəsində olun. Keçmiş problemlərdən danışıb özünüzü yormayın.

**BALIQLAR** - Kifayət qədər uğurlu gündür. İstər qarşılıqlı münasibətlərdə, istər perspektivli sövdələşmələrdə, istərsə də maliyyə uğurlarına yetişməkdə ulduzlar sizə yaxından yardımçı olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yeni dəb - güzgülü qalstuk



Xarici ölkələrdən sonra Türkiyədə də ciddi maraq görən güzgülü qalstuklar artıq Anadoluda satılmağa başlanıb. 2017-ci ildə geniş yayılacaq qızıl və gümüş rəngli, altı pleksi, üstü güzgüdən hazırlanmış parçalı qalstuklar daha çox toya hazırlaşan gənclər və fərqli görünmək istəyənlərin seçimidir. Türkiyədə onun satışına başlayan Aydın Akdemir Türkiyə mətbuatına bildirib ki, xaricdə 125 dollara satılan bu qalstuklar Türkiyədə təxminən 40 manat dəyərindədir. İtalyan dəbindən təsirlənərək hazırlanan qalstuklar 2017-ci ildə bütün dünyada sürətlə yayılacaq.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.